*Baş redaktor:* **prof. Y.Ş. Kərimov**

*Redaksiya heyəti:*

| | |
|---|---|
| **Aydın Əhmədov** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin kənd rayonları üzrə ümumi təhsil şöbəsinin müdiri* |
| **Faiq Şahbazlı** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin dərslik və nəşriyyat şöbəsinin müdiri* |
| **Arif Muradov** | *Azərbaycan Respublikası Təhsil muzeyinin direktor müavini* |
| **Nərminə Alnağıyeva** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin məktəbəqədər təhsil sektorunun müdiri* |
| **Asəf Zamanov** | *Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun direktoru, fizika- riyaziyyat elmləri doktoru, professor* |
| **Nurlana Əliyeva** | *Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, filologiya elmləri doktoru* |
| **Vaqif Əmiraslanov** | *Bakı Məktəbəqədər Pedaqoji Texnikumunun direktoru, tarix elmləri namizədi* |
| **Vidadi Xəlilov** | *Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun məktəbəqədər və ibtidai təhsil şöbəsinin müdiri, pedaqoji elmlər doktoru, professor* |
| **Ramiz Əliyev** | *Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun psixologiya və yaş fiziologiyası şöbəsinin müdiri, psixologiya elmləri doktoru, professor* |
| **Mircəfər Həsənov** | *Azərbaycan Müəllimlər İnstitutunun kafedra müdiri, professor* |
| **Azadxan Adıgözəlov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, fizika - riyaziyyat elmləri doktoru* |
| **Həqiqət Hacıyeva** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, biologiya elmləri namizədi* |
| **Zemfira Əsədova** | *Nizami rayonu, 175 nömrəli körpələr evi- uşaq bağçasının müdiri* |
| **Esmira Ağayeva** | *İ. Əfəndiyev adına Elitar Gimnaziyanın ibtidai siniflər üzrə direktor müavini* |
| **Bibixanım İbadova** | *Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun ibtidai təhsil kurrikulumu şöbəsinin müdiri, pedaqoji elmlər namizədi* |
| **Könül Həsənova** | *Nəsimi rayonu, 111 nömrəli körpələr evi- uşaq bağçasının tərbiyəçisi* |
| **Xalidə Talıbova (məsul katib)** | *Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun aparıcı elmi işçisi, pedaqoji elmlər namizədi.* |

Yığılmağa verilmiş 28.02.2010. Çapa imzalanmış 05.03.2010.
Kağız formatı 70x100 1/16. Şərti çap vərəqi 7,5.
Sifariş№ 03. Tiraj 1000. Qiymətі 2 manat 50 qəpik.
Redaksiyanın ünvanı: AZ 1010. Bakı, Zərifə Əliyeva küçəsi, 40.
Tel. 493-84-41, mob. (050) 370-60-11.

«RS Poliqraf» MMC-nin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Ünvan: Bakı ş. A. Məmmədov , 113.

## BU NÖMRƏDƏ


**Kərimov Y.** Bir daha dərs haqqında ....................................................... 4

*Yeni pedaqoji texnologiyalar*

**Məhərrəmova E.** Ənənəvi və interaktiv təlim metodlarına münasibət .................... 10

**Əliyeva A.** Uşaqlara düşünməyi öyrədək ................................................ 15

**Mikayılova K.** Şagird nailiyyətlərinin qiymətləndirməsi təhsilin keyfiyyətinin diaqnozu və monitorinqi kimi ....................................................... 19

**Əliyeva R.** Şagird fəaliyyətinin interaktivliyinə diqqəti artırmalı ................. 25

*Məktəbəqədər təhsil*

**Mursaqulova R.** Uşaqlarda məktəb təliminə maraq yaratmaq günün tələbidir ................................................................ 30

**Cəmilzadə S.** Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsində hərəkətli oyunların rolu ................................................................ 35

**Məmmədova A.** Beşyaşlıların məktəbə fiziki hazırlığı ...................................... 39

**Cəfərova P.** Təlim-tərbiyə prosesində uşaqları öyrənmə yolları ........................ 42

**Kərimova M.** Nitq inkişafı məşğələlərində böyük məktəbəqədər yaşlı uşaqların intellektual fəallığının təmin olunması yolları .................................. 46

*Fənlərin tədrisi və qabaqcıl təcrübə*

**İmayılova S.** Şagirdlərdə dövlət rəmzlərinə hörmət tərbiyəsi ............................ 53

**Азимова Х.** Из опыта работы по использованию интерактивного метода обучения учащихся второго класса с двойными согласными ............ 61

**Cəfərova V.** «Təbiətdə suyun dövranı» mövzusunun tədrisi ................................ 67

**Əliyeva S.** «Taxta boşqab» mövzusunda oxu dərsinin təşkili .............................. 72

**Məmmədova M.** «Ayı və Şir» təmsilinin tədrisinə həsr olunmuş dərs ....................... 76

**Qəhrəmanova X.** Rabitəli nitqin inkişafı üzrə işin təşkili ................................ 80

*Defektologiya*

**Kərimova E.** Solaxaylığın diaqnostikası və profilaktikası .................................. 83

*Pedaqoji nəzəriyyə*

**Ağarzayev S.** Müəllim nüfuzu haqqında ....................................................... 89

**Əsədova Z.** Varisliyin həyata keçirilməsi tərbiyəçi və müəllimlərin hazırlığından asılıdır ........................................................ 91

**Kərimova L.** Əyanilik prinsipindən istifadənin psixoloji aspekti ......................... 94

*Tərbiyə məsələləri*

**Gülməmmədova K.** Ailə uşaqlarda əxlaq tərbiyəsinin formalaşmasının əsası kimi ................................................................ 99

**Məhsimova A.** Müəllim-şagird münasibətlərinin formalaşdırılması haqqında ..... 103

*Xoş bahar gəlir*

**Babayeva Z.** Ay novruzlu baharım! (Musiqili əyləncəli viktorina) ...................... 106

*Qələbə – 65*

**Xəliliv V.** Azərbaycanın incəsənət xadimləri Böyük Vətən Müharibəsi illərində .. 113

*Bizim iş yoldaşlarımız*

**Əliyev R.** 70 illik mənalı ömür yolu ....................................................... 120

# BİR DAHA DƏRS HAQQINDA

**Yəhya KƏRİMOV,**
professor

Dərs, onun quruluşu, səmərəli təşkili bütün dövrlərdə pedaqoji ictimaiyyəti narahat edən ciddi problemlərdən biri olmuşdur. Bu problemin ciddiliyi ondan irəli gəlir ki, təlim prosesində bir nəfər (öyrədən) uzun müddət ərzində yiyələndiyi bəşəri məlumatldarı, bilikləri inkişaf səviyyəsinə, xarakterinə görə fərqlənən onlarla şagirdə öyrətməli olur. Ona görə də zaman keçdikcə elmi-texniki tərəqqi, sosial inkişaf, bu prosesdə təhsil alanların səviyyəsnin inkişafı təhsil sistemində müvafiq dəyişiklikləri mühüm zərurət kimi irəli sürür. Təhsil sistemində əsaslı dəyişikliklərin baş verdiyi indiki şəraitdə bu problem daha böyük əhəmiyyət qazanır.

Təlimin əsas təşkilat forması olan dərsin strukturu, təşkili qaydası, metodları tarixən innovativ tələblərə uyğun olaraq dəyişmiş, təkmilləşmişdir. Belə yeniləşmə həmişə öyrənənlərin xeyirinə olmuşdur. Hər dəfə yeniləşmə şagirdləri bilik, bacarıq və vərdişlərlə silahlandırmaqla yanaşı, onların tərbiyəsinin cilalanmasına və inkişafına təkan vermişdir.

Dərsdən söhbət düşərkən bir çoxları ənənəvi dərslə müasir dərsi qarşı-qarşıya qoyur. onların bir-birinə bənzəməyən proses olduğunu qeyd edirlər. Yenilikçilər müasir dərsin üstünlüyünü nədən görürlər?

- Müəllim hazır biliklər vermir.
- Şagirdlər müəllimlə bərabərhüquqlu subyekt kimi fəaliyyət göstərirlər.
- Müəllim fasilitator rolunu oynayır (istiqamət verir, yönəldir).
- Dərs, əsasən, kiçik qruplarla, cütlərlə təşkil olunur.
- Dərsdə problem irəli sürülür və həlli şagirdlərdən tələb olunur.
- Şagirdlər tədqiqat aparır, biliklərə müstəqil yiyələnirlər.
- Şagirdlər fəal olur, sinifdə müsahibə, diskussiya, debat və s. yaranır.
- İnteraktiv metod və priyomlardan istifadə olunur.
- Şagirdlər öz hazırlıqlarını özləri qiymətləndirirlər və s.

Bütün bunlar yaxşıdır, lakin təəccüblüdür ki, hər hansı yeninin əvvəllər olmuşun üzərində qurulması unudulur. Yaddan çıxır ki, yeni sayılan bu tələblər (heç olmasa onların elementləri) həmişə olub, sadəcə olaraq aktuallığı nəzərdən qaçırılıb, geniş yayılmayıb. Müasir mərhələdə onlara yeni yanaşma və yaradıcı tətbiq tələb olunur. Bu gün diskussiyadan imtina edilir. Unudulur ki, bütün bilikləri induktiv yolla vermək olmaz. Bir çox hallarda yeni bilik (yeni hadisə, forma, qayda) müəllimin şərhi ilə, ətraflı izahı ilə çatdırılmalıdır…

Doğrudur, ənənəvi texnologiyaya görə yeni bilik verən dərs, bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi dərsi, təkrar dərs nəhayət onların hamısını özündə birləşdirən kombinə edilmiş (mürəkkəb) dərs uzun müddət

hökm sürdü. Müşahidələr göstərdi ki, bunlara əsasən müəllimlər dərsləri bu və ya digər qəlibə salmağa çalışırlar. Məktəblərdə geniş yayılmış belə mürəkkəb dərslər müəllimin əl-qolunu bağlayır, təşəbbüsünü boğurdu.

Bü gün dərsin yeniləşməsindən bəhs edənlərin verdikləri konkret dərs nümunələri, dərsin sxemləri də müəllimləri qəlibə salır, onları dolaşdırır. Heç vaxt pedaqogikanın nəzəriyyəsi və metodika ilə məşğul olmayan müəlliflərin I sinif müəllimlərinə təqdim etdikləri «Müəllimlər üçün vəsait»də A hərfinin tədrisi ilə əlaqədar verdikləri nümunəni nəzərdən keçirək. (Üslub və durğu işarəsi səhvlərinə düzəliş verilmədən təqdim edilir.)

**Mövzu:** [A] səsi və «A» hərfi (1-ci saat)

**Məqsəd:** ümumi

| Dərsin tipi | İş forması | Texnikalar | Resurslar |
|---|---|---|---|
| induktiv | böyük qrup | beyin həmləsi | maqnitofon |

***Münasibət:***

*1) Görəsən, A səsini mötərizədə, A hərfini dırnaqda verməkdən məqsəd nədir? A-dan sonra **səs** və ya **hərf** sözü yazılırsa, bunlara ehtiyac varmı? Niyə hərf bəzən böyük, bəzən kiçik verilib?*

*2) Ümumi məqsəd deyəndə nə nəzərədə tutulur?*

*3) İnduksiyaya görə şagirdlər ayrı-ayrı faktları sadalamalı, onları ümumiləşdirərək nəticəyə gəlməlidirlər. Nümunədə bu görünmür.*

*4) Dərsdə beyin həmləsi tələb edən problem irəli sürülmür.*

***Motivasiya*** (10 dəq)

Müəllim maqnitofonda müxtəlif səslər (uşaq səsləri, suyun şırıltısı, quşların səsi, insanların söhbəti) səsləndirir.

- Uşaqlar nə eşitdiniz? (fərziyyələr…)
- Bunlar ümumilikdə nə adlanır? (səs)
- Deməli, biz səsi deyirik və eşidirk. Bu səslərin bəziləri insanların nitqinə aid idi. Onların dediklərini biz nə adlandırırıq? (cümlə).

Bu cümlələr nədən əmələ gəlir? (sözlərdən)

Sözlər nədən yaranır? (hecalardan)

Müəllim bir neçə sözü hissələrə ayıraraq şagirdlərə xorla tələffuz etdirir.

- Deməli, sözlər hecalardan ibarətdir. Bəs hecalar nədən əmələ gəlir? (səslərdən)

Müəllim şəklə uyğun mətn ilə (vəsaitin sonunda) şagirdləri tanış edir.

***Münasibət:***

*1) Dərslikləri təsdiq edən komissiya sinifdə canlıların səsini çıxarmağı qəbahət hesab edir. Necə olub ki, burada quşların (bayquş da quşdur) səsinin çıxarılması verilib.*

*2) «Sözlər nədən yaranır?» cümləsində «yaranır» əvəzinə «əmələ gəlir» verilməli idi. Unudulur ki, **o** səsi həm də sözdür, lakin hecalardan əmələ gəlməyib.*

*3) Müəlliflərin təklif etdikləri «Birinci dərs» şerinin şəklə heç bir dəxli yoxdu. Şəkildə əlində gitara tutmuş oğlan təsvir olunur. Gurultulu sözlərdən ibarət şeir isə*

*uşağın məktəbə getməsinə həsr olunub. Ümumiyyətlə, vəsaitin axırında şəklə müvafiq şeir yoxdur.*

*4) Şerin altında suala, tapşırığa bənzəməyən mənasız sözlər verilib.*

- Biz səslər üzərində iş apardıq. Səsləri nə edirik? (eşidirik)
- Bəs səsləri görə bilirik? (xeyr)
- Siz səsləri həm eşidirsiniz, həm də… nə edirsiniz? (deyirik)
- Biz hansı səsi keçdik? ([a] səsini)

***Münasibət:***

*1) Səslər üzərində heç bir iş aparılmadı. Nitq səslərindən söz açılmadı. Bununla belə, «Biz hansı səsi keçdik?» sualı verilir. Görəsən, səs nə vaxt keçildi? Nə elan edildi, nə dərsliyə baxıldı, nə ayrıca tələffüz olundu, nə kəsmə əlifba ilə göstərildi, nə də yazıldı.*

«A» hərfini işarə edək (müəllim yazı taxtasında «A» hərfi yazır)

Biz səsi yazdıq. Bu işarəni artıq görürük. Bu artıq hərfdir. Deməli, hərf nədir? (səsin işarəsi)

- Biz səsi nə edirik? (deyirik və eşidirik)
- Bəs hərfi ? (yazırıq və görürük)
- Səsi görə bilərik? (xeyr)
- Deməli, hərf səslərin şərti işarəsidir. Hərfləri görürük və oxuyuruq. Gəlin, ilk səslə tanış olaq. Müəllim şəklə uyğun mətn ilə (vəsaitin sonunda) şagirdləri tanış edir.

Müəllim şagirdlərə «A» hərfinin çap və yazı işarəsini kəsmə əlifba ilə göstərir.

***Münasibət:***

*1) «A» hərfini işarə edək cümləsində **hərf** əvəzinə **səs** işlənməli idi.*

*2) Yazı taxtasında hərfin kiçiyi də yazılmalı idi.*

*3) Müəlliflər «Biz səsi yazdıq» deməklə, şagirdlərdə yanlış təsəvvür yaradırlar.*

*4) İki cümlədə işlənən **artıq** sözünü altıyaşlılar başa düşmürlər.*

*5) Eyni fikir (şəklə uyğun və saitlə tanışlıq və s.) dəfələrlə təkrar olunur.*

*6) «Gəlin ilk səslə tanış olaq» cümləsi iş-işdən keçəndən sonra verilib. A hərfi yazı taxtasına yazılmazdan əvvəl həmin səs tələffüz edilməli idi.*

*7) Axırıncı cümlədəki «çap və yazı işarəsini» ifadəsi «çap və yazılı işarəsini» şəklində verilməli idi.*

**Tədqiqat sualı:** Səs nədir, hərf nədir? [A] səsi necə səsdir? Bu səs sözlərin hansı hissəsində işlənir?

Tədqiqat sualı əsasında şagirdlərin fərziyyələri dinlənilir.

***Münasibət:***

*1) Birinci suala ehtiyac yoxdur. Yuxarıda həll olunub.*

*2) Üçüncü sual da artıq görünür.*

**Tədqiqatın aparılması (15 dəq)**

Tədqiqat işi dərslikdən istifadə edilərək böyük qrupla aparılır. Müəllim verilmiş şəklə uyğun cümləni deyir:

- «Azyaşlı Arif alqışlandı» cümləsindəki sözlərə sual verək: Kim alqışlandı? (Arif)
- Arif nə etdi? (alqışlandı)
- Hansı Arif alqışlandı? (azyaşlı)
- Bu sözləri birləşdirdikdə nə alınır? (cümlə)
- Bu cümlədə neçə söz var? (üç)

Cümlənin sxemi yazı taxtasında şagird tərəfindən çəkilir.

- Bu sözlərdə yeni tanış olduğumuz [a] səsini harada eşidirik. (sözün əvvəlində)

Səhifədə verilmiş şəkillər və onların altında çəkilmiş sxemlər əsasında fonematik təhlil aparılır.

Müəllim əvvəl şagirdləri sxemlərdəki şərti işarələrlə tanış edir.

***Münasibət:***

*1)A səsinin işlənməsi xatirinə qondarma cümlə verilir. (Bu hal dərslik boyu davat edir.)*

*2)**Azyaşlı** sözü altıyaşlılara uyğun deyil.*

*3) «Arif nə etdi?» sualına alınan cavab (alqışlandı)düz deyil. Burada Arif heç bir şey etməyib. Həmin suala «Arif gitara çaldı.» cavabı verilə bilər. «Alqışlandı» cavabının alınması üçün isə «Nə oldu?» sualı qoyulmalı idi.*

*4)Cümlənin sxemi şagird tərəfindən yazı taxtasında çəkilirsə, deməli, o, ad, hərəkət və əlamət bildirən sxemləri tanıyır. (Əslində buna ehtiyac yoxdur.)Bunlar haqqında məlumat sonralar dil qaydaları ilə tanışlıq prosesində veriləcək.)*

*«Müəllim əvvəl şagirdləri sxemlərdəki şərti işarələrlə tanış edir.»tələbi nəyə lazımdır?*

*5) «Bu sözlərdə yeni tanış olduğumuz [a] səsini harada eşidirik?» sualına cavab (sözün əvvəlində) uşaqlarda diqqətsizlik, yanlış təsəvvür formalaşdırır. **Azyaşlı** və **alqışlandı** sözlərində **a** səsi həm də sözün ortasında işlənir.*

*Fonematik təhlilin mərhələləri ilə razılaşmaq olar.*

**Məlumatın müzakirəsi və təşkili (7 dəq)**

Şagirdlər *[a]* səsi olan müxtəlif sözlərlə tanış olur.

**Yönəldici suallar**

– Səs nədir, hərf nədir?
– [A] səsi sözün hansı hissəsində işlənir?
– [A] səsi ilə hansı birhecalı sözlər öyrəndik?
– [A] səsi ilə hansı ikihecalı sözü öyrəndik?
– [A] səsi ilə hansı üçhecalı sözü öyrəndik?

Müəllim yazı taxtasında cədvəl (cədvəl 2) çəkir və bu cədvələ yönəldici sözlərin köməyilə müxtəlif hecalı sözlərin şəkillərini asır.

**Nəticələrin çıxarılması (3 dəq)**

Müəllim: «Biz səsi deyirik və eşidirk, hərfi isə yazırıq və görürük. [A] səsi sözün əvvəlində və ortasında işlənir.»

**Yaradıcı tətbiqetmə.**

[A] səsi sözün əvvəlində, ortasında və axırında olan sözlər tapıb şəklini çəkin.

***Münasibət:***

*1) Başlıqdakı «və təşkili» sözləri artıqdır. **Müzakirəsi** sözünün mahiyyəti təşkilini də əhatə edir.*

*2) Cümlələrdə üslub gözlənilməyib, uzlaşma yoxdur.*

*3) «Müxtəlif hecalı sözlərin şəkilləri» nə deməkdir?*

*4) «[A] səsi sözün əvvəlində, ortasında və axırında olan sözlər tapıb şəklini çəkin» nə deməkdir? Müəlliflərdən xahiş olunu ki, **adi, yaxşı, sonra** sözlərinə şəkil çəksinlər.*

*5) Hərfin öyrədilməsi unuduldu.*

Sonrakı dərs nümunələrində yüzlərlə kobud qeyri-elmi nöqsanlara yol verilmişdir. Müəllimin başını belə cəfəngiyyatla qarışdırmaqda məqsəd nədir? Müəllimi il boyu yeknəsəq dərslər deməyə «hazırlamaq» lazımdırmı?

Yaddan çıxarmaq olmaz ki, hər bir mövzunun, konkret mətnin tədrisi prosesi özünəməxsus öyrətmə tərzi tələb edir. Eyni mövzu üzrə dərs deyən yüzlərlə müəllimin hər biri eyni məqsədə, kurrikulumun tələblərini ödəməyə bir-birinə bənzəməyən yollarla gedə bilər. Alınan nəticələr təxminən eyni olmalıdır. *Təxminən* sözü ona görə işlədilir ki, müəllim təhsilindən, stajından, pedaqoji-psixoloji biliklərə necə yiyələnməsindən, peşəsinə münasibətindən, ünsiyyət mədəniyyətindən, yaşadığı ərazidən, məktəbin tipindən, maddi bazasından, uşaqların inkişaf səviyyəsindən, valideynlərin pedaqoji maarifindən, tətbiq etdiyi metod və priyomlardan, əhvali ruhiyyəsindən asılı olaraq qismən fərqli nəticələrə nail ola bilər.

Qəlibə salınmış dərslər müəllimi sıxır, onun yaradıcılığını boğur. Müəllim çox müxtəlif mənbələrdən bəhrələnməli, onların təsiri ilə meydana yaradıcı fəaliyyətinin nəticələrini çıxarmağa çalışmalıdır. Novatorluğun yolu budur. Bu gün yeni pedaqoji texnologiyalardan, interaktiv metodlardan, mətbuatda təqdim olunan dərs nümunələrindən bacarıqla istifadə edən, öyrəndiklərini özlərinin yaradıcı fəaliyyəti ilə zənginləşdirən müəllimlərin bəziləri ilin ən yaxşı müəllimi kimi öz qiymətini alırlar.

Şagirdlərə öyrənməyi öyrədən, bilik və bacarıqlara müstəqil yiyələnmək, tədqiqat aparmaq, problemi həll etmək vərdişi aşılayan müəllimin əl-qolunu bağlamaq olmaz. Bəzi məktəb rəhbərlərinin təhsilimizdə baş verən yeniliklərdən bixəbər olmaları, əllərinə keçən dolaşıq vəsaitlərə, sənədlərə əsasən müəllimlərə «istiqamət vermələri», müəllim əməyini onlara əsasən «qiymətləndirmələri» dözülməzdir.

Əgər qəlibə salınmış dərslər hamı tərəfindən bəyənilsə idi, «qeyri-standart dərs» anlayışı meydana çıxmaz və bəh-bəhlə qarşılanmazdı. Bu gün məktəbə yeni sosial sifariş təlimin məzmununu dəyişmək və təlimin inkişafetdirici, tərbiyələndirici funksiyasını gücləndirməkdir. Təhsil sistemində vəzifələrin

mürəkkəbləşməsi onun zəifləməsinə gətirib çıxarır. Belə şəraitdə təhsilin həyat qabiliyyətinin təmin olunması (yaşaması) lazım gəlir.

Sinifdə işgüzar şərait yaradılmalı, şagird hər an ondan nə isə soruşula biləcəyini gözləməli, diqqətini səfərbər etməli, özü suallar verməlidir. Təcrübəli müəllim ilk gündən uşaqlarda öz əqli əməyini düzgün təşkil etmək üzrə zəruri bacarıq və vərdişlərin yaranmasına diqqət yetirir. Təcrübəli müəllim uşaqlarda öyrənməyə, biliyə məhhəbbət yaradır. Buna alışan şagird ev tapşırığını yerinə yetirərkən dərsdə öyrəndiyi materialı möhkəmləndirir, yiyələndiyi bilikləri təcrübədə tətbiq edir, müstəqil tədris əməyi vərdişlərini təkmilləşdirir və inkişaf edir. Şagird müstəqil işin metod və priyomlarını bildikdə onların yükü azalır.

Müəllim dərsdə daim bu bacarıqları formalaşdırmalıdır. Material izah edilərkən onunla işin metoduna xüsusi yer ayrılır. Şagirdlərə təhlil etmək, müqayisə etmək; başlıcanı ayırmaq, sübut etmək, qiymətləndirmək; qarşılıqlı əlaqələri araşdırmaq; möhkəmləndirərkən mnemik priyomlardan istifadə etmək; tətbiqetmə mərhələsində məsələlərin həllinin məntiqi və metodlarını nümayiş etdirmək; bilik, bacarıq və vərdişləri ümumiləşdirərkən nəticə çıxarmağı, planlaşdırmağı, model, sxem, cədvəl tərtib etməyi, işin nəticəsini formalaşdırmağı, bilikləri yoxlayarkən özünənəzarəti öyrətmək lazımdır. Bu zaman onlar öz diqqətlərini metodların şüurlu tətbiqinə yönəldirlər. Müasir dərsdə evristik müsahibəyə, evristik xarakterli tapşırıqların yerinə yetirilməsinə, problemli şərh, tədqiqatçılıq metodlarından istifadə olunmasına əhəmiyyət verilməlidir.

Son vaxtlar dərsə oyun elementlərinin daxil edilməsinə xüsusi diqqət yetirilir. Müxtəlif didaktik oyunlar, rebuslar, krossvordlar, şaradalar şagirdləri çox maraqlandırır. Oyunlar düşünmə, araşdırma bacarığını artırır, yorğunluğun qarşısını alır. Bəzi müəllimlər təlimi tam oyuna çevirmək istəyirlər. Belələri rastlaşdıqları situasiyaya birtərəfli yanaşırlar.

V.A. Suxomlinski demişdir: «Min dəfələrlə deyilmişdir: təlim əməkdir və onu heç vaxt oyuna çevirmək olmaz, lakin oyunla əmək arasındaçin səddi çəkmək də olmaz.... Oyunda uşaqların qarşısında dünya açılır, şəxsiyyətin yaradıcı qabiliyyətləri açılır. Oyunsuz dolğun, məzmunlu əqli inkişaf yoxdur və ola da bilməz».

Görkəmli pedaqoq K.D. Uşinski bu problemə bir neçə dəfə toxunmuş və çox ağıllı bir nəticəyə gəlmişdir. O, K.D. Uşinski haqlı olaraq qeyd edir ki, ciddi təlim əməyini oyuna çevirmək məsləhət görülmür. Həyat yalnız oyundan ibarət deyil. İnsan həyatda bir çox çətinliklərlə qarşılaşır.Ona görə də uşaqlara xoşlamadıqları, zəhlələri gedən, lakin öyrənilməsi vacib olanları öyrətmək lazımdır.

# ƏNƏNƏVİ VƏ İNTERAKTİV TƏLİM METODLARINA MÜNASİBƏT

Elza MƏHƏRRƏMOVA,
SDU-nun pedaqogika və psixologiya kafedrasının müəllimi

Təhsil ölkədə həyat səviyyəsinin başlıca göstəricisidir. Təhsil sistemi inkişaf etmiş ölkənin elmi, iqtisadiyyatıda inkişaf etmiş olur. Təhsilin inkişafını təmin edən vasitələrdən biridir. Ona dəyərli yeniliklər gətirmək, onda uğurlu islahatlar keçirmək, təhsillə əlaqədar islahatda müstəqil düşünməyi bacaran, yaradıcılıqla işləyə bilən, öz xalqına, vətəninə sadiq, əsil insanlar yetişdirmək bir vəzifə kimi qarşıya qoyulur. Müəllimlərimizin borcu bu vəzifələri dərindən dərk edib mənimsəmək, təlim prosesində yuxarıda qeyd edilən keyfiyyətlərə malik insanlar yetişdirmək üçün məktəblərimizin işini tamamilə yenidən qurmaqdır.

Şagird şəxsiyyətinin formalaşması üçün təhsildə demokratikləşdirmə və humanistləşdirmə əsas şərtlərdən biridir. Bunun əsas mahiyyətini isə əxlaqi-mənəvi dəyərlər, ictimai-pedaqoci və sosial-mədəni əhəmiyyət daşıyan prinsiplər təşkil edir.

Təhsilin humanistləşdirmə prinsipi üzərində qurulması isə, ümumdünya, ümumbəşəri əhəmiyyət kəsb edir. Əgər cəmiyyətdə, məktəbdə, təhsildə demokratikləşdirmə, demokratik baxış, demokratik iş üslubu, demokratik mövqe yoxdursa, humanistləşdirməni həyata keçirmək olmaz.

Təhsildə yaradıcı düşünən, müstəqil mühakimə yürüdə bilən, demokratik dünyagörüşünə malik şəxsiyyət formalaşdırmaqda ənənəvi metodlarla yanaşı, geniş imkanları olan yeni təlim texnologiyalarından– qrup məşğələlər, əqli hücum, blok dərslər, söz assosiasiyası və başqa üsul və yollardan istifadə edilsə, müsbət nəticələr əldə etmək olar.

Bu vəzifənin yerinə yetirilməsində məktəbin rolu böyükdür. Müasir məktəb, müasir dərs isə yeni tələblərə cavab verməlidir. Bu baxımdan müəllimlərin rolu ön plana çəkilir. Müəllim öyrənənlərin öyrədənidir. «Biz uşaqlara insaniyyətliliyi, məhəbbəti öyrətməliyik, uşaqlarda mərhəmət, başqasının dərdinə şərik olmaq kimi hissləri oyatmalıyıq, ən başlıca vəzifəmiz isə uşaqlara həyat tərzini öyrətməkdir» (S.Lipsker). Bütün bu keyfiyyətlərin daşıyıcısını yetişdirmək isə bugünkü müəllimin müasir təlim prosesini bilməsindən, dərsi müasir metodlar, əsasında qurmasından çox asılıdır.

Hər bir təlim metodu bir sıra öyrətmə və öyrənmə priyomlarını özündə birləşdirir. Müəllim təkcə yeni materialı öyrədəcəyi metodu seçməklə kifayətlənməməli, həm də dərsdə şagirdlərin iştirakını, fəallığını təmin edən metod və priyomlar haqqında düşünməlidir. Müasir dərs axtarıcılığa

yönəldilmiş metodlardan, evristik, metod, problemli şərh, tədqiqatçılıq, məşğələ, diskussiya, debat və s. metodlardan istifadə olunmasını tələb edir.

Təlim prosesi müəllim və şagirdlər arasında düzünə və tərsinə (əks əlaqə) fəaliyyətlə müşayiət olunur. Məlum olduğu kimi, düzünə əlaqənin mahiyyəti budur ki, şagird müəllimdən və ya digər mənbələrdən məlumat alır, əks əlaqə isə şagird materialı necə mənimsəməsi haqqında informasiya verir, bu informasiyanı sinif eşidir, lazım gəldikdə müzakirə obyekti olur, müəllim qəbul edir. Bütün şagirdlərin materialı mənimsəmələri üçün irəli getmək və ya başlanmış işi davam etdirmək lazım gəldiyi müəllim üçün aydın olur. Düzünə (müəllim-şagird) və əks (şagird-müəllim; şagird-şagird) əlaqə hər bir şagirdin təfəkkür fəaliyyəti üzərində nəzarəti təmin edir.

Yaradıcı təfəkkür öz əsasını problem – situasiyadan götürür və fikri proseslər onun həllinə yönəldilir. Sokrat, J.J.Russo, K.D. Uşinski və başqalarının adı ilə bağlı problemli təlim yarandığı gündən şagirdlərə tədqiqatçılığı öyrətməyə yönəlmişdir. Bundan xəbəri olmayanların bu gün yenilik kimi təbliğ etmələri gülüncdür.Problemli təlimin mahiyyəti ondadır ki, şagirdlər ardıcıl olaraq müəllim tərəfindən yeni problemin sübuta yetirilməsi, biliklərin müstəqil əldə edilməsi, əvvəllər öyrənilənlərin tətbiqi və yaradıcı fəaliyyətə yiyələnməyə təhrik olunurlar.

Bacarıq və vərdişlərin formalaşmasında problemli və məntiqi metodlardan istifadə səmərəli nəticə verir. Eyni məqsədə müxtəlif metodlarla çatmaq mümkün olur.

Ənənəvi təlimdə başlıca diqqət şagirddə biliklərin mənimsənilməsinə yönəldilirsə, müasir təlim metordlarında əsas diqqət şagirdin müstəqil inkişafına, şəxsiyyət kimi formalaşmasına istiqamətləndirilir. Bu prosesdə müəllimin başlıca vəzifəsi şagirdlərin yardımçısı olmaq, təlim prosesində onların fəaliyyətini əlaqələndirməkdən, şagirdlərdə yaradıcı axtarışa həvəs yaratmaqdan ibarətdir. Bu gün bizim cəmiyyətimizə sürətlə düşünüb nəticə çıxarmaq səriştəsi olan, təhlili, ani olaraq ümumiləşdirməyə qadir olan fəal təfəkkür sahibləri lazımdır. Belə adamlar həm savadlı olmalı, həm də intellektual vərdişlərə yiyələnərək bilik və bacarıqlarını tətbiq etməyi bacarmalıdırlar. Qarşılıqlı münasibətdə olduqları adamlarla ünsiyyət yarada bilmək, onlarla dialoqa girmək, problemin müzakirəsində həlledici fikir söyləmək, tərəf-müqabilini inandırmaq bacarığı əsas şərtlərdəndir.

İnteraktiv təlim metodları tətbiq olunan müasir sinif şəraitində şagirdlərin müstəqil və sərbəst fəaliyyət göstərmələri üçün daha əlverişli mühitin yaradılması tələb olunur. Müəllimin dialoq vasitəsilə şagirdlərlə qarşılqlı fəaliyyət göstərməsi interaktiv metodun əsas məzmununu təşkil edir. Müəllimin yaratdığı demokratik mühit şəraitində keçən dərslərdə müəllim-şagird münasibətləri məhəbbət və hörmətlə əvəz olunur. Sualların cavablandırılmasında, şagirdin müzakirələrə tez-tez cəlb olunmasında, işçi

vərəqlər üzərində sərbəst, müstəqil işləməsində, yoldaşlarına sual verməsində, dərsin mövzusunun, mahiyyətinin, mühüm fikrin seçilib planlaşdırılmasında şagirdlərin fəal iştirakının təmin edilməsi onlarda öz güclərinə, bacarıqlarına inam yaradır. Bu inam müəllim-şagird, şagird-şagird fəaliyyətində qarşılıqlı əməkdaşlığı gücləndirir. Qayğıkeşlik, diqqət əsasında yaranan belə əməkdaşlıq müəllimi şagird üçün şəxsiyyətə, sevimli dosta və sirdaşa çevirir.

İnteraktiv təlim metodlarına uyğun keçirilən dərslərdə müəllim tədrisin gedişində yönəltmə, dərketmə və düşünmə proseslərindən istifadə etməklə şagirdləri fəallaşdırır. Şagirdlər həvəslə müzakirələrə qoşulur, sərbəst rəy söyləyir, yoldaşlarının fikrini təsdiq və ya inkar edir, təhlil və müqayisələr aparmaq üçün daha münasib imkanlara yiyələnirlər.

Dərketmə, tətbiqetmə, anlama, müqayisə aparmaq kimi keyfiyyətlərin yaranması şagirdlərdə yaradıcı və tənqidi təfəkkürün inkişafına səbəb olur.

Qruplarla iş işçi vərəqləri, oxu və digər yazı materiallarından istifadə, diskussiyaların, debatların təşkili; şəkil-tapmaca, rollu oyunlar, kublaşdırma, BİBÖ, kimi metodlardan (yollardan, priyomlardan) istifadə edilməsi tədris prosesində şagirdlərin iştirakını fəllaşdırır, onlarda öyrənməyə maraq yaradır, uşaqların yaradıcılığa olan həvəsi daha da artırır.

Ənənəvi təlim üçün aşağıdakılar səciyyəvidir:

– müəllimin informasiyanı çatdırması;
– hazır informasiyanın mənimsənilməsi üçün şəraitin yaradılması;
– müəllim-şagird münasibətlərində amirlik;
– hər bir dərsin mərhələlərə bölünməsi (hazırlığın yoxlanması, yeni marerialın izahı, möhkəmləndirilməsi);
– şagirdlərin təlim prosesində qeyri-fəal iştirakı;
– dərslərin eynitipli keçirilməsi;
– fənlərarası əlaqənin zəifliyi;

İnteraktiv təlim üçün aşağıdakılar səciyyəvidir:

– şagirdlərin qruplarda cütlərlə fəaliyyəti;
– hər bir şagirdin fəal fəaliyyətinin təmin edilməsi;
– müəllim-şagird və şagird-şagird əməkdaşlığı;
– didaktik oyunların təşkili;
– şagirdlərin özlərini və bir-birini qiymətləndirmələri;
– şagirdlərin yaradıcılığa, diskussiyaya və debata cəlb edilmələri.

Elə təsəvvür yaranmamalıdır ki, təhsil yalnız interaktiv təlimlə (fəal təlim yolları ilə) həyata keçiriləndə ən mühüm məqsədlərə nail olmaq mümkündür Təlim prosesinin qanunları tələb edir ki, biliklər həm hazır şəkildə illüstrasiyalı izah formasında verilsin, həm də problemli, diskussiyalı, dialoqlu axtarışla əldə edilsin.

Müəllim hər bir şagirddə düşünməni gücləndirməli, hadisələrə yanaşmaq bacarığı tərbiyə etməlidir. Şagirdlərdə müstəqil bilik əldə etmək vərdişlərinin

yaradılması dərsin əsas məqsədi olmalıdır. Müəllim yeri gəldikcə ümumiləşdirmə aparmalı, şagirdə istiqamət verməli, mənalı axtarış aparmağa şərait yaratmalıdır. Şagirdin hüquqları gözlənilməli, bilik səviyyəsindən asılı olmayaraq hər bir şagirdin fərdi xüsusiyyətləri nəzərə alınmalıdır. Müstəqil bilik əldə etmək vərdişləri ilk günlərdən aşılanmalıdır. Uşaq qrupları birləşib, mühakimə yürütməyi, müzakirə edərək birgə qərar qəbul etməyi öyrənməlidir. Müzakirə etmək, biliyi tətbiq etmək mühakimələr əsasında nəticə çıxarmaq şagirdin dünyagörüşünün genişlənməsinə, biliyin dərinləşməsinə çox böyük təsir göstərir. Müxtəlif fikirlərin yaranması hesabına ağıllı nəticələr çıxarılır və əsil bilik əldə edilir.

Yeni pedaqoji təfəkkürün qarşıya qoyduğu ən mühüm məsələ şagirdin idrak qabiliyyətini, təfəkkürünü, intellektual səviyyəsini inkişaf etdirməkdir. Bu gün əsas məqsəd şagirdə daha çox bilik vermək deyil, ona öyrənməyi öyrətmək, onun düşünmə qabiliyyətini, fikri fəallığını, müstəqilliyini inkişaf etdirməkdir. Şagirdlərə yaxşını və pisi seçməyi öyrətmək, həqiqəti tapdırmaq bu gün yeni pedaqoji təfəkkürün mahiyyətini əks etdirir.

Akademik M.M.Mehdizadə yazırdı ki, müasir dərs göydən düşmür. Hər hansı bir müasir hadisə keçmişin buna bənzər hadisələrinin mütərəqqi, rasional cəhətlərini bu və ya digər dərəcədə özündə birləşdirdiyi kimi, müasir dərs də ənənəvi dərsin «rasional toxumlarını» inkar etmir. Müasir dərs də ənənəvi dərs kimi, didaktik vəzifəni dəqiq müəyyənləşdirməyi tələb edir və buna müvafiq olaraq, müəyyən quruluş, tip üzrə keçirilir, zəruri elementləri əhatə edir, ev tapşırıqları və s. ilə başa çatır, lakin müasir dərs bununla məhdudlaşmır. O, ənənəvi dərsə nisbətən həm məzmuna, həm də metodlara, priyomalara və vəzifələrə görə çox-çox zəngindir, təşkili və keçirilməsi cəhətdən xeyli mürəkkəbdir. O, müəllimdən yalnız bacarıq deyil, həm də gərgin yaradıcı iş tələb edir. Bu, şagirdlərdən də tələb olunur.

Şagirdlərin idrak fəallığının inkişafında, zehni qabiliyyətinin qüvvətləndirilməsində, onların düşünmələri, hər hansı məsələyə münasibət bildirmələri, sərbəst rəy söyləmələri kimi xüsusiyyətlərin formalaşmasında ənənəvi və yeni təlim metodlarının (yollarının, priyomlarının) vəhdətinin rolu böyükdür. Metodların düzgün seçilməsi müəllimin yaradıcılığından asılıdır. Bu gün evristik müsahibə təlimatlandırma, müsahibə, illüstrasiya və demonstrasiya, kitab üzərində iş, praktik çalışma metodlarından istifadə etməklə yanaşı yeni təfəkkürün məhsulu olan interaktiv metodlardan da istifadə edilir.

«Ən yaxın inkişaf zonası» haqqında nəzəriyyənin müəllifi rus psixoloqu L.S.Vıqotski belə hesab edirdi ki, şagirdin müstəqil əldə etdiyi məlumatlardan

əlavə müəllimin köməyi ilə əldə edə biləcəyi məlumatlar da var. Müəllim təlimin hər bir mərhələsində şagirdlərin nələri bilmələri və bacarmaları, nələri isə sadəcə eşitməli olduqları üzərində düşünməli, bu işin səmərəli yerinə yetirilməsinə çalışmalıdır, yəni ənənəvi və interaktiv metodların qarşılıqlı əlaqəsindən istifadə edərək təlimin səmərəliliyini yüksəltməlidir. Konkret dərs üçün metodun seçilməsi materialın xarakterinə uyğun olmasından, dərsin məqsəd və vəzifəsinin, şagirdlərin yaş səviyyəsinin, müəllimin pedaqoji ustalığının nəzərə alınması, motivasiya yaratma, şagirdlərin müstəqilliyinin təmin olunması tələblərindən asılıdır.

Rollu oyunlar metodu ibtidai siniflər üçün oyun tamaşadır. Oyuna maraq göstərən şagird öz fəaliyyətində həyatın müxtəlif hadisələrinə həssas olur. Müşahidə ilə başlanan işlə məktəblinin qavrayışı və düşüncəsi fəaliyyət göstərir. Dərsdə istifadə edilən oyunlar yaddaşı təzələyir. Zəif hazırlıqlı şagirdlərin fəallığına müsbət təsir göstərir. Bəzi ibtidai sinif müəllimləri sinfə uşaq lotosunda əşyalar təsvir olunmuş şəkillər göstərir. Şagirdlər də növbə ilə bu əşya adlarından istifadə edərək mürəkkəb cümlələr qurur və təhlil edirlər. Sinifdə «Mən nədən çox sevinir, nədən çox kədərlənirəm?», «Əgər mən böyük olsaydım», «Mənə imkan verilsəydi» və s. kimi mövzülarda keçirilən disput və müzakirələr yeni interaktiv metod kimi şagirdlərin məntiqi təfəkkürünün, əqli qabiliyyətinin yüksəlməsinə, dünyagörüşlərinin genişlənməsinə təsir edir. Belə metodların tətbiqində şagirdlər sərbəst fikir söyləyir, öz təəssüratını bildirir, yaradıcı müstəqillikləri inkişaf edir, bütün şagirdlər fəallaşır, istedadları aşkar olur, onlar bir şəxsiyyət kimi formalaşırlar. Elə təhsilin hümanistləşdirilməsi də təlimin inkişafetdirici və tərbiyəedici funksiyasını qüvvətləndirməyi tələb edir.

Ənənəvi və interaktiv metodların qarşılıqılı vəhdəti ilə keçirilən dərslər daha səmərəli olur. Dərsdə yeri gəldikdə ənənəvi və interaktiv metodların bacarıqla birləşdirilməsi yaxşı nəticə verdiyindən hər bir müəllimin istədiyi metodlardan istifadə edərək məqsədə çatmaq sərbəstliyinə malik olmalıdır. Şagirdlərin ilk gəlişi ilə məktəbi doğma evi, müəllimi isə öz anası kimi qəbul etməsi, müəllim-şagird münasibətlərinin düzgün təməl üzərində inkişafı öyrənmənin gələcək uğurunu təmin edir. Belə şəraitdə şagird öyrənməyə çalışır və dərk edir ki, onun elmli olması uğurlu təhsil alması nəticəsində mümkün ola bilər. Bunun üçün şagirdin öyrənmə fəaliyyətini düzgün təşkil və idarə etmək lazımdır. Şüurlu biliklər və vərdişlər qazanan məktəblilər gələcəkdə çətinlikləri asanlıqla dəf edə bilərlər.

# UŞAQLARA DÜŞÜNMƏYİ ÖYRƏDƏK

**Afaq ƏLİYEVA,**

Gəncə ŞTİ Metodiki Mərkəzinin müdiri



Müasir müəllimin yardımçı olması ilə bağlı bir çox rolu var. Bəzi müəllimlər üçün yardımçı rolu təbii şəkildə meydana çıxır; digərlərinin buna nail olmaları üçün onlardan zəngin təcrübə qazanmağı, dərindən düşünməyi tələb edir. Müəllim uşaqların öyrənmələrinə yardımçı olmaq üçün:

- suallar verir;
- şagirdlərin suallarına cavab verir;
- Uşaqlara bilik və düşüncələrini ifadə etməkdə kömək göstərir;
- Materiallar (vasitələr) təqdim edir.

Müəllimlər bir çox səbəblərə görə suallar verirlər. Tədqiqat göstəriri ki, onlar çox vaxt doğru cavabı tapmaq üçün tərtib edilən test sualları verirlər. Müəllim, «Niyə yarpaqlar payızda tökülür?», «Nağılın baş qəhrəmanı nə etdi?», «Pişik ev heyvanıdırmı?» kimi suallar verəndə, uşaqların doğru cavab verə biləcəkləri gözlənilir. Əgər cavabın doğruluğuna əmin deyillərsə, cavab vermək üçün cəhd etməyə bilərlər. Müəllimlərin bu növ suallar verməkdə məqsədləri uşaqların materiala necə yiyələndiklərini aşkara çıxarmaqdır. Müəllimlər bəzən bu növ sualları verməyə ehtiyac duyurlar. Sözügedən suallar **qapalı suallar** adlanır ki, bunların doğru və səhv cavabı olur. Qapalı suallar ibtidai siniflərdə yeganə sual növü deyil.

Müəllim uşaqları düşünməyə təhrik edən və öyrənməyə yönəldən **açıq suallar** da işlədir. Açıq suallar uşaqları öz fikirlərini ifadə etməyə ruhlandırır, tədqiqat və kəşflərinə kömək edir. **Açıq suallar** belə səslənir:

- Küçədə nə müşahidə edirsiniz?
- Cavabları necə tapırsınız?
- Sinifdə görməli olduğunuz bəzi işlər hansılardır?
- Hekayədəki oğlan haqqında nə düşünürsünüz?
- Hansı ev heyvanını xoşlayırsınız?
- Sənin ad gününü necə qeyd edirsiniz?

Belə sualların bir neçə doğru cavabı olur. Bunlara hər bir uşaq cavab verə bilir. Onlar uşaqların fikirləşmə prosesində anlamasını təmin edir. Müəllimlər üçün vacibdir ki, gün ərzində uşaqlar yazarkən, oxuyarkən, hesablayarkən elmi və sosial istiqamətləndirmələr, incəsənət və ya musiqi öyrənərkən açıq suallar versinlər. Açıq suallar uşaqlarla onların bir-birilə ictimai əlaqələrinə, sinfin birliyinə və ya evdəki həyatlarına aid söhbətlər edərkən işlədilə bilər. Açıq suallar uşaqlara öz ağıllarındakını ifadə etməyə və cavablarında ehtiyatlı

olmağa imkan verir. Açıq suallar öz nöqteyi-nəzərlərini ifadə etmədə, başqalarının nöqteyi-nəzərini başa düşməkdə kömək edir.

Qapalı suallar bəzən açıq suallara çevrilə bilər ki, bu da müəllim və uşaqlara öyrənmə prosesinə daha çox bağlanmaq imkanı verir.

**Qapalı suallar:**

- «Sizin əkdiyiniz ağac nə qədər böyüyüb?»
- «Kvadratın neçə tərəfi var?»
- «Evdə piano çalırsınızmı?»

**Açıq suallar:**

- «Siz əkdikdən sonra ağacda nələr baş verib?»
- «Bu formada nə müşahidə edirsiniz?»
- «Evdə nə etməyi xoşlayırsınız?»

Vaxt ötdükcə müəllimlər və uşaqlar öz suallarını başqa cür ifadə etməyi və qapalı suallara nisbətən daha çox açıq suallar verməyi öyrənə bilirlər.

Uşaqların fikirlərini aydınlaşdırmağın və onları «düzgün cavab» soruşmaqdan çəkindirməyin başqa yola əsas məzmunu əhatə edən mövzuda istiqamətləndirilmiş sualları, mövzu haqqında uşaqların öz fikir və ideyalarını əhatə edən və fərdə istiqamətləndirilmiş suallardan fərqləndirməkdir. Mövzuya istiqamətləndirilən suallar aşağıdakılardır:

- Niyə maqnit bu mismarları cəzb edir?
- Niyə hekayədəki qız öz nənəsinə baş çəkir?
- Niyə gəmilər limanda dayanır?

Səbəbləri başa düşməyincə uşağın bu suallara cavab verməsi mümkün deyil. Şəxsə istiqamətləndirilmiş suallar müxtəlifdir.

- Sizcə, maqnit bu mismarları niyə cəzb edir?
- Sizcə, hekayədəki bu qız nənəsinə niyə baş çəkir?
- Sizcə, gəmilər niyə limanda dayanır?

Fərqinə varırsınızmı, «sizcə» ibarəsini əlavə etməklə, bu ideya haqqında düşünən və həttda səhv olsa belə, bölüşməyə ideyaları olan hər bir uşaqda çoxlu suallar yaranır. Şəxsə istiqamətləndirilmiş suallar verməklə müəllimlər uşaqların dəlillərini öyrənə bilirlər. Şəxsə istiqamətləndirilmiş suallar uşaqları öz dünyaları haqqında anlayışların yaranmasına kömək edən diskussiyalarda iştiraka dəvət edir.

Sinifdə müəllimlər suallar verirlərsə, şagirdlər də suallar verəcəklər. Onların sualları öyrəndiklərinin tənqididir; müəllim qeyd edir: «Mən öyrəndim ki, uşaqların sualları mənim üçün onların bir anlama, düşünmə və qavrayışlarını mənim verəcəyim ilkin testdən də yaxşı aşkar edən bir pəncərədir».

Bir çox müəllimlər düşünürlər ki, onlar hər suala bir cavab verməlidirlər. Uşaqların suallarını cavablandırmağın müxtəlif yolları var. Əslində hətta müəllim doğru cavabı bilirsə də, yaxşı olar ki, o sual ətrafında soruşmaqla,

uşaqları düşünməyə təhrik etsin: məsələn, Nüşabə, kitabxana sərgisindəki kəpənək şəklinə baxır. O, müəllimdən soruşur: «Nə üçün kəpənəklər müxtəlif rənglidir?» Müəllim cavab verir: «Bu, doğrudan da maraqlı sualdır. Rəngləri yaxından görmək üçün böyüdücü şüşədən istifadə edə bilərsənmi?» Nüşabə böyüdücü şüşəni götürüb, diqqətlə şəkillərə baxır və müşahidələrini yazır.

Müəllimin sualın cavabını bilməsinə (Müxtəlif rənglər kəpənəklər üçün gizlənmə libası və müdafiə funksiyasını yerinə yetirir.) baxmayaraq, şagirdinə bu məsələnin elmi izahını demək istəmir. O bilir ki, əgər uşaq özü araşdırma və tədqiqat aparmasa, bunlar əsasında öz biliklərini formalaşdırmasa, məsələnin mahiyyətini başa düşməyəcək. Bu situasiyada müəllimin burada gördüyü iş, Nüşabəyə qulaq asmaq, onu maraqlandıran məqamlarla tanış olmaq, onda hər şeyi bilmək həvəsi oyatmaq və materiallardan istifadə etməklə onun müstəqil bir elm adamı kimi sərbəst fəaliyyətinə kömək göstərməkdən ibarətdir.

Bəzən müəllimlər uşaqların verdikləri sualların cavablarını bilmirlər. Uşaqlar müəllimlərin hər şeyi bildiklərini düşündükləri halda, həqiqət olan budur ki, müəllimlər, böyüklərin hamısı, heç də bütün cavabları bilmirlər. Əgər həqiqətən belə suallar yaranırsa, müəllim düzünü deməlidir: «Mən sualın cavabını bilmirəm. Biz bunu necə öyrənə bilərik?» Burada müəllim də şagirdlə birlikdə öyrənənə çevrilərək sorğu və risk prosesində iştirak edir. Bəzən müəllim narahat olur ki, əgər o, cavabı bilməsə, valideynlərin və uşaqların nəzərində nüfuzunu itirəcək. Gərək belə hallar olmasın.

Bəzi suallar elə geniş və fəlsəfi mahiyyətlidir ki, onların doğurdan da cavabı yoxdur. Bunlar adətən, «Niyə?» sualıdır: məsələn «Niyə adamlar belə qəddardırlar və müharibə edirlər?», «Niyə həşəratlar mövcuddur?» Müəllim suallara qulaq asır və qiymətləndirir. Onları aydınlaşdırmaq məqsədilə soruşa bilər: «Nəyi nəzərdə tutursunuz?» «Nə düşündüyünüz barədə ətraflı danışın». Bəzən bundan sonra uşağın sualı cavab veriləcək suala çevrilir. Əgər belə olmasa, müəllim cavabın olmadığını deməlidir ki, «İnsanlar uzun müddətdən bəridir bununla maraqlanır və bu barədə yazırlar.»

Bəzən şagirdlər öz bilikləri üzərində düşünərkən, şeyləri tamam başqa cür görür və özlərini də yaxşı başa düşürlər.

Gün ərzində onlara imkan yaratmaqla və düşüncələrini formalaşdırmaqla, müəllimlər şagirdlərinin biliklərini xeyli zənginləşdirir, bununla da onların daha çox düşünən şagirdə çevrilmələrinə kömək etmiş olurlar.

Qrup müzakirələri müəllimlərin uşaqların sərbəst düşünmələrinə kömək edəcək bir zaman kəsiyidir. Uşaqlar sinifdə öz davranışları, münasibətləri, habelə «elmi axtarışları» haqqında söhbət etməyə ruhlandırılırlar. Belə qrup disskusiyalarının məhsuldarlığının təmin edilməsi qarma-qarışıq, çox həyəcanlandırıcı və ya darıxdırıcı olmaması üçün müəllim müsbət ton yaratmalı,

uşaqların diqqətinin artmasına nail olmalıdır. Elə həlledici qərarlar var ki, müzakirələrin keyfiyyətinə təsir göstərir.

**Uyğun yer seçimi.** Əmin olun ki, bütün uşaqların rahat oturmaları üçün kifayyət qədər yer var. Müəllimin göstərişinə daha çox ehtiyacı olan uşaqlar daha yaxında otururlar. Müəllim də bu qrupun tərkibinə daxil olur və bacardıqca uşaqların səviyyəsində qalır, «uşaqlaşır». Uşaqların fikrini yayındıran materiallar kənarlaşdırılır. Əgər müəllim uşaqların sözlərini onların danışdıqları kimi yazarsa, hər bir uşaq müəllimin nə etdiyini görər və sözlərin mənalarını yazmağı öyrənər.

**Aydın ümidlər qurmaq.** Bəzən uşaqlara, onlara nə kimi ümidlər bəsləndiyini xatırlatmağa ehtiyac duyulur. Müəllim, sinfə bu sualı verməklə başlayır. «Yaxşı dinləyici olmaq üçün, bizim nəyə ehtiyacımız olduğunu kim xatırlayır?» Uşaqlar qeydlər edirlər: «Danışan şəxsə baxın.», «Sözünü kəsməyin.». Əgər müzakirə üçün mənbə varsa (məsələn, zoopark heyvanları və ya nənənin bağçası), bunu uşaqlara elan edin ki, onlar həmin mövzu dairəsində qalmağa çalışsınlar.

**Vaxt seçmək barədə fikirləşmək.** Müzakirələr keçirmək üçün əlverişli vaxt çoxdur. Bu, uşaqların marağını yönəltmək və onların nə bildiklərini aşkar etmək üçün tədris planının əvvəlində, yaxud öyrənilənləri yekunlaşdırmaq və müzakirə etmək üçün tədris planının sonunda da ola bilər. Yaranan ideya və sualları bölüşməyə imkan vermək üçün bu vaxt davam etdirilə bilər.

**Bağlanış etmək.** Müzakirənin vaxtında bağlanmasını bilmək lazımdır. Uşaqlar darıxma və ya diqqətlərinin yayılması ilə siqnal verəcəklər. Müzakirədə müəyyən nəticəyə gəlinirsə, müəllim müzakirəni bitirə, söhbəti bu sözlərə bağlaya bilər: «Burada bizim yenidən düşünməli olduğumuz bir sıra suallar var.» Müzakirəni bitirməmişdən əvvəl vaxt haqqında xəbərdarlıq etmək lazımdır. «Üç nəfərin danışması üçün vaxtımız qalır. Digərləri sabahkı müzakirəyədək gözləməli olacaqlar;»

**İştirak etməyə ruhlandırma.** Çox vaxt müəllimlər şagirdləri bir-biri ilə ideyalarını bölüşməyə öyrətmək əvəzinə, özləri sinif müzakirəsinin mərkəzində dururlar. Uşaq danışarkən müəllim suallar verməyi və qeydlər etməyi dəyandırır. Uşaqlara qulaq asmaq və bir-birinə sual vermələrini təşkil etmək lazımdır.

Müəllim müxtəlif suallar verməklə daha çox uşağı müzakirədə iştiraka cəlb edə bilər. «Daha kim bu ideya barəsində fikirləşmişdi?» və ya «Fuad maraqlı ideya dedi. Kimin fərqli ideyası var?»

Sinif müzakirələri üçün mövzular nə qədər çoxdur! Uşaqlar özləri haqqında bir şagird kimi danışa bilərlər. Sinif xəritə çəkməyi öyrənir. Kiçik qrupların hər biri öz məktəbinin xəritəsini çəkir. Müəllim sinif müzakirəsinə uşaqları öz təcrübələrini əks etdirməyə səsləməklə başlayır. «Sizin üçün məktəbin xəritəsini çəkmək nəyə bənzəyir?» Bəzi şagirdlər izah edirlər ki, qrupda birlikdə

işləmək çətin idi. Başqaları bildirirlər ki, onlar müəyyən bina detallarını necə işarə etməyi bilmirlər. Bir qədər müzakirədən sonra o, uşaqların öyrəndiklərini qiymətləndirilməsinə kömək etmək məqsədilə başqa suallar verir: «Xəritə çəkməyi öyrənmək üçün daha nəyə ehtiyacınız var?»

Müəllim, uşaqları oxumağı öyrəndikləri və kitablara baxaraq çoxlu vaxt keçirdikləri sinifdə qrup müzakirələri üçün toplayır. Hər gün o, müzakirəni bu sınaqla başlayır: «Bu gün oxucu kimi özünüz haqqında nə öyrəndiniz?» Necə də gözəl sualdır. Bu, şagirdlərə istədikləri metod, özlərinin oxuya münasibəti, oxuduqları materialların növü barədə düşünməyə kömək edir. Bir gün şagirdlər elmi kitablara baxarkən, müəllim ikinci sualı verir: «Elmi ədəbiyyatın oxucusu kimi özünüz haqqında nə öyrəndiniz?» Uşaqların nə öyrəndiklərindən asılı olaraq bu sual digər variantlarda da qoyula bilər: «Bir riyaziyyatçı kimi özünüz haqqında nə öyrəndiniz?» «Bəs bir təbiətşünas kimi?»

Tədris planı mövzusunda qrup müzakirələri uşaqlar üçün fikir mübadiləsi, fikrin aydınlaşdırılması və suallar verilməsi ilə bağlı mühüm imkanlar yaradır. Müəllimin rolu tədris prosesinin gedişinini müzakirələrinə rəhbərlik etmək və çevik olmaqdan ibarətdir, çünki uşaqlar gözlənilməz ideyalar verə bilərlər. Müəllim müzakirənin məqsədinin nə olduğunu bilməlidir. Əks halda bu uşaqlar çox danışmağı xoşladıqlarından və müxtəlif ideyalarla maraqlandıqlarından müzakirə mətləbdən uzaqlaşacaq. Beləliklə, müəllimin rolu məhdudiyyət qoymadan uşaqlara rəhbərlik etməkdir. Adətən, tədris prosesinin gedişinin müzakirəsinə bütün sinif cəlb edilir, hər bir şagirdin danışmaq və başqalarının fikirlərini eşitmək imkanı olur. Qrup müzakirələri belə bir fikri gücləndirir: «Biz hamımız sinifdə öyrənənlər cəmiyyətiyik.».

## ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ TƏHSİLİN KEYFİYYƏTİNİN DİAQNOZU VƏ MONİTORİNQİ KİMİ

**Könül MİKAYILOVA,**
**TPİ-nin aspirantı**



Təhsil alanların təlim müvəffəqiyyətlərinin qiymətləndirilməsi, təkcə onların biliklərə yiyələnmələri, həmin biliklərdən müxtəlif məqsədlərlə istifadə etmə və nəticə çıxarma bacarığını öyrənmək prosesi deyil, həm də təlim fəaliyyətinin effektivliyinin, təhsilin keyfiyyətliliyinin diaqnozu və monitorinqidir.

Pedaqoqlar uzun müddət şagird nailiyyətinin qiymətləndirilməsinin keyfiyyət göstəricisi və sistemində baş verən çatışmazlıqların öyrənilməsində əsas amillərdən biri olub-olmamasına dair mübahisələr apar-

mışlar. Bir çox pedaqoqlar belə hesab edirlər ki, şagirdlərin bilik və bacarıqlarının gündəlik qiymətləndirilməsinə əsasən onların illik qiymətləndirilməsini orta faiz göstəricisi kimi götürməklə təhsilin keyfiyyət səviyyəsini müəyyənləşdirmək mümkündür. Bu şərtlə ki, qiymətləndirmə obyektiv, dəqiq və şəffaf aparılsın.

«Azərbaycan Respublikasında ümumi təhsilin milli qiymətləndirmə Konsepsiyası»nda bütün cəhətlər nəzərə alınmaqla təhsilin keyfiyyətinin qiymətləndirilməsi üzrə beş obyekt nəzərdə tutulmuşdur: müəllim, valideyn, rəhbərlik, təlim prosesinin maddi-texniki bazası və metodiki təminat. Milli qiymətləndirmə konsepsiyasında təhsil standartlarının mənimsənilmə səviyyəsini öyrənmək məqsədilə aşağıdakı qiymətləndirmə növlərindən istifadə edilməsi tövsiyə olunur.

- Diaqnostik qiymətləndirmə (ilkin səviyyənin öyrənilməsi) – şagirdlərin nə dərəcədə bilik və bacarıqlara malik olmaları və tədris olunan materialın hansı hissəsini bilmələrinə dair ilkin məlumat əldə etmək məqsədilə aparılır.
- Formativ qiymətləndirmə (irəliləyişlərin monitorinqi) – standartların mənimsənilməsi üzrə keyfiyyətin və effektiv nəticələrin əldə olunmasını aşkara çıxarmaq məqsədilə aparılır.
- Summativ qiymətləndirmə (yekun qiymətləndirmə) – təhsilin məzmun standartları üzrə keyfiyyətin və effektiv nəticələrin əldə olunmasını öyrənmək məqsədilə aparılır.

Bir çox tədqiqatçılar təhsilin keyfiyyətinin qiymətləndirilməsində psixoloji və didaktik testlərdən istifadə olunmasını zəruri hesab edirlər:

- motivasiyanın yaradılması (Luskanova N.Q. «Cədvəlin tərtibi»), əqli fəaliyyətin formalaşdırılması (KOT, ŞTUR testləri və s.), oxunun sürəti, mənimsəmə faizi, diqqətin, yaddaşın inkişafı və s;
- ümumi intellektin səviyyəsi (Amtxauera testi);
-sakitlik dərəcəsi (Kettela testi);
- mənimsəmə əmsalı, mənimsəmənin davamlılıq dərəcəsi, avtomatlaşdırma, mücərrədləşdirmə, oxunun sürəti, fəal leksika, kompyuter texnologiyalarından istifadə;
- şagirdin intellekti və şəxsiyyəti («simvolik», «mən», «emosional diferensiallıq», «analoji sadəlik» və s. test).

Ənənəvi metodların təhlili göstərdi ki, təhsil keyfiyyətinin qiymətləndirilməsi pedaqoji ölçmənin obyektiv metodlarına əsaslanmır. Ona görə də «keyfiyyət» hər bir müəllimdən öz yoxlama sisteminin aparılmasını tələb edir. Bu yoxlama sisteminin köməyi ilə müəllim buraxdığı səhvləri də düzəltmək imkanı qazanır.

Bu istiqamətdə müəllimlər yeni qiymətləndirmə konsepsiyasında məktəbdaxili qiymətləndirmədən səmərəli istifadə edə bilərlər, çünki hazırda şagird nailiyyətlərinin qiymətləndirilməsi 3 istiqamətdə aparılır.

- məktəbdaxili qiymətləndirmə;
- milli qiymətləndirmə;
- beynəlxalq qiymətləndirmə.

**Məktəbdaxili qiymətləndirmə** üç komponentdən ibarətdir:

- Şagird nailiyyətlərinin monitorinqiməktəb səviyyəsində müəllimlər tərəfindən həyata keçirilir. Bu mərhələdə şagirdlərin nailiyyətləri formativ (müntəzəm, davamlı), mikrosummativ (bəhs və bölmələr üzrə) və makrosummativ (yarımilliklər üzrə) formada qiymətləndirilir.
- Kurrikulum üzrə qiymətləndirmə şagirdin təlim nəticələrinin müvafiq məzmun standartlarına uyğunluğunu müəyyənləşdirmək üçün aparılır. Müvafiq siniflərdə yeni kurrikulum tətbiq edildikdən sonra dərs ilinin sonunda qiymətləndirmənin aparılması və zəruri olarsa, kurrikulumda təkmilləşdirilməsinə ehtiyac duyulan bölmələrin müəyyənləşdirilməsi nəzərdə tutulur.
- Təhsil pillələri üzrə buraxılış imtahanları. Mərkəzləşmiş qaydada aparılan imtahanlar müvafiq təhsil sənədinin verilməsi ilə başa çatır. Mərkəzləşdirilmiş imtahanın nəticələrinin qiymətləndirilməsi üçün meyarlar təsdiq edilmişdir. Fənn üzrə yekun bal hər 4 səhv cavabın 1 düz cavabı ləğv etməsi nəzərə alınmaqla hesablanır və 5 ballıq qiymtləndirmə şkalasına əsasən fənn üzrə qiymət aşağıdakı şkala üzrə müəyyən edilir:

-20 faizdən aşağı «2» qiymət;
-20-50 faiz «3» qiymət;
50-80 faiz «4» qiymət;
-80 faizdən yuxarı «5» qiymət.

Bu nəticələr təhsilin inkişafında xüsusi əhəmiyyətə malik olan aşağıdakı amilləri əhatə edir:

- Məzunların mövcud təhsil standartları üzrə hazırlıq səviyyəsi müəyyən olunur.
- İmtahanın nəticələri orta təhsilin məzmununda dəyişiklik aparılması üçün etibarlı mənbə rolunu oynayır.
- Dərsliklərin məzmun baxımından təkmilləşdirilməsi üçün tutarlı əsas verir.
- Təlim strategiyalarının mahiyyətcə yeniləşməsinə şərait yaradır.
- Növbəti illərdə şagird nailiyyətlərinin monitorinqinin istiqamətlərini müəyyənləşdirir, şərtləndirir;
- Müəllim əməyinin qiymətləndiriməsi üçün indikator rolunu oynayır.

• Müəllim hazırlığının yaxın və uzaq perspektivlərinin müəyyənləşdirilməsinə zəmin yaradır.

**Milli qiymətləndirmə** təhsil prosesinin təşkili, planlaşdırılması, aparıldığı şərait haqqında toplanmış məlumatlar vasitəsilə kurrikulumun keyfiyyətini və təhsil sisitemində baş verən dəyişiklikləri dəyərləndirmək məqsədilə ümumi orta təhsilin bir pilləsindən digərinə keçid mərhələsində 4-5 ildən bir həyata keçirilir.

**Beynəlxalq qiymətləndirmə** ölkəni təmsil edən şagirdlərin təlim göstəriciləri əsasında təhsilin vəziyyəti barədə təsəvvür əldə etmək, müvafiq məlumatları təhlil etməklə problemləri aşkara çıxarmaq, onların həlli yollarını müəyyənləşdirmək, perspektiv inkişaf istiqamətlərini proqnozlaşdırmaq və vəziyyəti digər ölkələrlə müqayisə etmək məqsədilə aparılır.

Ənənəvi qiymətləndirmə modelinin təkmilləşdirilməsinə səbəb aşağıdakı çatışmazlıqların aradan qaldırılması olmuşdur:

• Tətbiqi bacarıqlar və nailiyyətlər qiymətləndirilmirdi.

• Şagird qiymət xatirinə oxumağa təhrik edilirdi, çünki yalnız formal biliklər qiymətləndirilirdi.

• Təhsilalanın biliyinin ona verilən qiymətə nə dərəcədə uyğun olub-olmaması müəyyənləşdirilmirdi, elə bu səbəbdən də hazırda test yoxlama işlərinə daha çox üstünlük verirlir ki, burada qiymətləndirmə müəllimin subyektiv mülahizələri əsasında aparılmır.

• Şagirdin inkişafını sistemli şəkildə izləmək imkanı olmurdu.

• Qiymətləndirmə təlimin keyfiyyətinin, öyrənilməsinə, eləcə də yüksəldilməsinə xidmət etmirdi və s.

Qiymət insanın həyata keçirdiyi fəaliyyətin, prosesin nəticəsidir. O, eyni zamanda fəaliyyəti istiqamətləndirməli, ümumiləşdirməli inkişaf və təkmilləşdirməyə zəmin yaratmalıdır. Qiymətin dəqiqliyi və düzgünlüyü isə bu məqsədə çatmaq üçün, fəaliyyətin səmərəliliyini müəyyənləşdirməlidir. Daha dəqiq desək, qiymət, əsasən aşağıdakı funksiyaları yerinə yetirməlidir:

• *Stimullaşdırmanı* yerinə yetirir, şəxsiyyətə münasibəti ifadə edir. Pedaqoji proses zamanı məhz qiymətləndirmə emosiya və hissləri ifadə edir. Qiymətin köməyilə müəllim şagird şəxsiyyətinə, onun təlim motivasiyasına təsir göstərir.

• Şagirdin hər hansı bir fənnə marağını, eləcə də potensialını üzə çıxarır. Onu hər hansı bir peşəyə istiqamətləndirirsə, demək, istiqamətləndirmə funksiyasını yerinə yetirir.

• *Tərbiyəedici* əhəmiyyətə malikdir. Qiymət şagirddə özünüqiymətləndirməni formalaşdırır.

• Qiymət informasiya xarakterli olduğundan, daha yüksək qiymət əldə etmək istəyən şagird daha çox informasiya toplamağa səy göstərir.

Bu, təkcə şagird fəaliyyətini deyil, həm də müəllimin şagirdə verdiyi, ötürdüyü informasiyanı müəyyənləşdirir. Yəni müəllimin pedaqoji fəaliyyətinin də nəticəsidir.

• İnkişafetdirici xüsusiyyətə malikdir. Belə ki, pedaqoji qiymətləndirmə şagird şəxsiyyətində subyektiv xüsusiyyətlərin inkişafına xidmət edir. Eləcə də təhsilin məqsəd və məzmunu, şagird şəxsiyyətinin inkişafı pedaqoji qiymətləndirmə ilə bağlıdır və s.

Göründüyü kimi, qiymətləndirmə aparılarkən bu prosesə diqqətli, həssas yanaşılmalıdır, çünki qiymət təhsilin məqsəd və vəzifələrini, eləcə də şagirdlərdə formalaşmış biliklərlə yanaşı, onların sosial statusunu da müəyyənləşdirir. Məhz bu səbəbdən də qiymət eyni zamanda psixoloji faktorlara əsaslanaraq müəllimdən şəxsi keyfiyyətləri nəzərə almaqla ümumi və xüsusi hazırlıq (prinsipiallıq, məsuliyyət hissi və s.) tələb edir. Qiymətləndirmə «qarşılıqlı əlaqə» yaratmalı, yəni şagirdlərlə müəllimlərin bir-birini daha yaxşı başa düşmələrinə imkan verməlidir. Bu əlaqənin zəruriliyini təmin etmək üçün müəllim şagirdləri də qiymətləndirmə meyarları ilə tanış etməlidir. Bundan əlavə, müəllim xahiş edə bilər ki, şagirdlərin özləri kiçik qruplarda «əla», «yaxşı» və «kafı» qiymət meyarlarını müəyyənləşdirsin və siniflə birlikdə bunları müzakirə etsinlər. Bu, müəllim-şagird münasibətlərində şəffaflığın, obyektivliyin və qarşılıqlı hörmət hissinin təməli hesab edilə bilər.

Müəllim hər bir sinfin, məktəbin özünəməxsus cəhətlərini nəzərə almaqla, mövcud meyarlara əlavələr etməklə müxtəlif variantlar tətbiq edə bilər. Bu zaman aşağıdakı cəhətlər nəzərə alınmalıdır:

• Verilən qiymətləndirmə, rəğbətləndirmə və ya tənbeh yığcam şəkildə səciyyələndirilsin.

• Ədalətli və obyektiv olsun.

• Rəğbətləndirmə və tənbehdə meyar gözlənilsin.

• Qiymətləndirmədə bir hal deyil, bir neçə hal nəzərə alınsın.

• Qiymətləndirmə, rəğbət və tənbeh mütləq xarakter daşımasın, yəni bu gün aşağı qiymət alanın, sabah yüksək qiymət almasında maneələr yaradılmasın.

• Qiymətləndirmə (rəğbət və tənbeh) bütün hallarda tərbiyəvi məqsəd daşısın.

Tənbeh olunan şəxsə o, günahını etiraf etdiyi halda bağışlansın, güzəştə gedilsin. fiziki cəza verilməsin,

Qiymətləndirilmə zamanı yalnız informasiyanın mənimsənilməsi deyil, həm də cəmiyyətin həyatında iştirakı və fəal vətəndaş mövqeyi qazanması üçün zəruri olan qabiliyyətlərin əldə edilməsi, habelə insan hüquqlarının, demokratik cəmiyyətin dəyərlərinin formalaşdırılması məsələləri nəzərə

alınmalıdır. Əgər **biliklər** – dərsin məzmunu, əsas faktların və terminlərin, səbəb-nəticə əlaqələrinin, nəticə və ümumiləşdirmə əsasında, yaxud **bacarıqlar** – araşdırma (tənqidi təhlil), kommunikasiya, qərarların qəbul olunmasında iştirak etmə, eləcə də fərdi və kollektiv fəaliyyətin təşkili xüsusiyyətlərinə görə qiymətləndirilirsə, **dəyərlər** – ədalət, bərabərlik, azadlıq, sülh, ləyaqət, hüquqlar və demokratiya kimi anlayışların şagirdlər tərəfindən qəbul edilməsi baxımından aparılır.

Dəyərlərin qiymətləndirilməsi müəllim üçün daha çətin bir prosesdir, çünki bütün bunları bir dərs prosesində həyata keçirmək olduqca yüksək peşəkarlıq tələb edir. Ola bilər ki, nəzərdə tutulmuş hər hansı bir dəyər bu və ya digər şagirdin şəxsi baxışları sisteminə uyğun gəlməsin. Bunların dərk edilməsi və şagirdlərin şəxsi dəyərlərinə çevrilməsi üçün müəyyən vaxt lazım olsun, ona görə də həmin vaxt ərzində müəllim qiymətləndirmə aparmağa tələsməməlidir. Qiymətləndirmə aparılarkən aşağıdakı pedaqoji prinsiplərə riayət edilməlidir.

- **Obyektivlik**. Bilik və bacarıqların müəyyənləşdirilmiş meyarlarla dəqiq, adekva yolla qiymətləndirilməsi, formal, subyektiv xarakter daşıyır. Qiymətləndirmə prosesinin obyektivliyi təmin edilməlidir. Buna yadnız dəqiq və konkret meyarların dürüst seçimi nəticəsində nail olmaq mümkündür. Müəllim qiyməti şagirdlə şəxsi münasibətlərinə görə müəyyənləşdirməməlidir.
- **Sistematiklik**. Sistematiklik qiymətləndirmənin bütün forma və metodlarına kompleks yanaşma tələb edir və bir məqsədə xidmət göstərir.
- **Adekvatlıq**. Bilik, bacarıq və vərdişlərin qiymətləndirilməsi təlimin məqsəd və nəticələrinə adekvat olaraq həyata keçirilir. Bu halda nəzərə almaq lazımdır ki, şagirdlər qiymətləndirilən bilik, bacarıq və vərdişləri həyata keçirməyə hazır olsunlar.
- **Aşkarlıq (əyanilik)**. Bütün şagirdlər eyni meyarlarla aşkar şəkildə qiymətləndirilməlidir. Aşkarlıq şagirdlərin, həmçinin qiymətləndirmə meyarları və metodlarının hazırlanmasına cəlb olunmalarını nəzərdə tutur. Aşkarlıq, həm də şagirdlərin öz fəaliyyətlərini qiymətləndirmələri üçün imkan yaradır.
- **İnteqrasiyalılıq**. Qiymətləndirmə təlim prosesinə inteqrasiya edilməli onun tərkib hissəsi olmalıdır. Müəllim şagirdlərə öyrətmədiyini qiymətləndirə bilməz. Qiymət tərbiyəvi xarakter daşımalıdır.
- **Aydınlıq.** Qiymətləndirmənin məqsədi, meyarları, qaydası şagirdlər üçün sadə və aydın olmalı, onları təlim-idrak fəaliyyətinə, öyrənməyə və sosial fəallığa stimullaşdırmalıdır. Qiymət, yalnız qiymətləndirmə üçün deyil, öyrətməyə də imkan yaratmalıdır.

Müəllimin bu prinsipə ardıcıl əməl etməsi şagirdlərə bir-biri ilə rəqabət aparmaq, əməkdaşlıq etmək və ümumi mövqeyi qoruyub saxlamağı təlqin

edir. Bütün bunlar şagirdlərin qiymətləndirilməsində hər hansı bir şəkildə özünü göstərir. Təlim prosesinin keyfiyyətinin və effektivliyinin qiymətləndirilməsi problemi isə təhsildə müəllim və şagird fəaliyyətinin mahiyyətindən irəli gəlir. Tədris proqramının dəqiq və düzgün yerinə yetirilməsi, məşğələlərin keyfiyyəti təlim-tərbiyə prosesinin yüksək nəticəsi kimi qiymətləndirilir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurrikulumu). «Azərbaycan məktəbi», 2007, №2.
2. A.Mehrabov, İ.Cavadov. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. «Mütərcim», Bakı, 2007.
3. Mərdanov M.C., Ağamalıyev R.A., Mehrabov A.O., Qardaşov T.B. Təhsil sistemində monitorinq və qiymətləndirmə. «Çaşıoğlu», Bakı, 2003.

Резюме

Проблема оценки качества и эффективности учебного процесса вытекает из самой сущности обучения – учебной деятельности учителя и ученика. Качество занятий, эффективность выполнения учебных программ во многом зависят от того, насколько правильно, точно и своевременно оцениваются результаты учебно-воспитательного процесса.

**Summary**

Marks of the knowledge of the persons which study, owning to these knowledge as personality of the pupil only, to use from these knowledge by different purposes and result is not process of to learn ability of to take out. Marks of the knowledge is one of basic factors in the learning of the shortages happening in the quality indicator of the educational and system.

## ŞAGİRD FƏALİYYƏTİNİN İNTERAKTİVLİYİNƏ DİQQƏTİ ARTIRMALI

**Rəhilə ƏLİYEVA,**
Təhsil Problemləri İnstitutunun böyük elmi işçisi

Ölkədə həyata keçirilən təhsil islahatı yeni milli təhsil sisteminin yaradılmasına yönəldilmişdir ki, onun əsasında bir neçə vacib prinsip durur: demokratikləşdirmə, humanistləşdirmə, humanitarlaşdırma, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirmə və s. Bu prinsiplərin həyata keçirilməsi şagirdin təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsi və onun şəxsiyyət kimi formalaşmasını nəzərdə tutur. Müasir şəxsiyyəti real həyatın tələblərini nəzərə almayan təlim şəraitində tərbiyə etmək mümkün deyil. Sürətlə dəyişən həyat şəraitinə uyğunlaşmaq üçün çevik olmaq, yeni şəraitə alışmaq, öz qabiliyyətlərini gerçəkləşdirməyi bacarmaq, özünüinkişafa və özünütəkmilləş-

dirməyə hazır olmaq vacibdir. Fəal və yaradıcı olmaq, şəraitdən baş çıxarmaq, müstəqil yeni məsələlər qarşıya qoymaq, düzgün qərar qəbul etməyi bacarmaq lazımdır. Bunlar şəxsiyyətdən mühakimələrində, əməllərində sərbəst olmağı, tənqidi düşünməyi, öz mövqeyini əsaslandırmağı tələb edir.

XXI əsrdə cəmiyyətin yaşaması və inkişafında başlıca dəyər özünü yaradıcı şəkildə formalaşdıran şəxsiyyətdir. Müstəqillik yolu ilə inamla irəliləyən respublikamızın gələcəkdə daha da inkişaf edib yüksəlməsi üçün düşünməyi, düzgün nəticə çıxarmağı, təhliletmə və ümumiləşdirmə aparmağı bacaran gənc nəslin yetişdirilməsi lazımdır. Bu, daim yeniləşən məktəbdə müasir təlim texnologiyalarından istifadə yolu ilə mümkündür.

Təhsil islahatına dair direktiv və proqram sənədlərində göstərilir ki, təhsilin məzmununun yaxşılaşdırılması, onun Avropa təhsilinə inteqrasiya olunması üçün yeni iş prinsiplərinin müəyyənləşdirilməsinə, dərsə verilən müasir tələblərin ciddi şəkildə gözlənilməsinə və yeni təlim texnologiyalarının tətbiqinə ciddi ehtiyac var.

«Pedaqoji prosesdə texnologiya nəzərdə tutulmuş məqsədlərin yerinə yetirilməsini təmin etməyə imkan verən, elmi əsaslar üzərində qurulmuş, məkan və zaman səviyyəsində proqramlaşdırılmış pedaqoji prosesin bütün komponentlərinin birgə fəaliyyət sistemidir». (1, səh. 104-105).

Yeni təlim texnologiyalarının tətbiqi təbiidir ki, müasir təlim metodlarından istifadəni tələb edir. İnkişaf etmiş ölkələrin təhsil sistemində interaktiv təlim metodlarından istifadə geniş yayılmış, şagirdlərin sərbəst düşünmələri, müstəqil fikir söyləmələrinə şərait yaratmaq baxımından həmin metodlardan səmərəli istifadə etmək hazırki dövrdə zəruri məsələlərdən biridir. Müşahidələr göstərir ki, müəllimlər bu metodlar vasitəsilə şagirdlərin ürəyinə yol tapa, məqsədlərinə nail ola bilirlər. Bunun üçün məktəbdə psixoloji mühit dəyişməli, yəni müəllim-şagird münasibətləri dəyişdirilməlidir. Sinifdə müəllimlə şagird arasında qarşılıqlı ünsiyyət əlaqələri formalaşdırılmalıdır. Şagird şəxsiyyət kimi qəbul edilməli, müəllim onlarda özlərinə inam yaratmalı, çox şeyə qadir olduqlarına onları inandırmalıdır. Belə halda müəllim şagirdlərin ən çox sevdikləri, hörmət və etibar etdikləri, inandıqları şəxs hesab edilə bilər.

Pedaqoji texnologiyaların tədrisə tətbiqində əsas məqsəd şagird fəaliyyətinin interaktivliyini ön plana çəkməkdir. Professor Ə.Ağayev göstərir ki, interaktivlik təlim prosesində müəllim və şagird arasında işin gedişindən, mövzudan-şərhdən, dialoqdan, rollu oyundan, həmin anda meydana çıxan yanaşma, izah, dialoq nəticəsində yaranır. Yəni bu tərz irəlicədən planlaşdırılmır, təlim prosesinin gedişi bu məqamı ortaya çıxarır və daha çox şagirdin müstəqilliyi, müdaxiləsi ilə baş verir» (3, səh. 79).

İnteraktiv təlim texnologiyaları tədris və dərketmə fəaliyyətinin təşkilinin və idarəedilməsinin elə yollarının məcmusudur ki, onlar üçün aşağıdakılar səciyyəvidir:

• müəllim tərəfindən şüurlu surətdə dərk olunmalı problemli vəziyyətin yaradılması;

• problemli vəziyyətin həll olunması prosesində şagirdlərin fəal tədqiqatçılıq mövqeyinin stimullaşdırılması;

• şagirdlər üçün yeni olan əhəmiyyətli biliklərin sərbəst, müstəqil əldə olunması, açıqlanması, mənimsənilməsi və praktik tətbiqi üçün şəraitin yaradılması.

Artıq belə bir fikir formalaşmışdır ki, ümumtəhsil sisteminin inkişaf istiqamətlərinin baş strategiyası şagird şəxsiyyətinin diqqət mərkəzində durması, ona münasibətin dəyişməsi, şagirdi mərkəzdə duran subyekt kimi görməkdən ibarətdir. Yeni pedaqoji texnologiyaların tətbiqində də əsas məqsəd şagird fəaliyyətinin interaktivliyini ön plana çəkməkdir. Bu zaman təlimin başlıca ideyası nəyi isə birlikdə icra etmək, birlikdə öyrənməkdir.

Ənənəvi təhsil sistemi dövrün tələbləri ilə ayaqlaşmadığı üçün təkamül yolu ilə, yeni keyfiyyət dəyişiklikləri aparılmaqla tədricən dəyişdirilməli, sosial şəxsiyyətyönümlü təhsil sisteminə adaptasiya olunmalıdır. Hazırki dövrdə zəruri məsələlərdən biri təhsil alana subyekt kimi yanaşmaqla yeni insanın formalaşmasını cəmiyyətin əsas məqsədinə çevirməkdir. Bu gün şagirdlərə oxumaq, yazmaq və hesablama vərdişləri aşılamaq deyil, onlarda insanın inkişafına yönələn dərk edilmiş həyat mövqeyi formalaşdırmaq, lazımi yaşayış üçün zəruri qabiliyyət və bacarıqlar aşılamaq tələb olunur. Müəllim şagirdin mənafeyini, arzu və istəklərini, bacarıq və qabiliyyətlərini nəzərə almalı, cəmiyyətdə öz yerini tapmaqda ona yardımçı olmalıdır. Gənc nəslin bacarıq və qabiliyyətlərini reallaşdırması üçün onlara maksimum şərait yaradılmalıdır.

Müasir dövrdə müəllim şagirdə bilikləri, həyati bacarıqları sərbəst əldə etməyin yollarını öyrətməyə üstünlük verməlidir. Belə olduqda şagird güclü informasiya axınından lazım olan məlumatı seçə, qarşılaşdığı problemləri həll etməkdə axtarışlara qoşula, özünü müstəqil inkişaf etdirə bilər. Şagirdin fəal şəxsiyyət kimi formalaşmasında ona yardımçı olmaq, istiqamət vermək, bələdçilik etmək, nəyin «yaxşı», nəyin «pis» olmasını müəyyənləşdirmək üçün məsələlərə münasibətini bildirməyə imkan yaratmaq lazımdır.

Müasir dərsdə yeni təlim texnologiyalarını tətbiq etməklə, ənənəvi təlim sistemini dəyişərək, ona tədqiqat xarakteri vermək, biliklərin mənimsənilməsi prosesində şagirdi təlimin subyektinə çevirmək mümkündür. Bu zaman müəllim yol göstərən, istiqamət verən, şagirdləri fəallaşdıran təşkilatçı rolunu oynayır. Şagird tədqiqatçı kimi çıxış etdikdə, məsələni tədqiqat yolu ilə müstəqil yerinə yetirir. Ən zəruri hallarda müəllim məsələyə müdaxilə edir. Bu zaman müəllimin əsas funksiyası fasilitasiya (əlverişli şərait yaratmaq) olur.

İnteraktiv təlim metodlarından istifadə etməklə, «öyrənməyi öyrətmək» texnologiyasının tətbiqi nəticəsində şagirdlərin məntiqi və mücərrəd təfəkkürünün inkişafına, intellektual səviyyəsinin yüksəlməsinə, şagird şəxsiyyətinin

formalaşmasına nail olunur, Fəal öyrənmə təlim prosesində xüsusi yer tutur. O, koqnitiv xarakterli olub, problemin həlli şəraitini, yenilikləri, axtarışı, kəşf xarakterli öyrənməni əhatə edən çoxsaylı məqsədləri yerinə yetirməyə imkan verən çox faydalı bir prosesdir. Bu öyrənmənin mərkəzində fəal şagird dayanır.

Hər bir insan biliyi müstəqil əldə etdikdə çox ruhlanır, daha yenilərini öyrənməyə səy göstərir. Belə bilik həm uzun müddət yadda qalır, həm də lazım gəldikdə şagird onu asanlıqla tətbiq edə bilir.

Müşahidələr göstərir ki, riyaziyyat dərslərində təlim keyfiyyətinin yüksəldilməsində interaktiv təlim metodlarından istifadə daha geniş imkanlara malikdir. Riyaziyyat dərslərində şagirdlərin yaradıcı fəaliyyət təcrübəsi qazanmaları üçün onlara problemi görməyi və onu dərk etməyi; tapşırığa uyğun faktlar toplamağı; müşahidələr aparıb, problemi araşdıra bilməyi; fərziyyələr irəli sürməyi; alternativ təfəkkür tətbiq etməklə onların içərisindən ən müvafiq olanını seçməyi; onu əsaslandırmaqla düzgün nəticə çıxarmağı; mənimsənilmiş bilikləri müstəqil tətbiq edə bilməyi və s. öyrətmək lazımdır. Buna nail olmağın həlledici yolu şagirdlərin müntəzəm problemli məsələlərin həllinə qoşulmalarıdır. Şagirdlərin çətinliklərlə qarşılaşdırılmaları, ziddiyyətlərin həllinə cəlb olunmaları onların təfəkkürünün inkişafına, ümumi inkişafına səbəb olur. Söhbət şagirdlərin həll edə biləcəkləri, onların yaş və bilik səviyyələrinə uyğun, gücləri çatan çətinliklərdən gedir.

İnteraktiv təlim şagirdlərin fəal idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Fəal təlimin üstünlüyü ondadır ki, gənc nəslə daim dəyişən şəraitə uyğunlaşma bacarığı verir, onlara cəmiyyətin və böyüklərin dünyasına rahat daxil olmağa, şagirdlərin yaradıcı təfəkkürünü fəallaşdırmaqla onların yeni biliklərə müstəqil yiyələnmələrinə əlverişli şərait yaradır.

İnteraktiv təlim dialoqa, yəni qarşılıqlı əməkdaşlıq prosesində yaradıcı fəaliyyətə əsaslanır. Yaradıcı aktlar məhz riyaziyyatla bağlı problem məsələlərin həllində daha çox zahirə çıxır. İstənilən mətnli mürəkkəb məsələnin həlli tədqiqat xarakterli yanaşmaya məxsus olan produktiv təfəkkürün bütün elementlərinin icra edilməsini tələb edir. Belə ki, müşahidə faktlarının öyrənilməsi, şərtin təhlili, ədədi verilənlərin ayırd edilməsi, məsələ həlli planının tərtibi, onun müxtəlif yollarla həlli və s. tələb edir.

Müəllim əsas diqqəti yalnız sürətli və dəqiq hesablamaya deyil, həm də şagirdlərə araşdırma, axtarıcılıq, əsaslandırma, mühakimə yürütmə, dərindən düşünmə və s. bacarıqların aşılanmasına yönəltməlidir. Hər bir yeni mövzu öyrənildikcə şagirdlər əvvəl öyrəndikləri riyazi qanun və qanunauyğunluqlar arasındakı əlaqələri görməli, onları müəyyənləşdirməyi bacarmalı, ümumiyyətlə, riyazi materiallar arasındakı fasiləsizliyi dərk etməlidirlər.

Problemləri uğurla həll etmək üçün müəllim şagirdlərdə aşağıdakı cəhətləri inkişaf etdirməyə xüsusi səy göstərməlidir;

• problemlərin həlli yollarının axtarılması və tapılmasına maraq oyatmaq;
• müxtəlif yolların sınaqdan keçirilməsi üçün şagirdlərdə özünə inam yaratmaq;
• nəyisə bilməmək və ya tez xatırlamamağa görə işin ardıcıllığının yerinə yetirilməsinin ləngiməsini normal qarşılamaq;
• iş düzgün aparılmadığı halda dözüm nümayiş etdirmək;
• problemləri dərhal həll etməyin mümkün olmadığını anlamaq.

Müəllimin riyaziyyat dərslərində dialoq vasitəsilə şagirdlərlə qarşılıqlı fəaliyyət göstərməsi interaktiv metodların əsas xüsusiyyətlərindəndir. Bu, o deməkdir ki, tədris prosesinin bütün mərhələlərində müəllim şagirdlərlə daim ünsiyyətdə olur, hər bir şagirdin müstəqil düşünməsini, sərbəst və cəsarətlə rəy bildirməsini təşkil edir. Müəllimin yaratdığı demokratik mühitdə şagirdlərin fəal iştirakının maksimum təmin edilməsi onlarda öz gücünə, bacarığına, fəaliyyətinə dərin inam yaradır. Belə mühitdə müəllim-şagird, şagird-şagird əməkdaşlığı güclənir.

Riyaziyyat dərslərində belə yanaşma şagirdlərin yaddaşının yeni biliklərlə zənginləşdirilməsinə deyil, düşünmə qabiliyyətlərinin və müstəqil bilik əldə etmək, onu mənimsəmək bacarığının inkişaf etdirilməsinə əsaslanır.

İnteraktiv metodlarla riyaziyyat dərsinin təşkilində kiçik qruplarla iş xüsusi əhəmiyyət daşıyır. Bundan əsas məqsəd problemin həlli zamanı hər bir şagirdi kiçik qruplara cəlb etmək, qrup halında onların qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərmələrini təmin etməkdir. Bu, şagirdlərin hamısının dərsdə fəal iştirakına səbəb olur, şəxsiyyətlərarası əməkdaşlıq prosesində onlarda bir sıra lazımi bacarıqları formalaşdırır.

İnteraktiv təlim prosesində şagird fəaliyyətinin qiymətləndirilməsi zamanı buraxılan səhvlərə düzgün münasibət xüsusi əhəmiyyət kəsb edir,

Yazılardan məlum olur ki, interaktiv təlim metodlarının növləri çoxdur, onların az bir qismindən məktəblərdə istifadə olunur. Bəziləri onlardan bütün dərs boyu, bəziləri isə dərsin müəyyən mərhələsində istifadə edirlər. İnteraktiv təlim metodlarının tətbiqinə dair qarşılıqlı dərs dinləmələrinin keçirildiyi şəraitdə bu işin genişləndirilməsinə ümid bağlamaq olar.

İnteraktiv təlim metodları dərsə qədər hazırlıq prosesində müəllimin, dərsdə isə şagirdlərin daha çox fəallığını tələb edir. Bu metodlardan istifadə müəllimin şagirdlərlə daha səmərəli işləməsinə imkan verir. Qeyd etmək lazımdır ki, interaktivlik şagirdlərin öz aralarında da ola bilər.

«İnteraktiv təlim şagirdlərin fəal fəaliyyətini təmin etməklə, problemli şəraitin yaradılmasına, əməkdaşlığa, təfəkkürün müstəqilliyinə, sərbəstliyə, kreativ təfəkkürün inkişafına, şagirdlərin fəal dərketmə mövqeyinə, biliklərin müstəqil əldə edilməsinə, yaradıcı tətbiqinə, sərbəst fikir söyləmələrinə, fikrin müdafiə edilməsinə, sübuta yetirilməsinə əsaslanır». (2, səh. 192).

İnteraktiv təlim metodlarından yerində və səmərəli istifadə şagirdlərin riyazi bilik və bacarıqlarının səviyyəsinin yüksəldilməsinə əsaslı şəkildə müsbət təsir göstərə bilər.

# UŞAQLARDA MƏKTƏB TƏLİMİNƏ MARAQ YARATMAQ GÜNÜN TƏLƏBİDİR

**Raya MURSAQULOVA,**
pedaqoji elmlər namizədi, dosent



Uşaqların əqli tərbiyəsi, onların təlim hazırlığı, hər şeydən əvvəl, onlarda məktəbə, elmə və biliyə maraq oyatmaq deməkdir.

Uşaqlar təbiət və cəmiyyət hadisələri ilə məhz məktəbəqədər yaşdan maraqlanırlar. Tərbiyəçi və valideyn onların marağını təmin etməli, biliyə həvəslərini formalaşdırmalıdırlar. Təbiət və cəmiyyət hadisələrinə nəzər salmağı, əhatələrində olan insanların əməyi üzərində müşahidə aparmağı uşaqlara öyrətmək və onlarda idraki maraq yaratmaq əqli tərbiyənin və təlimin tərbiyəcilər qarşısında qoyduğu vəzifədir.

Məktəbəqədər yaşlı uşaqların məktəbə psixoloji cəhətdən hazırlanması, hər şeydən əvvəl, onlarda biliklərə maraq tərbiyəsi deməkdir.

L.S.Vıqotski özünün məktəbəqədərki illərini xatırlayaraq yazmışdır: «Burada uşaq dünyagörüşünün konturu adlandırılacaq şeyin əsası qoyulur.» Məktəbəqədər yaşlı uşaqlarda insanın dünyagörüşünün inkişafına körpü qoyan bəzi əlamətlərin elementləri mövcuddur. Məktəbəqədər yaşlı uşaqlarda təkcə xüsusi faktları dərk etməkdə deyil, həmçinin bəzi ümumiləşdirmələr aparmaq meyli vardır.

Uşaq ətraf mühitlə tanışlıq prosesində, ana dili məşğələləri və başqa fəaliyyət növlərində təbiətə, əməyə və texnikaya aid yenilikləri öyrənir. Bu zaman uşaqların sevinc hissi keçirimələrinə imkan vermək, onlarda məktəbə bilik mənbəyi kimi baxmaq bacarığı yaratmaq zəruridir.

Məktəbəqədər yaşlı uşaqlarda fikri fəaliyyət tərbiyəsi əqli tərbiyənin və təlim hazırlığının başlıca vəzifəsidir. Fikri fəaliyyət körpəlik dövründə, əməli hərəkətlər zəminində baş verir. Həmin dövrdən başlayaraq uşaq cisimlərə sadəcə olaraq baxmaq, onlarla oynamaq mərhələsindən əməli iş aparmaq mərhələsinə keçir. O, həndəsi fiqurlardan istifadə edərək ev tikir, ayrı-ayrı əşyalarını işlədilmə yerini aydınlaşdırır, onlardan sadə şəkildə istifadə etməyə alışır. Beləliklə, uşaq cisim və hadisələr arasındakı qarşılıqlı əlaqəni aşkar edir, onların xüsusiyyətlərini öyrənir.

Uşağın yeriməyə başlaması onun cisimlərlə münasibətini daha da mürəkkəbləşdirir. Uşaq yeriməklə ancaq fiziki fəaliyyətdə olmur, həm də

əqli cəhətdən müəyyən inkişaf mərhələsinə qədəm qoyur. O, yeridikcə müxtəlif cisimlərə, oyuncaqlara toxunur, onları hərəkətə gətirməyə çalışır.Bəzən cisimlər uşaqların hərəkətlərinə mane olur. Bu zaman uşaq qarşısına çıxan əngəli aradan qaldırmaq, yaranmış vəziyyətdən yaxa qurtarmaq üçün yol və vasitələr axtarmağa səy göstərir.Uşağın yaşayış şəraitindən doğan tələblər onun məktəb təliminə hazırlaşdırılmasında böyük rol oynayır.

Məktəbəqədər dövrün ilk mərhələlərində uşaq bəzi məsələləri yaşlıları təqlid etmək yolu ilə həll edir. Çarpayının, şkafın altında olan bir şeyi yaşlıların çubuqla çıxartdığını görəndə, uşaq da ondan istifadə edir, həm də təkcə çubuq deyil, əlinə keçən hər hansı uzun cisimdən (süpürgədən, döşəmə ağacından və s.) istifadə edir. Cicimlərlə bu cür qarşılıqlı münasibət uşaq ağlının sonrakı inkişafında mühüm rol oynayır. Bunu şərti olaraq uşaq təfəkkürünün ilkin təqlid mərhələsi də adlandırmaq olar. Belə təqlid onun həyat təcrübəsini zənginləşdirir və məktəb təliminə hazırlığa sanki istiqamət verir.

Uşağın məktəbəqədər yaş dövründən qazandığı ilk həyat təcrübəsi onun təfəkkürünün, əqlinin inkişafına ciddi təsir göstərir.Burada cisim və hadisələrin təsiri ilə yanaşı yaşlılarla ünsiyyət və onların tərbiyəvi təsiri də əsasdır.

Yaşlılar uşağın yaş və fərdi inkişaf xüsusiyyətlərinə uyğun olaraq müxtəlif tapşırıqlar verir, onun qarşısına bu və ya digər məsələlər qoyur, bu məsələnin həll edilməsi yollarını və s. göstərirlər. Bunlar isə uşağa cisimləri, onların xassələrini ümumiləşmiş şəkildə əks etdirməyə imkan verir. Uşaq hələ nə etdiyini qabaqcadan planlaşdırmağı və bu plana əsasən işləməyi öyrənincəyədək yaşlı adamların göstərişilə, izahatına uyğun olaraq hərəkət etməyi öyrənir. Bu da onların ağıllı hərəkətlərinin əsasını təşkil edir. Deməli, müəyyən yaşda uşağın ağıllı hərəkəti onda ağlın yetkinliyi nəticəsi deyil, şüurlu və ya qeyri-şüurlu hərəkətlərə yiyələnmək, onları mənimsəməklə bağlıdır.

Məktəbəqədər yaş dövründən uşaqları məktəb təliminə hazırlaşdırarkən onların təfəkkürlərini nəzərə almaq lazımdır. Körpə uşaqların təfəkkürünün xarakterik xüsusiyyətlərindən biri də odur ki, onlar hazırda qavradıqları cisimlər haqqında düşünürlər. Əgər cisim müəyyən müddət uşağın nəzərindən yayındırılırsa, o, həmin cisim haqqında düşünmür. Başqa sözlə, cisimlərlə görülən iş qurtaran kimi həmin cisimlər haqqında düşünmək prosesi də dayanır. Uşaq hərəkət etdirdiyi, oynatdığı, toxunduğu cisimlər haqqında düşünüb fikirləşə bilər. Bu dövrdə təfəkkür sanki qavrayış çərçivəsindən kənara çıxa bilmir, onunla birlikdə fəaliyyət göstərir: cisim haqqında olan təsəvvür və onun fikri surətləri əsasında düşünmək uşağa müyəssər olmur.

Uşaqların əqlinin inkişaf etdirilməsi onların məktəb təliminə hazırlaşdırılmasının başlıca şərti olduğundan uşaq bağçası tərbiyəçiləri onların əqli fəaliyyətlərini təmin etməlidirlər. Bu vəzifənin öhdəsindən gəlmək üçün məktəbəqədər yaş dövrünün ilk mərhələlərindən uşaqların əqli inkişaf xüsusiyyətlərini dərindən öyrənmək və ona əsaslanaraq onların ilk təlim fəaliyyətlərini səmərəli şəkildə təşkil etmək lazımdır. Qruplarda təlim prosesinin təşkilində nəzərə almaq lazımdır ki, kiçik məktəbəqədər yaşlı uşaqlar cisimləri zahiri oxşarlıqlarına görə ümumiləşdirirlər. Əgər bir yaşlı uşaq alovda yenicə qızdırılmış dəmir parçasına toxunaraq əlini yandırmışsa, uzun müddət ona oxşayan cisimlərdən çəkinir, onlara əlini uzatmaqdan qorxur. Bu prosesin əsasında baş beyində yaranmış şərti reflektor əlaqələr durur, lakin sonralar uşaq ona oxşayan cismə toxuduqda və əli yanmadıqda başqa nəticəyə gəlir. Bu halda əlinin yanmasını cismin parlaqlığı, yaxud zahiri xassələri ilə deyil, temperatur xassəsi ilə əlaqəndirməyə başlayır. İkinci tərəfdən, həyatın ilk çağlarında uşaqlar ancaq hazırkı an haqqında düşünürlər.

Kiçik məktəbəqədər yaş dövründə uşaqlar öz fəaliyyətlərinin nəticəsini nəzərə ala bilmirlər. Bunun əsas səbəbi uşağın həyat təcrübəsinin azlığı, bilik səviyyəsinin aşağı olması, görüş dairəsinin ətraf cisimlələ məhdudlaşmasıdır.

İki-üç yaşlı uşaqların nitqə yiyələnmələri ilə əlaqədar cisimləri və onların xassələrini ümumiləşdirmək imkanları da artır. Bir neçə cismi bir adla adlandırmaq da buna kömək edir. Bir yaşlı uşaq üçün bütün heyvanlar «Mə...ə»dir. Onlar bu zaman bir zahiri əlaməti – heyvanların səsini əsas götürürlər. «Qakqa» uşaq üçün bir sıra yeməli şirin şeyləri, «düə» və ya «buvva»- bütün içməli şeyləri, «düdüd» hər növ maşını və s. bildirir. Bununla da cisimlər haqqında müxtəlif ümumiləşdirmələrə istinad edən ilk məfhumlar yaranır, lakin nəzərə almaq lazımdır ki, bu prosesi sözün əsil mənasında işlədilən fikri ümumiləşdirmə hesab etmək olmaz. Doğrudur, bu zaman da uşaq müəyyən əlamətlərə istinad edir, lakin bu əlamətlər cismi xarakterizə edən mühüm əlamətlər sayılmır. Digər tərəfdən, bu proses fikri təhlil və tərkibə istinad etmir, təsadüfi xarakter daşıyır. Elə buna görə də həmin ilk məfhumlar hələ müəyyən cisimlə, müəyyən hadisə ilə bağlı olur, konkret xarakterə malik olmaqla uşağın şüurunda həmin cismin fikri surəti deyil, əyani obrazı canlanır.

Uşaqların məktəb təliminə hazırlanmasında təlimin təşkilat forması olan məşğələlərin mühüm rolu vardır. Həmin məşğələlərdə uşağın təlim fəaliyyətini təşkil etmək və o əsasda əqli biliklər, təsəvvürlər verilməlidir.

Təlimin təşkilat forması olan məşğələlərin təşkilinə və keçirilməsinə nail olmaq üçün tərbiyəçi ciddi hazırlaşmalıdır. Tərbiyəcinin məşğələyə

hazırlaşması üzrə iş iki istiqamətdə gedir: nəzəri hazırlıq, texniki hazırlıq.

Nəzəri hazırlıq dedikdə tərbiyəçinin «Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı»ndan istifadə edərək mövzunu seçməsi, proqram məzmununu (nəyi və necə öyrədəcəyini) və qarşısında duran vəzifələri dəqiqləşdirməsi daxildir. Məktəbə hazırlıq qruplarında fəal təlim prosesini yaratmaq üçün, uşaqları daha çox düşündürəcək və əqli fəaliyyəti təmin edəcək, sualların qoyuluşuna geniş yer verilir. Altıyaşlılar üçün problem xarakterli, lakin uşaqların bilik və təsəvvürünə uyğun mövzular seçilməlidir.

Məşğələyə texniki hazırlıq deyərkən təlimdə əyaniliyin böyük əhəmiyyəti olduğu nəzərə alınır. Təsadüfi deyildir ki, Y.A.Komenski təlimdə əyaniliyi «qızıl qayda» adlandırmışdır. Odur ki, mövzudan aıslı olaraq hər bir yaş qrupunda keçirilən məşğələlərdə əyani vasitələrdən (canlı əyani vəsait, şəkil, illüstrasiya və demonstrasiyadan ) istifadə edilir.

Məktəbəqədər yaşlı uşaqlar bilirlər ki, onlar tezliklə məktəbə daxil olacaqlar. Bu barədə uşaq bağçasında və ailədə danışırlar. Uşaqlar tərəfindən təşkil olunmuş «məktəb» oyunu, məktəb haqqında suallar, oxumaq və yazmağa olan səy onların məktəbə olan maraqlarını göstərir. Valideynlərin, böyük uşaqların tədris əməyinə göstərdikləri münasibət sayəsində bu daha da güclənir. Balacalar görürlər ki, valideynlər məktəblilərin, onların böyük bacı və qardaşlarının ev tapşırıqlarını yerinə yetirmələrinə necə ciddi yanaşır, bunun üçün lazımi şərait yaranmasından ötrü necə qayğı göstərirlər, uşaqların müvəffəqiyyətləri onları necə sevindirir. Onların müvəffəqiyyətsizlikləri valideynləri necə mütəəssir edir.

Uşaqların özləri də məktəbə hörmət bəsləməyə başlayır, onlarda məktəbə getmək arzusu əmələ gəlir.

Uşaq bağçasının tərbiyəçiləri məktəbəhazırlıq qrupunun uşaqları ilə apardıqları işə məktəblə tanışlığı da daxil edirlər.

Qabaqcadan düşünülmüş müəyyən planla keçirilən söhbətdə uşaqlar məktəb haqqında: onların məktəbə nə üçün gedəcəkləri, orada nə ilə məşğul olacaqları barədə bir sira məlumatlar alırlar. Söhbətin axırında tərbiyəçi deyir ki, faydalı adam olmaqdan ötrü çox bilmək, bunun üçün işə «4» və «5» qiymətlərlə oxumaq lazımdır.

Belə söhbətlər zamanı uşaqların sual və mülahizələri maraqlıdır: «Tərbiyəçi olmaq üçün çoxlu bilmək lazımdır?», «Kim çox bilməlidir; təyyarəçi, yoxsa sürücü?» və s.

Uşaqlarla məktəbə ekskursiya keçirilir. Gəzinti zamanı uşaqlar məktəbyanı sahədə şagirdlərin işini müşahidə edirlər. Bəzi tərbiyəçilər məktəbin direktoru və müəllimlə razılaşaraq, uşaqlar ilə birlikdə birinci

sinfə gedirlər. Müəllim qısa söhbətdə uşaqlara birinci sinifdə şagirdlərin nə öyrəndikləri və necə öyrəndikləri barədə danışır.

Uşaqlar emalatxanada şagirdlərin əməyini müşahidə edirlər. Çox zaman uşaq bağçası məzunları ilə işləməli olacaq müəllim uşaqlarla tanış olmaq üçün məktəbəhazırlıq qrupuna gəlir.

Uşaqların məktəblə tanışlığı üçün uşaq bağçası uşaqlarının bağçanın keçmiş yetirmələri olan məktəb şagirdləri ilə görüşlərinin böyük əhəmiyyəti var. Yaxında yaşayan məktəb şagirdlərindən bəziləri dərsdən sonra uşaq bağçasına gəlir, tərbiyəçilərə və uşaqlara məktəb haqqında danışır. Balacalarla «məktəb» oyunu təşkil edərək, bu oyunların məzmununu zənginləşdirirlər. I sinif şagirdləri uşaq bağçasına öz qiymət cədvəllərini gətirirlər. Tərbiyəçi əlaçıların dəftərini göstərərək, şagirdlərin onlara ehtiyatlı və səliqəli yanaşdıqlarına uşaqların diqqətini cəld edərək necə oxumaq lazım olduğu barədə söhbət aparmaq üçün həmin cədvəldən istifadə edir. Bir sıra uşaq bağçaları özlərinin keçmiş yetirmələrini bayramlara dəvət edirlər. Çox zaman həmin bayramlarda nəinki yalnız I sinif şagirdləri, həm də yuxarı sinif şagirdləri iştirak edirlər.

Uşaq bağçasında keçirilən təlim məşğələsi uşaqları məktəb həyatına hazırlayır. Onlar təlim fəaliyyətinin müxtəlif növlərinə cəlb edildikcə daha diqqətli olur və diqqətin müəyyən obyekt üzərinnə yönəltmək bacarığına sahib olurlar. Müntəzəm keçirilən təlim məşğələləri uşaqlarda öyrənmə marağını formalaşdırır.

Təlim məşğələləri zamanı uşaqlarda məktəbə həvəs və maraq güclənir, düzgün təlim vərdişləri formalaşır, məsuliyyət hissi, icraçılıq və dözümlülük yaranır.

Uşaq bağçasında nitq inkişafı, ictimai mühitlə tanışlıq, savad təlimi, riyaziyyat, rəsm, gil və applikasiya işi, quraşdırma, fiziki mədəniyyət – bədən tərbiyəsi və musiqi məşğələləri həyata keçirilir. Məşğələlərdə təlim işi uşaqlardan fiziki və əqli gərginlik tələb edir ki, bu da uşağın fəallığı ilə həyata keçirilir. Onlar çalışırlar ki, öz fəaliyyətlərində müəyyən nəticə əldə etsinlər.

Bütün bunları nəzərə alaraq uşaqların təlim yükünün müəyyən edilməsində ehtiyatlı olmaq, məşğələnin müddəti, harada keçirilməsi, gün rejiminə riayət edilməsi mühüm əhəmiyyət kəsb edir.

Təlim məşğələlərini günün birinci yarısında həyata keçirmək daha məqsədə müvafiqdir. Bu vaxt uşaqların əqli fəaliyyəti daha güclü olur. Təlim məşğələləri uşaqların yaş üzrə daxil olduğu qruplardan asılı olaraq müxtəlif məzmun və formada təşkil olunur.

Uşaqların hansı günlərdə iş qabiliyyətinin yüksək olmasını nəzərə alaraq təlim məşğələsinin həftəlik cədvəli tərtib olunur. Adətən uşaqlarda işgüzarlıq ikinci, üçüncü və dördüncü günlər daha yaxşı olur. Bu

günlərdə təlim cədvəlinə gərgin əqli fəaliyyət tələb edən mürəkkəb məşğələləri (riyaziyyat, nitq inkişafı, oxu texnikasına yiyələnmək və s.) daxil etmək məqsədə müvafiqdir. Bu fənlərin məşğələsini birinci, hərəkət daha çox tələb olunan musiqi, fiziki, təsviri fəaliyyət məşğələlərini isə ikinci keçirmək daha yaxşı nəticə verir.

Uşaq bağçası uşaqların məktəbə getmələrini təntənəli surətdə qeyd edir: tərbiyəçilər və valideynlər uşaqlara hədiyyələr (albomlar, çantalar, dəftərlər) hazırlayırlar; məktəb müəlliminin dəvət olduğu bayram keçirirlər. Böyüklər uşaqları məktəbə yola salmaq münasibətilə çıxış edir, uşaqlar uşaq bağçasına, öz tərbiyəçilərinə, bağçanın xidmətçilərinə minnətdarlığını bildirir, yaxşı məktəbli olacaqlarını vəd edirlər.

Bir çox uşaq bağçasında buraxılan uşaqlar bir il ərzində bitki yetişdirirlər. Hər bir uşaq sentyabrın birində öz bitgisini məktəbə aparır. Həmin gün məktəbə gedən uşaqlara gül vermək ailədə bir ənənə şəklini almışdır.

Uşaq bağcası uşaqlara məktəb haqqında bəzi məlumatlar verərək, onlarda müsbət emosiyalar tərbiyə edərək məktəbə keçid üçün psixoloji hazırlığı formalaşdırır.

Məktəb də yeni şagirdlərin qəbuluna hazırlaşır. Uşaqların ilk tanışlığı təntənəli və bayramsayağı keçir. Müəllimlər haqlı olaraq belə hesab edirlər ki, məktəbin ilk günü uşağın qəlbində böyük iz buraxacaq, məktəbə, müəllimə müsbət münasibət oyadacaqdır.

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN FİZİKİ TƏRBİYƏSİNDƏ HƏRƏKƏTLİ OYUNLARIN ROLU

**Sevil CƏMİLZADƏ,**
ADPU-nun dosenti



Hərəkətli oyunlar məktəbəqədər yaşlı uşaqların bədən tərbiyəsində qiymətli vasitədir. Oyun uşağın orqanizminin təkmilləşməsinə yaxşı təsir göstərir, səhhətini möhkəmləndirir və uşaqlarda həyat üçün zəruri hərəkət vərdişlərini, cəldlik, çeviklik, müstəqillik və s. keyfiyyətləri inkişaf etdirir.

Məktəbəqədər yaşlı uşaqlar son dərəcə mütəhərrik olurlar. Oyun onların inkişaf edən orqanizmləri üçün təbii tələbatdır. Bu yaşda oyuna olan tələbatın ödənilməsi onların fiziki inkişafına müsbət təsir göstərir.

Uşaq bağçalarında hərəkətli oyunlar müxtəlif formalarda həyata keçirilir. Hərəkətli oyunlar, hər şeydən əvvəl, uşaq bağçasının müxtəlif yaş qruplarında həftədə iki dəfə keçirilən fiziki mə-

dəniyyət məşğələlərinə daxil edilir. Bundan əlavə, hərəkətli oyunlardan məşğələdənkənar vaxtlarda, səhər yeməyinə qədər, səhər və axşam gəzintilərində istifadə olunur.

Hərəkətli oyunların diqqətlə seçilməsi və onlardan müntəzəm istifadə edilməsi sayəsində uşağın orqanizminin düzgün formalaşması, sümük-əzələ aparatının möhkəmlənməsi, ürək-damar sisteminin təkmilləşməsi, maddələr mübadiləsinin artması və s. üçün əlverişli şərait yaratmaq olur.

Hərəkətli oyunların məktəbəqədər yaşlı uşağın inkişaf edən və formalaşan orqanizminə hərtərəfli təsirini qeyd etmək lazımdır. Başqa fiziki hərəkətlər kimi, onlar da, hər şeydən əvvəl, sağlamlığı təmin edir. Hərəkətli oyunlarda uşaqlar eyni zamanda bir neçə hərəkət yerinə yetirməli olurlar: məsələn, tələdən tez qaçmaq, tutulmaqdan qorunmaq, kiçik maneələri yüngülcə tullanıb keçmək, topu hədəfə atmaq və s. Bütün bunlar əsas hərəkətlərin, məsələn, qaçmanın, tullanmanın, atmanın və s. inkişafı və təkmilləşdirilməsi, cəldlik, itilik, dözümlülük, cəsarətlilik və s. kimi fiziki keyfiyyətlərin tərbiyəsi üçün müstəsna əhəmiyyətə malikdir.

Hərəkətli oyunların əhəmiyyəti fiziki tərbiyə sisteminin banisi P.F. Lesqaftın əsərlərində öz əksini ətraflı tapmışdır. O, oyunu hərtərəfli inkişafın mühüm bir vasitəsi hesab etmiş və oyunda fiziki hərəkətlər ilə əqli və əxlaqi tərbiyə arasında sıx əlaqə olduğunu sübuta yetirmişdir. P.F.Lesqaft xarakteri tərbiyə etmək üçün oyunun mühüm şərt olduğunu göstərmişdir. O yazmışdır: «Oyunda ən mühüm an hisslərin iradəyə tabe olmasıdır».

P.F.Lesqaft fiziki və əqli inkişafın birliyinin zəruri olmasını hərarətlə sübut edirdi. Bu birlik oyunda həyata keçirilir. Oyun uşağın həm fiziki qüvvələrini, həm əqlini, həm də xarakterini inkişaf etdirir. Uşaq oyunda öz qüvvələrinə sərəncam vermək, öz hərəkətlərini düşünmək və çətinliklərin öhdəsindən gəlmək bacarığı qazanır. Böyük pedaqoq K.D.Uşinski kimi P.F. Lesqaft da belə hesab edir ki, uşağın oyunu həyatı əks etdirir: «Uşaq oyunda onu əhatə edən mühitdə öz gördüklərini təkrarlayır və məşğələləri mütəəssir olmaq, fiziki qüvvələrin inkişafı və onlardan istifadə etmək bacarığının dərəcəsinə görə cürbəcür edir».

P.F.Lesqaft hərəkətli oyunun tərbiyəvi rolunu yüksək dərəcədə qiymətləndirmiş, onun əhəmiyyətini izah etmək, valideynləri, tərbiyəçiləri oyunlara rəhbərlik etməyə hazırlamaq üçün çox iş görmüşdür. O, oyunların mahiyyəti və əhəmiyyətini geniş işıqlandırmışdır.

Uşağın hərəkətli oyuna ehtiyacı olur və həmin ehtiyacı ödəmək üçün o, oyuna qoşulur. Hərəkətli oyunlarda mürəkkəb olmayan qaydalar vardır ki, uşaqlar ona tabe olmalıdırlar. Bu isə uşaqları əhəmiyyətli dərəcədə mütəşəkkil və intizamlı edir. Uşaqlar kiçik məktəbəqədər yaşlarından artıq kollektivdə birgə hərəkət etməyi, oyunda şərtləndirilmiş hərəkətləri ancaq onların məzmunu və qaydaları ilə yerinə yetirməyi, öz növbələrini gözlə-

məyi, hərəkətə icazə ilə başlamağı, yoldaşına güzəştə getməyi öyrənirlər. Yaxşı təşkil olunmuş hərəkətli oyunlar uşaqlarda xoş əhval-ruhiyyə, yerinə yetirilmiş hərəkətlərdən, kollektivdə birgə fəaliyyət göstərməkdən zövq almaq hissi oyadır.



Hərəkətli oyunların gəzinti zamanı, təbii şəraitdə keçirilməsi uşaqların fiziki inkişafına daha çox təsir göstərir. Bu şəraitdə təşkil olunan hərəkətli oyunlar uşaqlarda nəinki hərəki vərdişlərin, eyni zamanda bu vərdişlərdən müxtəlif həyati şəraitdə istifadə etmək bacarığının əmələ gəlməsi üçün böyük imkanlar yaradır.

Hərəkətli oyunların təbiətdə keçirilməsi bir də ona görə məqsədəuyğundur ki, onların düzgün yerinə yetirilməsi üçün orada geniş sahə vardır. Tutmaq, qorunmaqla qaçmaq, qaçıb uzununa tullanmaq kimi hərəkətləri olan «Qaçdı-tutdu», «Ovçu və vəhşi heyvanlar» və s. kimi oyunları geniş sahədə oynamaq daha rahatdır. Təbiətin qoynunda uşaqların hərəkətləri daha təbii və sərbəst olur. Ətraf mühit heç nə ilə məhdudlaşdırılmayan fəal hərəkətlər imkanına malikdir. Qaçma ilə əlaqədar oyunlarda uşaq sürəti artırır, hər hansı əşyanı itələmək və ya ona toxunmaqdan çəkinmədən bütün gücü ilə tullana bilir.

Təbiət elə müxtəlif şərait yaradır ki, hərəkətli oyunlar çoxlu variantlarda, ən müxtəlif yollarla yerinə yetirilə bilir. Təbii şəraitdə oyun daha maraqlı və emosional keçirilir. Belə ki, dovşan, canavar, ayı rollarını ifa edən uşaqların əsl kolların arxasında gizlənmələri, sərbəst qaçmaları üçün kifayət qədər imkanları olur. Oyunun süjetinə müvafiq olan təbii şərait uşağa ifa etdiyi obraza yaxşı girməkdə, təsvir olunan heyvanın hərəkətlərini daha dəqiq yerinə yetirməkdə, daha cəld, inamla, müstəqillik və təşəbbüskarlıq göstərməklə hərəkət etməyə imkan verir.

Böyük məktəbəqədər yaşlı uşaqların bacarıq və vərdişləri daha mükəmməldir. Onlar tez uzağa qaça, əşyanı uzağa ata, nişanı daha düz vura bilirlər. Buna görə də 5-6 yaşlı uşaqlarla müxtəlif hərəkətli oyunları gəzinti zamanı geniş sahədə, çəmənlikdə, hərəkətlərdə öz bacarığını göstərmək üçün imkan olan yerlərdə keçirmək xüsusilə vacibdir.

Hərəkətli oyunlar gəzinti zamanı xüsusi hazırlıq tələb etmir. Buna baxmayaraq, yaxşı olar ki, bu məqsəd üçün əvvəlcədən daha münasib yer seçilsin. Bundan əlavə, hava şəraiti də nəzərə alınmalıdır. Soyuq günlərdə oyunlar daha hərəkətli xarakterdə, isti günlərdə isə sakit olmalıdır ki, uşaqlar həddən artıq yorulmasınlar.

Hərəkətli oyunların səmərə verməsi onların düzgün seçilib, qaydası ilə keçirilməsindən çox asılıdır. Oyunlar seçilərkən tərbiyəçi uşaqların yaş və fərdi xüsusiyyətlərini, fiziki hazırlığını nəzərə almalı, həll olunacaq məsələləri aydın təsəvvür etməlidir.

Kiçik qrupdakı uşaqlar üçün müəyyən süjeti olmayan, yaxud onlara yaxın və aydın olan təsəvvürlər əsasında qurulmuş sadə süjetli oyunlar seçilir. Bu oyunlarda («Mənə çatın», «Mənim yanıma keçin» və s.) qayda az olur, buna uyğun rollar da çox olmur.

Kiçik qrupda uşaqların hərəkətli oyunlarındakı hərəkətlər başlıca olaraq yerimək, qaçmaq, tullanmaqdan ibarətdir. Orta qrupun uşaqları üçün də sadə qaydaları olan oyunlar seçilməlidir, lakin bunların icrasında onlara böyük tələblər vermək lazımdır. Bu qruplar üçün olan oyunlarda hərəkətlər xeyli mürəkkəbləşir.

Uşaqların yaş imkanlarını nəzərə alaraq, onlara eyni zamanda müxtəlif hərəkətləri və ya bir oyunda hərəkətin iki növünü (qaçmaq və tullanmaq) yerinə yetirməyi tapşırmaq olar. Yarış elementləri olan oyunlar («Bayrağa kim tez çatar?») uşaqların daha çox xoşuna gəlir.

Böyük qrupdakı uşaqlar üçün oyunlar daha müxtəlif süjet əsasında qurulur və buraya, demək olar ki, bütün əsas hərəkətlər daxil edilir. Oyunda rolların sayı artır. Böyük qrupdakı uşaqların oyunlarına böyük əlaqələndirmə, çəldlik tələb edən daha mürəkkəb və müxtəlif hərəkətlər daxil edilir.

Beləliklə, uşaq bağçasının müxtəlif yaş qruplarında təşkil olunan hərəkətli oyunlar uşağın sağlamlığı və fiziki inkişafı üçün zəruri olmaqla orqanizminin həyat fəaliyyətini artırır, hərəkətlərini inkişaf etdirir, onlarda şən əhvali-ruhiyyə yaradır.

Hər bir hərəkətli oyunda uşağın qarşısında çox vaxt olduqca sadə, lakin hər halda müəyyən gərginlik tələb edən bir məqsəd durur. Oyunun belə məqsədə yönəldilmiş olması iradə və xarakterin inkişafına imkan verir və uşaqları intizama öyrədir.

Ümumiyyətlə, hərəkətli oyunlarda uşağın hərəkətləri inkişaf etdirilir, onda ızırəklik, çəldlik, cəsurluq və kollektivdə fəal olmaq, faydalı iş görmək bacarığı tərbiyə edilir. Hərəkətli oyunlar böyüməkdə olan orqanizmin fəallığını təmin edən əsas vasitələrdən biri olmaqla, uşaqların fiziki inkişafı və tərbiyəsində böyük rol oynayır.

# BEŞYAŞLILARIN MƏKTƏBƏ FİZİKİ HAZIRLIĞI

Aişə MƏMMƏDOVA,
ADPU-nun baş müəllimi



Məktəb təliminə başlayan uşaq tam sağlam olmalıdır. Fiziki inkişaf, sağlamlıq bir çox hallarda nəinki validyenlər, hətta tərbiyəçilər tərəfindən düzgün qəbul olunmur. Onlar kök, qırmızıyanaq uşaqları fiziki cəhətdən möhkəm, sağlam hesab edirlər. Uşağın çevik, daim hərəkətdə olması beləlrini düşündürmür. Bu da bir yana, uşaqların somatik və psixi sağlamlığındakı pozuntular nəzərdən qaçırılır.

İnkişafın sonrakı mərhələlərində bunların nə ilə nəticələnəcəyi haqqında düşünmürlər. Yeniyetmə dövründə əsəb, ürək-damar, endokrin sistemlərində müxtəlif formalarda patologiya baş verir. Bunları nəzərə almadan uşaqları I sinfə göndərmək onların sağalmlığına, nəticə etibarilə təhsilin keyfiyyətinə mənfi təsir göstərir.

I siniflərdə müşahidələr göstərir ki, altıyaşlıların sağlamlığının qorunması indiki dövrdə pedaqoqları və tibb işçilərini narahat edən ən aktual problemlərdən biridir. Altıyaşlıların sağlamlığının qorunmasına diqqət onunla bağlıdır ki, məktəb təlimi uşağın orqanizminə tamamilə yeni tələblər verir. Bu tələblər uşağın məktəbəqədər dövrdə alışdığı həyat tərzini dəyişir. Uşaq yeni iş fəaliyyətinə uyğunlaşmalıdır. Bu, dinamik və statik yük arasında nisbəti dəyişir. Tədris prosesində uşaq uzun müddət partada eyni vəziyyətdə əyləşməyə məcburdur. Məktəb kollektivi orqanizmin bütün sistemində gərginlik yaradır. Axtarışlar göstərir ki, əqli, dinamik, statik yük altıyaşlılar üçün həddən artıq ağırdır. Ona görə də təlimin ilk dövrlərində uşağın iş qabiliyyəti aşağı düşür, diqqət və yaddaş pisləşir, hərəki narahatlıq çoxalır, baş ağrısından şikayətlər eşidilir, iştah azalır, bədəndə ağırlıq əmələ gəlir, yuxusuzluq baş verir, orqanizmin bütün sistemi dəyişir.

Bütün bunları nəzərə alaraq tərbiyəçilər arasında geniş iş aparılmalı, onlara profilaktik tədbirlər görməyin yolları öyrədilməlidir. Beşyaşlıların qarşıda gözlənilən çətinliklərə dözmələri, onları aradan qaldırmağa hazır olmaları üçün şərait yaradılmalıdır. Beşyaşlıların məktəbə fiziki hazırığı aşağıdakı tələblərin həyata keçirilməsini zəruri edir.

1) uşağın normal fiziki və əsəbi-psixi hazırlığı:

- ürək-damar, həzm, nəfəs sisteminin düzgün fəaliyyət göstərməsi;

• uşaqların yazı mexanizminə yiyələnmək üçün mühüm əhəmiyyət kəsb edən sümük – əzələ aparatının, xüsusilə əl və barmaqların xırda əzələlərinin vaxtında inkişaf etməsi;
• uşağın pəncəsi və qamətinin düzgün formalaşması;
• müxtəlif analizatorların (görmə, eşitmə, lamisə. iybilmə, dadbilmə) və əsəb sisteminin düzgün formalaşması;
2) uşağın sağlamlığının əlverişli vəziyyəti;
• orqanizmin ümumi möhkəmləndirilməsi;
• xəstəliklərə yüksək səviyyədə müqavimət;
3) əsas hərəkətlərin bütün növlərinə (yeriş, müvazinət saxlama, tullanma, atma və s.) müvəffəqiyyətlə yiyələnmə;
• fiziki keyfiyyətlərin (çeviklik, cəldlik, koordinə etmək və s.) inkişafı;
4) iradənin inkişafı və orqanizmin dözümlülüyünün müəyyən səviyyəsi;
• lazım gəldiyi vaxt ərzində (məşğələdə) davamlı diqqəti və iş qabiliyyətini qorumaq bacarığı.

Məktəbə fiziki hazırığın təmin olunması həmin dövrdə uşaqların anatomik-fizioloji xüsusiyyətlərini bilməyi tələb edir. 6 yaş uşağın fiziki inkişafının bir qədər ləngiməsi ilə xarakterizə olunur. Belə ki, uşağın boyu 9-10 santimetr, çəkisi 3-4 kiloqram artır. Uşaq süd dişlərini dəyişməyə başlayır. Onun dərisi xeyli kobudlaşır, boyun onurğası qabağa, sinəsininki isə arxaya əyilir. Bu dövrdə hərəkətin fəallığına, dişlərin, dərinin təmiz saxlanmasına fikir vermək lazımdır. Bədənin hər yerində kiçik əzələlər sürətlə inkişaf etdiyindən yorğunluq baş verir. Ona görə də uşaqlar dərsdə əyləşərkən, yazarkən, şəkil çəkərkən yorulurlar. Bu dövrdə əzələ qüvvəsi cinsə görə fərqlənir. Oğlanlar qızlara nisbətən daha güclü olurlar. Fəaliyyət prosesində bunu nəzərə almaq lazımdır.

Qamətin düzgünlüyü, onun düzgün inkişafına fikir verilməsi mühüm əhəmiyyət kəsb edir. Müəllim həkimin köməyi ilə hər bir uşağın onurğasının vəziyyətini, pəncəsinin yastı olub-olmamasını bilməli, parta arxasında düzgün əyləşməsinə, qabağa, bir tərəfə əyilməsinə yol verməməli, ayağın altına diyircəkli şey qoyub, hərəkət etdirməklə pəncəyə forma verilməsini təmin etməlidir.

Məktəbə hazırlıq qruplarında uşaqların hərəki fəallığının düzgün təşkili böyük əhəmiyyət kəsb edir. Sakit məşğələlərin hərəkətli məşğələlərlə əvəzlənməsi uşaqların hərəkətli oyunlarda yorulmalarının qarşısını alır.

Beşyaşlıların yuxarı tənəffüs yollarının normal olmaması, tez-tez burun- boğaz xəstəliklərinə tutulması inkişafın qarşısını alır. Altı yaşında uşağın döş qəfəsi onun daha dərindən nəfəs alma imkanını təmin edir. Döş qəfəsinin hərəkətdə olması bol oksigenin qəbuluna şərait yaradır.

Uşağın ürək-damar sisteminin, ürək əzələlərinin möhkəmlənməsi, əsəblərinin inkişaf etməsi, ürək döyüntüsündəki qeyri-bərabərliyin aradan qalxması, ritmin qaydaya düşməsi onun normal inkişafına şərait yaradır. Hələ yuxarı tənəffüs yollarının kifayət qədər inkişaf etməməsi ürəyin fəaliyyətinə qismən mənfi təsir göstərir.

Bu dövrdə həzm aparatı xeyli təkmilləşir, lakin onun tam inkişafı üçün uşağın yüksək kalorili ərzaqla qidalanması vacibdir. Uşaqların yağ, piy, ağartı məhsulları ilə qidalanmaları, gün ərzində bir litrdən bir qədər çox su içmələri məsləhət görülür.

Uşağın sinir sisteminin bütün şöbələrinin fəaliyyəti, sinir fəaliyyəti təkmilləşir. Bu isə onun düzgün tərbiyə olunmasını təmin edir. Uşaqları yaşlarına müvafiq olmayan yeni təəssüratlarla yükləmək məsləhət görülmür. Bədii özfəaliyyətdə, bayramlarda, yığıncaqlarda, televiziya verilişlərində mənasını bilmədikləri şeirlər və mahnılarla çıxış etmələrinə, uzun müddət diafilmlərə, digər verilişlərə baxmalarına yol verilməməlidir.

Məktəbəhazırlıq qruplarında görmə, eşitmə, dadbilmə, iybilmə, lamisə analizatorları ilə iş də təkmilləşir. Bu isə ətraf aləmi həssaslıqla qavramağa xidmət edir. Müşahidə prosesində əşyaların səsini, dadını, iyini, formasını fərqləndirməklə onların adlarını öyrənir, qruplaşdırır, təsnif edirlər. Bu isə lüğət ehtiyatının zənginləşdirilməsi və nitqlərinin inkişafına qida verir.

Bu dövrdə gözlərin sağlamlığına xüsusi diqqət yetirilməli, daxili göz təzyiqinin yaranmasının, yaxındangörmənin qarşısı alınmalıdır. Gözlərin uzun müddət, davamlı eyni obyektə baxması, gərgin işlə məşğul olması, işığın sağ tərəfdən düşməsi, işığın çox zəif və ya güclü olması hallarının qarşısı alınmalıdır.

Bu dövrdə eşitmə orqanının qorunması da vacibdir. Müxtəlif xəstəliklər, zədələnmələr, qulağın eşitmə dərəcəsini aşağı salır. Nəticədə uşaq səslənməsinə görə yaxın nitq səslərini fərqləndirməkdə, aşağı tonla danışanları eşitməkdə çətinlik çəkir.

Məktəbəqədər müəssisələrin rəhbərləri səriştəli tibb mütəxəssislərinin köməyi ilə bütün işçilərin diqqətini uşaqların sağlamlığının qorunmasına yönəltməli, vaxtaşırı müayinələrin keçirilməsini təmin etməlidirlər. Hər bir müayinə zamanı həkim uşağın fiziki, əsəbi-psixi inkişafını, sağlamlıq vəziyyətini aşkara çıxarır. Həkimlərin diaqnozları, valideynlərdən alınmış məlumatlar, özlərinin müşahidələri tərbiyəçiyə hər bir uşağın xarakteristikasını verməsini, işin uğurlu təşkilini təmin edir. O, məşğələlərin təşkilində deyilənləri nəzərə ala bilir. Onlar qruplarda gün ərzində təlim yükünü bərabər şəkildə, səmərəli bölüşdürürlər. Hər bir məşğələnin gedişində və məşğələdən sonra ritmik hərəkətlər, didaktik oyunlar keçirmək çox faydalıdır. Gəzinti, ekskursiya, çimmək, hava

vannası qəbul edəndə də rejimin gözlənilməsi uşaqların əsəb sisteminin, səhhətinin sağlamlığını təmin edirdi.

Fiziki çalışmalara, əsas hərəkətlərə nələr daxildir? Bunları, əsasən, aşağıdakı kimi qruplaşdırmaq olar: səhər gimnastikası, düzgün gəzmək, düzgün qaçış, müvazinəti saxlamaq, hündürə və uzununa tullanma, sürünmə, dartınma, atmaq və tutmaq, topun kisəyə atılması, hədəfə atma və s.

İmkan olan yerlərdə, şərait olan bağçalarda tərbiyəçilərin təşəbbüsü ilə konki, xizəklə qış idman məşğələləri də təşkil oluna bilər. Bədəni möhkəmləndirməyə xidmət edən su tədbirləri, hava vannası, günəş vannası, qum üzərində uzanma və s. tədbirlərdən müntəzəm istifadə etmək lazımdır. Bu hərəkətlərin tədricən inkişaf etdirilməsi məsləhət görülür.

Əqli və fiziki yükün düzgün paylanması müxtəlif formalı məşğələləri növbələşdirməklə yanaşı, təşkilat formalarının (frontal, qruplarla, fərdi) təsirini nəzərə almağı da lazım bilir. Fiziki çalışmalara, hərəkətli oyunlara aludə olmaq da məsləhət görülmür. Təcrübə göstərir ki, bəzən fiziki təmrinlər uşaqları əqli məşğələlərdən daha çox yorur və onları inkişafdan saxlayır.

## TƏLİM-TƏRBİYƏ PROSESİNDƏ UŞAQLARI ÖYRƏNMƏ YOLLARI

**Pərvin CƏFƏROVA,**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi



Eyni yaşlı uşaqların inkişafı arasında fərdi fərqlər olur, biri sürətlə inkuşaf edir, digəri isə bir az ləngiyir. Uşaqlar fiziki və psixi inkişafına görə fərqlənirlər. Tərbiyəçi hər yaş dövrünün bioloji cəhətdən səciyyəvi xüsusiyyətlərini bilməklə yanaşı, hər bir uşağın inkişafının fərdi xüsusiyyətlərini də bilməlidir.

Bu məqsədlə tərbiyəçi hər bir uşağı hərtərəfli öyrənməlidir. Tərbiyəçi uşağı yalnız təlim-tərbiyə prosesində yaxşı öyrənə bilər. Təlim prosesində uşaq şəxsiyyətinin bütün cəhətləri meydana çıxır. Bundan əlavə, oyun, əmək prosesində, gəzinti və ekskursiya zamanı da uşaqlar üzərində müşahidə aparmaq lazımdır.

Müşahidə pedaqoji proseslərin gedişinə qarışmadan onların zahiri ifadəsinin planlı və məqsədyönlü şəkildə öyrənilməsidir. Tərbiyəçi sentyabrın ilk günündən həm qrupu, həm də ayrı-ayrı uşaqları müşahidə edir. Tədricən o, hər bir uşağın fiziki və psixi inkişafının müxtəlif cəhətlərinə aid faktlar toplayır, onun rəftarında və təlimə münasibətində müsbət və mənfi cəhətləri öyrənir.

Müşahidə vasitəsilə uşaqların bilik ehtiyatını, təlimə maraq və münasibətini, diqqət və iradəsinin xüsusiyyətlərini, onun hafizəsi, nitqi və təfəkkürünün xarakterik cəhətlərini, ictimai işə, əməyə münasibətini, yoldaşları ilə rəftarını, tərbiyəçilərə münasibətini və s. öyrənmək olur. Müşahidə uzun müddət aparılmalı və uşağın mümkün qədər müxtəlif şəraitdə özünü necə aparmasını öyrənməyə imkan verməlidir. Tədqiqatçı müşahidə zamanı nəyi, nə məqsədlə izləyəcəyini əvvəlcədən müəyyən edir, müvafiq faktlar toplayır, onları təhlil edir, qruplaşdırır və nəticə çıxarır. Uşağı öyrənərkən qeyri-fəal müşahidə ilə yanaşı, müsahibədən istifadə edilməsi də məsləhət görülür.

Müsahibə əqli və əxlaqi tərbiyə metodu kimi məktəbəqədər yaşlı uşaqların biliklərinin dəqiqləşdirilməsi, təfəkkür və nitqlərinin inkişaf etdirilməsi məqsədilə aparılır. Müsahibə metodu bu və ya digər pedaqoji məsələni söhbət yolu ilə öyrənməkdir. Müsahibəyə hazırlıq zamanı onun nə məqsədlə, kimlərlə (uşaqlarla, valideyn, tərbiyəçi, bağça işçiləri və b.), hansı suallar əsasında aparılacağı müəyyənləşdirilir. Müsahibə prosesində alınan cavablar dəqiq qeyd edilməli (və ya lentə yazılmalı), sonra isə ciddi təhlil olunmalıdır.

Uşaqlarla müsahibənin vəzifə və məzmununu iki tipə ayırmaq olar: dərketmə və mənəvi. Birinci tipin başlıca vəzifəsi uşaqlarda ətrafdakılar haqqında bilikləri yoxlamaq, dəqiqləşdirmək, bəzən bu bilikləri genişləndirmək, yaxud ümumiləşdirmək və onlarda müstəqil təfəkkürü inkişaf etdirməkdir. Belə müsahibələrin əsasında uşaqların maddi aləmin əşya və hadisələrini qavramalar durur. Çox vaxt müsahibə ekskursiya və müşahidələrdən sonra, bəzən isə uşaqların diqqətini qavrayacaqları əşya, fakt və hadisələrə yönəltmək məqsədilə ekskursiya və müşahidələrdən əvvəl aparılır.

Mənəvi müsahibələrin məqsədi əsasən uşaqlarda əxlaqi keyfiyyətlərin formalaşdırılması olsa da, şübhəsiz ki, bu müsahibələr onları fikirləşməyə, xatırlamağa, təsəvvür etməyə, öz biliklərini ümumiləşdirməyə, onları nitqlə ifadə etməyə məcbur edir, beləliklə, əqli inkişafa təkan verir.

Müsahibə prosesində uşağın hissi qavrayışları ilə fikrin şifahi ifadəsi arasında qarşılıqlı təsir yaratmağa çalışmaq, obrazları yada salmaqda, tərbiyəçinin suallarına diqqət yetirməkdə və dəqiq cavablar qurmaqda ona kömək etmək vacibdir. Müsahibə aparılarkən formalizmdən qaçmaq lazımdır. Uşaqlarla mümkün qədər emosional xarakterli söhbətlər aparılmalıdır.

Müsahibə uşağı öyrənmək üçün çox əlverişlidir. Səmimi şəraitdə aparılan söhbətlər onun bəzi hərəkətlərini aşkara çıxarmağa imkan verir. Tərbiyəçi uşaq haqqında aparılan söhbətlər nəticəsində onun məşğələ,

oyun və əməyə münasibətini, müxtəlif fəaliyyətdə özünü necə aparmasını aşkara çıxara bilir.

Uşağın valideyni ilə münasibəti onun ailədəki rəftarını, ona ailədə necə münasibət bəsləməsini müəyyənləşdirməyə kömək edə bilər. Əgər bu söhbət ailədə aparılarsa, tərbiyəçi ailənin mədəni-məişət şəraitini, uşağın oyun və yataq yerini və s.də öyrənə bilər.

Uşaqların yaradıcılığının və pedaqoji sənədlərin öyrənilməsi tədqiqatda bəzi zəruri faktları toplamağa xidmət göstərir. Uşaqları tanımaq üçün hər bir uşağın fikirlərini və iş məhsulu olan əl işlərini, rəsmlərini öyrənməyin böyük əhəmiyyəti vardır. Bu münasibətlə uşaqlarla «Mən nəçi olmaq istəyirəm?», «Mənim dostum» və s. mövzularda söhbət etmək əhəmiyyətlidir. Uşaqların çəkdikləri rəsmləri, hazırladıqları əl işlərini öyrənmək uşaq haqqında müəyyən məlumat verə bilər.

Bağça sənədləri (qeyd dəftəri, hesabatlar, iş planları, şəxsi işlər, xarakteristika və s.) habelə təlim-tərbiyə işlərinin vəziyyəti, valideyn iclaslarının protokolları və s. haqqında müəyyən məlumatlar da uşaqları yaxşı öyrənməyə imkan verir.

Uşaqların yaradıçılıq səviyyəsini öyrənməkdə oyun və əmək prosesindən geniş istifadə olunur. Uşaqları tanımaq üçün hər bir uşağın fikir və iş məhsulu olan fərdi və kollektiv oyunlarda, əməkdə iştirakını, əməksevərlik hissini və s. öyrənməyin böyük əhəmiyyəti vardır.

Oyun uşaqların həyatında müstəsna əhəmiyyətə malikdir. O, uşağın fiziki inkişafına, sağlamlığına təsir edir, ona yoldaşlıq və dostluq, kollektivçilik, düzlük, doğruçuluq və s. kimi əxlaqi keyfiyyətlər aşılayır. Deməli, oyun uşaq həyatını qidalandırır, onu rəngarəng və maraqlı edir.

Uşaqlar rola asan daxil olur, müxtəlif şeylər uydurur, xəyala qapılırlar. Uşaq oyuna bəzən elə aludə olur ki, sanki o, oyunu həqiqətlə qarışdırır, özünü sürücü, kuklasının canlı qız olduğuna inanır.

Oyun məqsədə nail olmaq üçün mərkəzləşdirilmiş diqqət, təxəyyül, zirəklik, hazırcavablıq tələb edir. Kollektiv oyunlarda nitq, xüsusilə böyük əhəmiyyətə malikdir, burada söz, ünsiyyət, hərəkətlərin tənzimlənməsi oynayanlar arasında razılıq vasitəsidir. Oyun uşaqlarda kollektivçilik hissi tərbiyə edir.

Düzgün rəhbərlik nəticəsində uşaqlarda razılığa gəlməklə iş görmək bacarığı, tapşırılmış rolun ifası üçün məsuliyyət hissi tərbiyə edilir.

Tərbiyəçi oyun zamanı uşaqları doğrucul, sədaqətli, cəsarətli olmağa alışdırmaq üçün münasib fürsətdən istifadə etməlidir. Oyunda bu keyfiyyətlərin təzahürünü tələb edən çoxlu hallar olur. Bu zaman uşaqların fərdi xüsusiyyətləri özünü göstərir: eyni şəraitdə olan ayrı-ayrı uşaqlar özlərini müxtəlif cür aparırlar.

Görkəmli Azərbaycan pedaqoqu, prof. M.Muradxanov oyunu iki mənada qəbul etmiş və göstərmişdir ki, «birincisi, uşağın oyuncaqla və oyuncaqsız oyunla məşğul olması, ikincisi, uşağın bütün həyatının, işinin, təlimdən kənar bütün yaşayışının oyun şəklində təşkil edilməsidir».

Məktəbəqədər dövrdə uşaq vaxtının çox hissəsini oynamaqla keçirir, bəzən xırda vəzifələri (balıqlara yem vermək, oyuncaqları səliqəyə salmaq, müstəqil yemək və geyinmək və s.) yerinə yetirir. Bu işləri o, çox vaxt oynaya-oynaya görür.

Kiçik yaşlarında əməyə başladığı işi axıra çatdırmaq əzmi, mətinlik, dözümlülük, çətinliklərə qalib gəlmək kimi iradi keyfiyyətlər formalaşdırır. Uşaqlar ailədə və bağçada əməklə məşğul olmaqdan dərin həzz alır, tapşırılmış işi müstəqil icra etməyə, xüsusən ailənin yaşlı üzvlərinə, uşaq bağçasında xadimə və aşpaza kömək etməyə can atırlar.

Təcrübə göstərir ki, əməksevərlik hissini uşaqlar o vaxt dərk edirlər ki, o, digər hisslərin tərbiyəsi ilə sıx bağlı olsun. Belə ki, uşaqlarda bu hiss insanları sevmək, onlara hörmət göstərmək, xeyirxah olmaq, adamların hər cür əməyinə hörmət etmək, ana təbiəti, doğma xalqı, onun ənənələrini sevmək, kollektivdəki birgə əməkdən sevinmək və s. yüksək hisslərlə əlaqələndirilməlidir. Əmək tərbiyəsi uşaqların əxlaqi keyfiyyətləri ilə vəhdətdə formalaşdırılmalıdır. Əmək uşaqlarda həm də təvazökarlıq, səmimi olmaq, yoldaşa kömək etməyə səy göstərmək və s. keyfiyyətləri inkişaf etdirib möhkəmləndirir.

Məktəbəqədər yaşlı uşaqların əməksevərlik tərbiyəsində vərdişlərə asta yiyələnən, melanxolik, fleqmatik temperamentli uşaqlara daha çox qayğı və tələbkarlıqla yanaşmaq lazımdır. Belə uşaqlara vaxtında kömək göstərilməsə, onlarda öz qüvvələrinə yaranan inamsızlıq xarakterlərinə də mənfi təsir göstərər.

Əmək tərbiyəsində bütün uşaqlara fərdi yanaşmaq zəruridir. Xüsusilə o uşaqlara ki, onlar fiziki iş görmək istəmir, işi təkidlə rədd edirlər. Belələrinə uşaq kollektivinin təsirini təşkil etmək və onlar haqqında ümumi rəy yaratmaq vacibdir. Bakının 188 nömrəli uşaq bağçasının tərbiyəçisi Əhmədova Xatirə bu barədə danışarkən dedi: uşaqlardan Günel əmək tapşırığını tez-tez rədd edirdi, məcbur etdikdə işi könülsüz icra edir, onu vaxtında qurtarmağa və səliqəyə əhəmiyyət vermirdi. Bunu nəzərə alıb, Günelə təsir göstərmək üçün onun yoldaşlıq etdiyi Günaydan istifadə etməli oldum. Günelə məsləhət gördüm ki, oyun prosesində ondan nümunə götürsün. Belə qarşılıqlı kömək prosesində Günel fiziki işlə maraqlanmağa, verilən tapşırığı səliqəli icra etməyə başladı.

Uşaqlarda ayrı-ayrı əmək növlərinə də münasibət eyni olmur. Bəzi uşaqlar paltar yumağı, ikincilər yaşıllığa qulluq etməyi, üçüncülər isə yaşlılara kömək göstərməyi daha çox sevirlər. Əlbəttə, bu da təqdirəlayiqdir,

lakin belə uşaqlara iş tapşırılarkən əməyin rəngarəng olmasına fikir vermək lazımdır ki, uşaq kiçik yaşlardan əməyin bir neçə sahəsində işləmək bacarığına yiyələnsin. Xüsusilə çox asta işləyən uşaqlara diqqətlə yanaşmaq lazımdır. Belə uşaqlar elə kollektiv əmək sahəsinə cəlb etmək lazımdır ki, onlar yoldaşlarının təkidi ilə tədricən sürətlə işləməyə alışsınlar.

İstər fərdi qaydada, istərsə də kollektiv tərəfindən görülmüş hər bir iş tərbiyəçi tərəfindən yoxlanılıb qiymətləndirilməlidir. Uşaqları əməyə cəlb edərkən kollektiv fəaliyyətə üstünlük verilməlidir. Bunun yüksək tərbiyəvi əhəmiyyəti vardır. Yalnız kollektiv əmək prosesində uşaqlarda yüksək əxlaqi keyfiyyətlər formalaşır. Bütün bunlardan aydın olur ki, əmək prosesində uşaqlarda nəinki əməksevərlik kimi yüksək əxlaqi keyfiyyət yaranır, həm də başqa adamlara, xüsusən əmək adamlarına düzgün münasibət tərbiyə olunur ki, bu da əxlaq tərbiyəsində böyük əhəmiyyətə malikdir. Uşaqları öyrənmək üçün qrup jurnalı, təqvim iş planı, uşaqların əl işləri, rəsmləri və s. də kömək edə bilər. Bu sənədlər əsasında uşaqların oyun, əmək və məşğələlərdə müvəffəqiyyətləri haqqında geniş məlumat almaq olar.

## NİTQ İNKİŞAFI MƏŞĞƏLƏLƏRİNDƏ BÖYÜK MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNTELLEKTUAL FƏALLIĞININ TƏMİN OLUNMASI YOLLARI

**Maya KƏRİMOVA,**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dissertantı



Uşaq bağçasında təlim prosesi uşaqların hərtərəfli inkişafı və məktəb təliminə hazırlanması məqsədi daşıyır. Bu, təlim prosesində uşaqların idrak fəallığını təmin edən metod və priyomların tətbiqi ilə həyata keçirilir. Uşaqların məktəb təliminə hazırlanmaları onların müəyyən həcmdə bilik ehtiyatına yiyələnmələri ilə yanaşı, məktəb təliminin müvəffəqiyyətlə təşkili üçün zəruri təlim mexanizmlərinin – intellektual qabiliyyətlərin, əqli əməliyyatların formalaşdırılmasını da nəzərdə tutur.

Bununla belə, müasir təcrübənin təhlili göstərir ki, təlim prosesində uşaqların əqli fəallığının yüksəldilməsinə lazımınca diqqət yetirilmir. Buna səbəb, bəzi tərbiyəçilərin yuxarı məktəbəqədər yaşlı uşaqların dərketmə imkanlarını kifayət qədər qiymətləndirməmələri və problemin həllinə səhv yanaşmalarıdır. Onlar belə hesab edirlər ki, təlim öz-özlüyündə uşaqların həm biliklərə yiyələnmələrini, həm də əqli inkişafını təmin edəcəkdir. Digərləri düşünürlər ki, uşaqlarda intellektual qabiliyyətlərin formalaşdırılması uşaq bağçasının deyil, məktəbin vəzifəsidir. Nəticədə,

tərbiyəçilər məşğələnin proqram məzmununun müəyyənləşdirilməsinə, uşaqların əqli fəallığını təmin edə biləcək metod və priyomların seçilməsinə səthi yanaşırlar. Əksər hallarda onların məşğələləri yeksənəq olur, şablon xarakter daşıyır: mövzunun elan olunması, izah, nümunənin göstərilməsi, tərbiyəçinin uşaqlara ünvanladığı suallar. Bəzən suallar da düşünülməmiş və qeyri-dəqiq olduğundan uşaqların diqqətini cisim və hadisələrin əsas cəhətlərinə yönəltmir, onların idrak qabiliyyətlərini, marağını oyatmır. Plan tərtib edərkən əksər hallarda tərbiyəçilər «nəyi öyrədəcəklərini» qeyd etdikləri halda, «necə öyrədəcəklərinə» (metod və priyomlara) laqeyd qalırlar. Metodik yolların düzgün seçilməməsi məşğələnin rəngsiz və maraqsız keçməsinə səbəb olur. Belə məşğələlər isə uşaqların əqli fəallığının inkişafına qida vermir. Onlar müəyyən məlumatları formal yadda saxlayırlar. Uşaqların əqli fəallığının təmin olunması üçün tərbiyəçi onların fəal düşünmə qabiliyyətini stimullaşdıra biləcək metod və priyomlardan istifadə etməlidir. Tərbiyəçi öyrənilən cisim və hadisələr haqqında təsəvvürlərin dərk olunaraq mənimsənilməsini təmin etməyə çalışmalıdır. Bu zaman uşaqlarda bir sıra əqli proseslərin (müqayisə, təhlil-tərkib, ümumiləşdirmə), əqli fəaliyyətin sadə elementlərinin (anlayış, mühakimə, əqli nəticə) inkişafı üçün zəmin yaradır, alınmış ayrı-ayrı bilikləri ümumi sistemdə birləşdirməyə və bu əsasda bir sıra bacarıq və vərdişlərin formalaşdırılmasına kömək edir.

Məktəbəqədər təlimin metod və priyomlarını seçərkən, nəzərə almaq lazımdır ki, yeni materialın uşaq tərəfindən mənimsənilməsi fəal fəaliyyət prosesində baş verir. Tərbiyəçi hər bir məşğələdə qarşısına konkret təlim məqsədi qoymalı, ona nail olmaq üçün daha səmərəli metod və priyomlar axtarmalıdır.

L.V.Zankov «Didaktika və həyat» əsərində yazır: «Olduqca müxtəlif təlim vəzifələri ilə onlara uyğun seçilən təlim metodları arasında əlaqənin lazımınca qiymətləndirilməməsi təlimə ciddi ziyan vurur. Əgər dərzi nə tikəcəyini (şalvar yoxsa pencək) fərqləndirməsəydi və hər iki halda eyni priyomlardan istifadə etsəydi, onun əlindən pencək və ya şalvar deyil, naməlum bir obyekt çıxardı. Buna oxşar hadisə təlimdə də müşahidə olunur: təlim vəzifələrinin və onlarla öyrətmənin yolları arasında birbaşa əlaqənin müəyyənləşdirilməməsi ona gətirib çıxarır ki, sonda keyfiyyətli nəticə əldə olunmur»(4, səh. 101).

Təcrübə göstərir ki, məktəbəhazırlıq qrupunun tərbiyəçiləri təlim vəzifələrini əlverişli təlim metodları ilə əlaqələndirə bilmirlər. Adətən, onlar hər bir məşğələnin məqsədini proqram məzmununda qeyd edirlər ki, bu da əksər hallarda çox ümumi xarakter daşımaqla bərabər mövzuları fərqli olan məşğələlərə də (nitq və təfəkkürü inkişaf etdirmək, lüğət ehtiyatını zənginləşdirmək, uşaqların nitqini fəallaşdırmaq və s.) şamil edilə bilər. Halbuki, eyni mövzunun öyrədilməsi zamanı müxtəlif məqsədlər qoymaq və bundan asılı olaraq başqa-başqa metodlardan istifadə etmək mümkündür. Bunu uşaq bağçalarının məktəbəhazırlıq qruplarında eyni mövzu üzrə keçilmiş iki məşğələnin nümunəsi əsasında göstərməyə çalışacağıq.

Məşğələ zamanı tərbiyəçilər uşaqlara dovşanlar haqqında hekayə oxumalı idilər. Birinci tərbiyəçi məşğələnin məqsədini belə müəyyənləşdirdi: uşaqlara diqqətlə qulaq asmağı və suallara cavab verməyi öyrətmək lazımdır. Bu məqsədlə o, uşaqlara müraciət etdi:

– Uşaqlar, bu gün mən sizə dovşanlar haqqında hekayə oxuyacağam.

Hekayəni oxuduqdan sonra uşaqlarla aşağıdakı məzmunda müsahibə təşkil etdi:

– Uşaqlar, dovşanlar harada yaşayırlar? (meşədə)

– Dovşanın görünüşü necədir? (Dovşanın uzun qulaqları, balaca quyruğu var. Arxa ayaqları uzun olur. Boz kürkü onu soyuqdan qoruyur.)

– Qışda dovşanlar nə yeyirlər? (Torpağı eşib, kök, dirrikdə tökülmüş kələm qabığı və onun kökünü yeyirlər.)

– Dovşanlar özlərinə yuva düzəldirlərmi? (Yox, onların yuvaları olmur. Kolların arasında, harada gəldi gecələyirlər.)

– Uşaqlar, kim dovşanlar haqqında şeir bilir? (Uşaqlardan biri şeir söyləyir.)

– Uşaqlar, biz bu gün öyrəndik ki, dovşan qışı necə keçirir, nə yeyir, harda yaşayır.

Bu məşğələ nə məzmunu, nə məqsədi, nə də istifadə olunan təlim metodlarına görə əsaslı təlim-tərbiyə yükü daşımadığından uşaqların məktəbə hazırlanmalarında az əhəmiyyətlidir. O, orta qrupda aparılan məşğələ səviyyəsində təşkil olunmuşdur. Müsahibə zamanı tərbiyəçinin verdiyi suallar uşaqlarda əqli fəallığın oyanmasına, heyvanın həyatı haqqında biliklərin sistemləşdirilməsinə, ümumiləşdirilməsinə, hadisələr arasında sadə səbəb-nəticə münasibətlərinin açılmasına xidmət etmir.

Göründüyü kimi, bəzən tərbiyəçilər məktəbəhazırlıq qrupunda uşaqların dərketmə imkanlarını lazımınca qiymətləndirmir, materialı asanlaşdıraraq bəsit formada təqdim edirlər. Tərbiyəçi bəzən məşğələni çətinliyin nisbətən yüksək pilləsində təşkil etməkdən çəkinməməli, təlimin inkişafetdiricilik prinsipini yaddan çıxarmamalıdır. «Bu prinsip uşaqdan yeni materialı öyrənə bilmək üçün qüvvə sərf olunmasını, zehni fəaliyyətini mövcud həddən bir az qabağa apara bilməsini, obyektiv inkişaf zonasından yaxın inkişaf zonasına keçməsini tələb edir. Bu, məktəbəqədər yaşlı uşaqların məktəb təlimi zamanı gərgin zehni fəaliyyətə hazırlığında mühüm əhəmiyyət kəsb edir» (2, 96-97).

Eyni mövzu üzrə ikinci məşğələnin müvəffəqiyyəti tərbiyəçinin məşğələyə ciddi hazırlığından qaynaqlanır. Məşğələnin mövzusunu müəyyənləşdirdikdən sonra tərbiyəçi qarşıya konkret vəzifələr qoyur:

- uşaqların dovşanlar haqqında biliklərini (görünüşü, yaşayış tərzi, qidalanması, hərəkəti, qorunması, çoxalması və s.) müəyyənləşdirmək və sistemləşdirmək;

• uşaqların cümlə qurmaq bacarığını və rabitəli nitqini inkişaf etdirmək məqsədilə onlara tərbiyəçinin verdiyi suallar və ya plan əsasında dovşan haqqında hekayə qurmağı təklif etmək;
• uşaqlara tərbiyəçini, yoldaşlarını dinləyə bilmək, qoyulmuş suallara cavab vermək, fəal olmaq, tərbiyəçinin icazəsi və müraciəti ilə danışmaq və s. bacarıqlar aşılamaq;
• heyvanlara məhəbbət tərbiyə etmək.
Tərbiyəçi qoyduğu təlim və tərbiyə məqsədlərinə uyğun olaraq:
• müsahibə üçün faktik material toplayır;
• suallarını dəqiqləşdirir;
• çıxaracağı yekun nəticə üzərində düşünür;
• məşğələnin quruluşunu müəyyənləşdirir;
• təlim metodları və priyomlarını düşünür;
• əyani və texniki vəsait hazırlayır.

Digər tərbiyəçidən fərqli olaraq o, məşğələyə ümumi məqsədin qoyulması və giriş müsahibəsi ilə başlayır:

– Uşaqlar, bu gün biz dovşanlar haqqında danışacağıq.Siz dovşanlar haqqında çox şey bilirsiniz: Axı siz dovşanları meşədə, heyvanxanada görmüsünüz, canlı guşədə onlara qulluq etmisiniz, onlar haqqında diafilmə, şəkillər və illüstrasiyalara baxmısınız, hekayələrə qulaq asmısınız, şeirlər əzbərləmisiniz. Uşaqlar, kim dovşanın xarici görünüşü haqqında danışar?

Tərbiyəçi uşaqlara yönəldici suallar verir:

– Dovşan böyükdür, yoxsa kiçik? Onun kürkü nə rəngdədir? Quyruğu, qulaqları, ayaqları necədir? Harada yaşayır?

Uşaqlardan biri cavab verir:

– Dovşan balaca heyvandır.O, meşədə yaşayır. Canlı guşədə də yaşaya bilir. Onun tükləri yumşaq, quyruğu balaca, qulaqları uzundur. Gözləri müncüğa oxşayır. Arxa ayaqları uzun, qabaq ayaqları isə qısadır.

– Uşaqlar, görəsən isti kürk dovşanın nəyinə lazımdır?

– İsti kürk ona görə lazımdır ki, qışda üşüməsin. Qışda dovşanın kürkü ağ rəngdə olur və o, qardan seçilmir. Yayda ağ tüklər tökülür, boz tüklə əvəz olunur və dovşan torpaqdan seçilmir.

– Uşaqlar, sizcə dovşanın kürkünün rəngi niyə dəyişir? Nə üçün qışda ağ, yayda isə boz olur?

– Bu, düşmənlərindən gizlənməkdə dovşana kömək edir.

– Düşmənlərindən qorunmaqda daha nə dovşana kömək edir?

– Dovşanın ayaqları düşməndən cəld qaçmağa imkan verir.

– Uşaqlar, bəs dovşan nə ilə qidalanır?

– Dovşan kələm, kök, ot yeyir. Yayda yem tapmaqda çətinlik çəkmir. Axı hər tərəf otdur, tərəvəzdir.

– Dovşan qış üçün azuqə toplayırmı?
– Yox.
– Bəs dovşan qışda nə yeyir?
– Qışda o yem tapmaqda çətinlik çəkir.Pəncələri ilə qarı eşib torpağa çatır, yaşıl dən, tərəvəz kökü tapıb yeyir. Bostana girib, kələmin kötüyünü gəmirir, quru ot yeyir. Heç bir şey tapmadıqda isə ya ağacın kiçik budaqlarını, ya da gövdəsinin qabığını gəmirir.
– Uşaqlar, dovşan özünə yuva düzəldirmi?
– Dovşan özünə yuva düzəltmir. Gündüzlər kolun altına girib yatır, gün batandan sonra oyanıb uzun qulaqlarını şəkləyir, hər tərəfdə sakitlik olduğuna əmin olduqdan sonra kiçik pəncələri ilə üzünə sığal çəkir, («əl-üzünü yuyur») və yem axtarmağa gedir.
– Uşaqlar, dovşanın düşmənləri kimlərdir?
– Dovşanın düşməni çoxdur: ovçu, tülkü, canavar, bayquş, qartal. Onlar dovşan ətini sevirlər.
– İndi mən sizə dovşanlar haqqında yeni bir hekayə oxuyacağam.
Tərbiyəçinin oxuduğu hekayədə uşaqlar dovşanların balalaması haqqında məlumat əldə edirlər.
– Uşaqlar, dovşanlar nə zaman balalayırlar? (Yazda)
– Onların neçə balası olur? (2-3, hətta 4)
– Ana dovşan balalarına necə qulluq edir?
– Ana dovşan balalarının qayğısına az qalır, onlara bir az süd verib qaçır, amma dovşanlar arasında belə bir qayda var: ana dovşanlar bütün balalara analıq edirlər.
– Kim dovşan haqqında şeir söyləyər? (söyləyirlər)
– Uşaqlar, gəlin indi dovşanlar haqqında özümüz hekayə qurub danışaq. Dovşanların görünüşü necədir? Necə balalayırlar? Onlar nə ilə qidalanırlar? Başqa heyvanlardan necə qorunurlar?
Uşaqlar hekayə qurub nəql edirlər.
– Uşaqlar, siz dovşanlar haqqında yaxşı danışdınız, gözəl məlumat verdiniz, lakin heç kim dovşanların insanlara olan xeyirindən danışmadı. (Özü danışır)
– Bəs digər heyvanlar qışa necə uyğunlaşırlar?
– Ayı öz mağarasına, kirpi də yuvasına girib qış yuxusuna gedir. Qurbağalar bataqlıqdakı lilin içinə girib yatırlar. Onlara yem lazım olmur.
Bu məşğələ uşaqların böyük marağına səbəb oldu.
Təhlil olunmuş məşğələlər belə bir qənaətə gəlməyə imkan verir ki, məktəbəhazırlıq qrupunda bağça və məktəb təlimi elementlərini uyğunlaşdırmaq, uşaqların əqli fəallığını mümkün qədər yüksəltmək, onlara təlim vərdişləri aşılamaq lazımdır. Məhz məktəbəhazırlıq qrupunda uşaq elmi biliklərin əsasında dura biləcək ilkin biliklərə yiyələnməlidir.

Uşaqların əqli fəallığının təmin olunmasının vacib şərtlərindən biri də onların yaşına və gücünə müvafiq məntiqi tapşırıqların (çalışmaların) seçilməsidir. Bu çalışmaları yerinə yetirmək üçün uşaqlar mövcud bilik ehtiyatına müraciət etməyi, artıq onlara məlum olanlar əsasında məchulu tapmağı öyrənməlidirlər. Biliklərə istinad etmədən hər hansı bir tapşırığın yerinə yetirilməsindən və sözsüz ki, əqli fəallıq və fəaliyyətdən söhbət gedə bilməz. A.A. Lyublinskaya qeyd edir ki, biliksiz təfəkkür mövcud ola bilməz, çünki təfəkkür prosesi mövcud biliklər üzərində aparılan fikri əməliyyatlardır, yeni tapşırığın yerinə yetirilməsində onlardan istifadədir. Əqli fəaliyyət o zaman yaranır ki, qarşıya qoyulmuş tapşırıq uşaqdan bilikləri bir də nəzərdən keçirməyi, konkret vəziyyətdə onlardan istifadə olunmasını tələb etsin. O yerdə ki, «baş sındırmaq» yoxdur, məsələnin həlli üçün heç bir güc sərf olunmur, heç bir axtarış, əqli gərginlik mövcud deyil, orada təfəkkür də yoxdur (5, 252-254). Bu məqsədlə tərbiyəçi nitq inkişafı məşğələlərində lüğət-məntiqi çalışmaların müxtəlif növlərindən istifadə edə bilər:

1) Əşyanı müşahidə prosesində onun əlamətləri sadalanır. Alma necədir? – turşdur (şirindir), qırmızıdır (göydür), yumrudur (uzunsovdur), bərkdir (yumşaqdır) və s.

2) Əşyalar müəyyən əlamətinə görə qruplaşdırılır. (Nə şirindir? – üzüm, tut, əncir, ərik, armud və s.)

3) Növlər cinsə görə qruplaşdırılır. (*Qovaq, vələs, palıd, cökə meşə ağaclarıdır. Ayı, canavar, tülkü, pələng* yırtıcı heyvanlardır).

4) Əşya tərkib hissələrinə ayrılır. (Ağac şəklinə baxaraq uşaq onun hissələrini sadalayır: gövdə, budaq, kök, meyvə, yarpaq və s.)

5) Əşyalar yerinə görə qruplaşdırılır. (Dirrikdə nələr bitir? Bostanda nələr bitir? Tarlada nələr bitir? və s.)

6) Uşaqlar sadalanan sözlərdən eyni qrupa aid olmayanları seçib ayırırlar. (*İnək, dana, camış, at, ayı* sözlərindən ev heyvanı olmayanı seçirlər və s.)

Tərbiyəçi uşaqların əqli fəallığını yüksəltmək üçün bir sıra (müqayisə, problem situasiyanın qoyuluşu, suallar, sadə təcrübə və s.) priyomlardan istifadə etməlidir.

«Nitq inkişafı üzrə iş prosesində ən çox istifadə olunan priyom müqayisədir. Səs mədəniyyətinin inkişafı, lüğət üzrə iş və digər işlər prosesində tərbiyəçi tez-tez müqayisə priyomuna, oxşar fonem, söz, qrammatik hadisənin fərqləndirilməsinə müraciət etməli olur» (1, 30).

Problem situasiya yaratmaq üçün tərbiyəçi:

- Uşaqların qarşısına konkret və dəqiq sual qoymalıdır.
- Cavabın tapılması üçün yol göstərməlidir.
- Uşaqları keçmiş bilik və təcrübələrinə istinadən müstəqil axtarışa sövq etməlidir.

- Uşaqlara hazır cavab nümunəsi verməyə tələsməməli, onların müstəqil düşünmələri üçün şərait yaratmalıdır.
- Uşaqlarda verdikləri cavabı əsaslandırmaq bacarığı formalaşdırmalıdır.
- Öz nəticə və mülahizələrini yoxlamaları üçün imkan yaratmalıdır.

Tərbiyəçi uşaqlara «Kənddə» şəklini nəzərdən keçirməyi və suallar əsasında hekayə qurmağı tapşırır. Uşaqlar işin öhdəsindən gəldikdən sonra tərbiyəçi belə bir sual qoyur: «Əgər bu şəkil «Şəhərdə» adlansa idi, necə hekayə qurardınız?» Belə problemli sualın belə qoyuluşu uşaqları müstəqil düşünməyə, şəhər və kəndin spesifik xüsusiyyətlərini yada salmağa, müqayisə aparmağa, qarşılaşdırmağa vadar edir. Uşaqların yaradıcı təfəkkürü fəaliyyət göstərir, rabitəli nitqi inkişaf edir.

Təlim prosesində tərbiyəçi uşaqların əqli fəallığını artırmaq məqsədilə müxtəlif növ suallardan istifadə edir. Onların bir qismi uşaqların müxtəlif yollarla öyrəndiklərini yada salmaq məqsədilə istifadə olunursa («Uşaqlar, bu ağacın adı nə idi?»), digər qismi uşaqların təfəkkürünü məşq etdirir. Uşaqlar mövcüd təcrübə və biliklərinə istinad edərək düşünür, təhlil edir və müəyyən əqli nəticəyə gəlirlər. Bu gün təlim prosesinin təhlili göstərir ki, tərbiyəçilər məşğələlərdə, əsasən, birinci kateqoriyadan olan suallara daha çox üstünlük verirlər: müxtəlif mövzularda təşkil olunmuş müsahibələr zamanı tərbiyəçilər uşaqları hadisələrin mahiyyətini, onların arasında mövcud olan səbəb-nəticə münasibətlərini dərk etməyə deyil, əsasən, gördüklərini və ya onlara oxunan hekayələrdən öyrəndiklərini yada salmağa sövq edən suallar işlədirlər. Tərbiyəçilərin əksəriyyəti təlim priyomu kimi sualların əhəmiyyətini lazımınca qiymətləndirmir. Halbuki funksiyasına görə müxtəlif suallardan istifadə etməklə uşaqların təfəkkürünü fəallaşdırmaq, onların sadə məntiqi mühakimələr yürütmələrinə müvəffəq olmaq mümkündür.

Nitq inkişafı məşğələlərində müasir təlim texnologiyalarından, o cümlədən təlimin texniki vasitələrindən geniş istifadə olunması da uşaqların idrak fəallığının yüksəldilməsində səmərəli yollardandır. Nitqin səs mədəniyyəti və ədəbi tələffüz üzrə aparılan işlərdə maqnitofon yazıları, lüğət üzrə görüləcək işlərdə vizual vasitələr, rabitəli nitqin inkişafında akustik-vizual vasitələrin təlim imkanları genişdir. Burada başlıca məsələ tərbiyəçinin istifadə etdiyi vəsaitə maraq və motivləşmə meyllərini yarada bilməsi, vəsaitin təlim imkanlarını düzgün qiymətləndirməsidir.

Təlim prosesində tərbiyəçi tərəfindən düzgün seçilmiş metod və priyomlar növbəti təhsil pilləsində müvəffəqiyyətli təlimə hazırlığın əsasını təşkil edir.

# ŞAGİRDLƏRDƏ DÖVLƏT RƏMZLƏRİNƏ HÖRMƏT TƏRBİYƏSİ

**Səkinə İSMAYILOVA,**
Nizami royonu Namiq Həmzəyev adına
238 nömrəli məktəbin müəllimi




**Standartlar:**

2.3.1. Azərbaycan Respublikasının Dövlət Rəmzlərini sadalayır.

2.3.2. Azərbaycan Respublikasının Dövlət Bayrağını təsvir edir.

2.3.3. Azərbaycan Respublikasının Dövlət Himnini oxuyur.

**Məqsəd:**

– Azərbaycan Respublikasının Dövlət Rəmzlərini tanıtmaq;
– Azərbaycan Respublikasının Dövlət Bayrağını təsvir etdirmək;
– Azərbaycan Respublikasının Dövlət Himnini oxutmaq;
– Azərbaycan Respublikasının Dövlət Rəmzlərinə hörmət etmək;

**İnteqrasiya:**

*Musiqi:* 3.1.1. Öyrənmək məqsədilə müəllimin oxuduğu nümunələri təkrar edir.

*Ana dili:* 1.2.1. Müşahidə etdikləri, eşitdikləri, oxuduqları hadisələr haqqında kiçik təqdimatlar edir.

4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir.

*Riyaziyyat:* 3.1.1. Ətraf aləmdə rast gəldiyi əşyaları əlamətlərinə ( ölçüsünə, formasına, rənginə) görə fərqləndirir.

*Təsviri incəsənət;* 2.2.4. Əsas rəngləri tanıyır və onları sadalayir.

2.2.5. Sadə və rəngli karandaşlarla səthi təsvir yaradır.

*Texnologiya:* 1.3.2. Detalları birləşdirməklə sadə məmulat hazırlayır.

**İş forması:** Böyük və kiçik qruplarla iş.

**İş metodları və priyomları:** müsahibə, müzakirə, beyin həmləsi.

**Resurslar:** Dərslik, işçi vərəqləri, xəritə, video material, proyektor, kompyuter, slaydlar, qiymətləndirmə cədvəli, rəngli karandaşlar, yapışqan, qayçı, rəğbətləndirmə kartları və s.

**Dərsin tipi: induktiv**

**Dərsin gedişi:**

**Motivasiya (7 dəq)**

Azərbaycanın Dövlət Himni səslənir. Şagirdlər himni oxuyurlar. (slaydlar)

Frontal sorğu apararaq aşağıdakı sualları verirəm.

–Eşitdiyiniz bu musiqi necə adlanır?

– Azərbaycanın Dövlət Himni.

– Azərbaycanın Dövlət Himni dövlətimizin nəyi hesab olunur?

–Dövlət rəmzi.

–Daha hansı dövlət rəmzlərini tanıyırsınız?

– Dövlət bayrağı, dövlət gerbi.

– Himnimiz səslənəndə hamımız ayağa qalxdıq. Başqa musiqilər səslənəndə ayağa qalxırıqmı?

– Xeyr.

**Tədqiqat sualı:**

– Niyə himnimiz səslənəndə ayağa qalxırıq?

Şagirdlər mümkün cavabları verirlər. *Hörmət* sözünü aldıqdan sonra dərsin mövzusunu elan edirəm.

**Dərsimizin mövzusu:** «Azərbaycanın Dövlət rəmzlərinə hörmət borcumuzdur.»

Kompyuter slaydlarında yerləşdirilmiş ən əsas hissələr (şəkillər) uşaqlarla birlikdə müzakirə olunur.

– Açın kitablarınızı. 32-33-cü səhifədəki şəkillərə diqqətlə baxın.

İndi hamının diqqəti ekrana yönəlsin.

Bu şəkildə nə görürsünüz? (slayd)



– Azərbaycan Dövlət Gerbi.

– Azərbaycan Dövlət Bayrağı;

– Azərbaycan əsgəri;

– Azərbaycan Dövlətinin Prezidenti cənab İ. Əliyev.

Prezident nə edir?

– Bayrağımızı öpüb and içir.

– Bayrağımız dövlətimizin rəmzi prezident də onun qarşısında diz çöküb and içir. Prezidentimiz Dövlət Rəmzlərinə hörmət əlaməti olaraq 2007-ci il noyabrın 17-də sərəncam vermişdir. Sərəncamda deyilir:

«Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinin Bayıl qəsəbəsində «Dövlət Bayrağı» meydanı yaradılsın.»



Bayrağın uzunluğu 70, eni isə 35metrdir. Ümumi hündürlüyü 162metr, çəkisi isə 250 kiloqramdır. Bu ölçüdə bayraq dünyanın heç bir ölkəsində yoxdur.

- Burada söhbət kimlərdən gedir? (slayd)

– Əsgərlərdən.
– Əsgərlər nə edirlər?
– Azərbaycan bayrağı qarşısında and içirlər.
Görəsən, əsgərlər nəyə and içirlər?
– vətənimizi qorumağa;
– torpağımızı qorumağa;
– bizi qorumağa və s.



Doğrudur, əsgərlər vətənimizi, torpaqlarımızı, müstəqilliyimizi qorumağa and içirlər. Binanın qarşısında nə görürsünüz?
– bayraqlar.
Müəllim:
– Burada müxtəlif dövlətlərin bayraqları dalğalanır. Hər dövlətin bayrağı onun şərəfidir. Xalqımıza şərəf gətirən bu işdə ulu öndər Heydər babanın böyük xidməti var. Onun sayəsində bütün dövlətlər Azərbaycan Respublikasının bayrağını tanıyır və hörmət edir. Biz də öz bayrağımızı dünya dövlətlərinin bayraqları arasında görəndə qürur hissi keçiririk.
Bəs bu şəkildə nə görürsünüz?
– gerb və məktəbli qızı:
– Qız gerbimizə baxıb hansı hissi keçirir?
– sevinc hissi.



Düz deyirsiniz, qız deyir ki, gerbimizi görəndə sevinirəm.
Növbəti təsvirdə nə göstərilib?
– məktəbli oğlan və bayrağımızı. Bu da bizim hər gün oxuduğumuz
Dövlət Himninin mətnidir.
– Sizcə bu şagirdlər nə edirlər?
–Müəllimləri ilə birlikdə Dövlət Himnini oxuyurlar.
Uşaqlar gerbimizi görəndə duyğulandıq, bayrağımıza baxanda qürurlandıq, himnimizi oxuduqda vətənimizi alqışladıq, çünki bunlar vətənimizin azadlığının, müstəqilliyinin rəmzləridir. Bu yolda minlərlə soydaşımız canını qurban vermiş, şəhid olmuşlar. Qürur mənbəyimiz olan dövlət rəmzlərimizi həmişə başımızdan uca tutmalı və onlara hörmət etməliyik. Vətənini sevən hər kəs onun rəmzlərinə hörmətlə yanaşmalıdır.

**Tədqiqatın aparılması (10 dəq.)**

Gəlin öyrəndiklərimizi qruplarla işlə davam etdirək. Bunun üçün qruplara bölünək.
5 nəfərdən ibarət 4 qrup təşkil edilir. Qruplar adlandırılır: Hər qrupa adını daşıdığı rəmzlərin simvollarını əks etdirən şəkillər paylanır.




Liderlərə dərsin sonunda qrup yoldaşlarını qiymətləndirmələrini tapşırıram. Qrupda işçi qaydalarını və verilmiş vaxtı şagirdlərə xatırladıram.

İşçi vərəqləri paylanır. Hər qrupa qısaca izahat verirəm. (Hərfləri tam keçmədiyimiz üçün). Qruplar işləyərkən Ş. Əlizamanlının «And içirik» mahnısını səsləndirirəm.

**Məlumat mübadiləsi (15 dəq.)**

Qruplar öz işini təqdim edirlər. (slaydlar)













Cavablar animasiyalı slaydlar vasitəsilə ekranda göstərilməklə təsdiq olunur.

Qruplar arasında məlumat mübadiləsi aparılır. Onlar bir-birinə suallar verir? əlavələr edirlər. Qrupları gördükləri işə görə özüm rəğbətləndirirəm.

Şagirdlər venn dioqramından istifadə edərək gerb və bayrağımızın fərqli və oxşar cəhətlərini tapırlar.




## QİYMƏTLƏNDİRMƏ

Müəllim şagirdlərin qrupda işləmək bacarığını şərti işarələrlə qiymətləndirir.

| Şərti işarələr / Meyarlar | ★ | ■ | ▲ |
|---|---|---|---|
| Qrupda şifahi mövzuda iştirak edir. | | | |
| Başqalarının sözünü kəsmədən dinləyir. | | | |
| Qrupun işi üçün zəruri olan tapşırıqları yerinə yetirir. | | | |
| Qrupun digər üzvlərini ümumi işə cəlb edir. | | | |

★ (əla)

■ (yaxşı)

▲ (kafi

Sonda çox ulduz alan qrup qalib hesab olunur və alqışlanır.
–İdmançıların şərəfinə nə zaman bayraq qaldırılır?
– Yarışda qalib gələndə.
–Hansı idmançılarımızı tanıyırsınız?
–Elnur Məmmədli, Fərid Mansurov, Elmar Qasımov və b.
–Elmar Qasımovun qələbəsini xüsusi vurğulayıram. Ermənistanın paytaxtı İrəvan şəhərində 2009-cu il sentyabrın 13-də keçirilən «Qitə» çempionatında Elmar Qasımov rəqibini məğlub edərək üçrəngli bayrağımızı bədxah qonşularımızın gözü qarşısında dalğalandırıb. Himnimiz səslənəndə nankor qonşularımız beynəlxalq hüquq çərçivəsində məcbur oldular ki, qələbəmizi ayaq üstə qarşılasınlar.
**İdman dəqiqəsi** keçirirəm (2dəq.) (slayd musiqi ilə)




**Yaradıcı tətbiqetmə** (5 dəq)
Slaydlarda 2 şəkil nümayiş etdirilir. I şəkildə çevrilmiş bayraq və 2 uşaq təsvir olunur. (animasiyalı)
- Ekranda nə gördünüz?







- Uşaqlar nə etdilər?
- Sizcə hansı uşaq doğru hərəkət etdi?

Müxtəlif cavablar.
- Çevilmiş bayrağı düzəltmək lazımdır. Bayraq müqəddəs və toxunulmazdır. Rəmzlərimizə hörmət etməliyik.

İkinci şəkildə gerb göstərilir.







– Gerbin üzərində hansı simvollar çatmır?

Dolğun, səlis cavab verən uşaqları bayrağın qarşısına çıxarıram. Bu, onlar üçün ən böyük mükafatdır.
**Yoxlama testləri** (slaydlarla)

# YOXLAMA TESTLƏRİ

**1. Azərbaycan Respublikasının bayrağı neçə rəngdir?**
**A) 2 B) 3 C) 4**

**1. Azərbaycan Respublikasının bayrağındakı ulduz neçə guşəlidir?**
**A) 5 B) 5 C) 8**

**1. Ölkəmizin bayrağında ulduzdan başqa nəyin təsviri var,?**
**A) Günəşin B) Ayın**
**C) Palıd budağının**

**4. Bayrağımızda hansı rəng müasirliyi ifadə edir?**
**A) Məvi B) Qırmızı C) Yaşıl**

NƏTİCƏ (6dəq.)
– Biz bu gün nəyi öyrəndik?
– Hansı Dövlət rəmzlərini tanıdıq?
– Nə üçün Azərbaycan Dövlət rəmzlərinə hörmət etməliyik?
– Dövlət rəmzlərimiz haqqında kim şeir söyləyər?

***Gerbim, himnim, bayrağım***

I uşaq: Sərvətimdi, varımdı,
Yenilməz vüqarımdı,
Andım, iftixarımdı
Gerbim, himnim, bayrağım.
II uşaq: Sinəmdəki bu həvəs,
Şəhid qanına əvəz.
Aləmə salıbdı səs
Gerbim, himnim, bayrağım.
III uşaq: Kəpəzdi, Savalandı,
Ürəyimdəki qandı,
Anam Azərbaycandı
Gerbim, himnim, bayrağım.

Uşaqlar, mən bu gün sizinlə bir daha fəxr etdim. Siz vətənimizə, onun rəmzlərinə olan sevginizi, hörmətinizi çox gözəl nümayiş etdirdiniz. Vətənin qüdrətli olması üçün onun sizin kimi savadlı övladları olmalıdır.

Bayrağımızı ucaltmaq bizim ən böyük amalımız olmalıdır. Ta qədimdən xalqımız hücuma keçərkən bayrağı öndə aparmış, onun yerə enməsinə yol verməmişlər. Çox təəssüflər olsun ki, bu gün biz bayrağımızı vətənimizin bəzi yerlərində dalğalandıra, himnimizi oxuya bilmirik. Görəsən ora haradır?




–Qarabağ (slaydlar)

Bəli, bu gün Azərbaycanın ən böyük dərdi Qarabağdır. Bu dərdin dərmanı azadlıqdır. Tezliklə möhtərəm prezidentimiz cənab İlham Əliyevin başçılığı və xalqımızın birliyi sayəsində torpaqlarımız geri qaytarılacaq.

Biz sülh tərəfdarıyıq amma Ulu Öndərimiz Heydər Əliyev dediyi kimi «Əgər torpaqlarımız sülh yolu ilə alınmasa Milli Ordumuzun köməyi ilə vətənimizi düşmən tapdağından azad edəcəyik»




Uşaqlar, vətənimiz və onun rəmzləri, ulu babalarımızın, şəhidlərimizin müqəddəs ruhu qarşısında mənə söz verin. Söz verin ki, Ulu Öndər Heydər Babanın bizə yadigar qoyduğu müstəqil Azərbaycanı və onun rəmzlərini göz bəbəyi kimi qoruyacaqsınız!

Söz verin ki, üçrəngli bayrağımızın vətən göylərindən enməsinə yol verməyəcəksiniz! Söz verin ki, bir qarış vətən torpağını düşmən tapdağı altında qoymayacaqsınız!



- Söz veririk, söz veririk, söz veririk!!!

Videomaterial: Z. Xanbabayevin oxuduğu «Azərbaycan» mahnısının bir hissəsindən sonra dərsi başa çatdırıram. (slaydlar)

# ИЗ ОПЫТА РАБОТЫ ПО ИСПОЛЬЗОВАНИЮ ИНТЕРАКТИВНОГО МЕТОДА ОБУЧЕНИЯ УЧАЩИХСЯ ВТОРОГО КЛАССА СЛОВАМ С ДВОЙНЫМИ СОГЛАСНЫМИ

**Хадиджа АЗИМОВА,**
Учительница ленкоранской городской школы-лицея гуманитарного уклона номер 4

В программе русского языка второго класса для изучения слов с двойными согласными выделено 2 часа. На эту тему в учебнике имеется достаточное количество материалов.

Тема урока: «Двойные согласные»

Цель урока: Продолжить знакомство учащихся с написанием слов с двойными согласными в корне слова и повторить изученное.

Закрепить умение учащихся переносить слова с двойными согласными с одной строки на другую.

Обогащать словарный запас учащихся, развивать речь. Развивать интерес у детей к русскому языку, применяя различные формы работы.

Тип урока: Повторение изученного по теме.

Оборудование: ушебник, раздаточный материал, компьютер, э проектор.

Ход урока

Организационный момент: класс (24 человека) делится на 4 команды по 6 человек. Каждая из команд даёт себе второе название- слово с двойной согласной, соответствующее их первому названию.

Ы команда «Математика»-«Тонн»

ЫЫ команда «Русский язык»-«Грамматика»

ЫЫЫ команда «Рисование»-«Иллюстрация»

ЫV команда «Чтение»-«Рассказ»

Мотивация.

Учитель: Напишите каллиграфически верно те буквы, которые надо запомнить в следующих словах- оттадках.

Старайтесь соблюдат правильные соединения букв.

Каллиграфия – искусство четкого и красивого письма.

Kallos – от греческого «красивый», granho - «пишу».

Где доска и парты есть,
чтоб всем детям сразу есть?
Это в школе есть у нас,
это наш просторный …




Вдоль дороги по бокам липы, клёны тут и там. Всем идти здесь веселее. Этот путь зовут




Основная единица массы в Международной




Простудился я вчера, голова болит с утра, я закашлялся, охрип.




Братьев этих ровно 7.
Вам они известны всем.




Многим нам она знакома,
В ней купаться можно дома.
Что же это за предмет?
Догадались или нет?



cc mm nn …

□ (Полученная запись в тетрадях детей .)

Учитель: - Вы ,наверное, уже догадались о чем пойдет речь сегодня на уроке?

Ученик : - О словах с двойными согласными.

Учитель:-Правильно, мы сегодня повторим тему «Двойные согласные».Тема нашего урока так и называется …

**«Двойные согласные» или «Удвоенные согласные»**



Можно ли проверить написание удвоенной сог-ласной буквы в корне слова, подобрав к нему проверочное слово?

Как переносятся слова с удвоенной согласной?

Ученик: -Нет. Писмо слов с удвоенной согласной нужно запомнить. Например: коллекция, касса, группа.

Ученик: -При переносе слов с двойными согласными одну букву оставляют на строке, а другую переносят. Например: кол-лектив, комис-сия, мас-са.

Проверка домашнего задания.

Творческая работа

Учитель : Ребята, вам следует представить себя корреспондентом и написать заметку в школьную газету на любую из тем: «Субботник в школе», «Новости нашего класса», «Как предохранить себя от гриппа». К тексту можно нарисовать иллюстрацию.

Давайте посмотрим , что у вас получилось.

Несколько учеников читают.

Учитель :- Спасибо, ребята, за замечательные миниатюрные сочинения! Вы использовали все свои знания, полученные на уроках русского языка, познания мира, рисования, и дали нам очень интересную информацию.

А теперь откроем в учебнике страницу 75 и выпомним упражнение №194.

Прочитайте условие упражнения .

Учебник, стр. 75, упр. №194.

*Прочитай. Спиши. Подчеркни слова с двойными согласными.*

Па*сс*ажиры на пе***рр***оне
Ожидают свой экспре*сс*
В долгожда***нн***ую су***бб***оту

Все спешат умчаться в лес.

После выполнения задания, учащиеся читают вслух слова, которые они выделили. Слова записываются мной на доске и проверяются. Дети сравнивают записи и исправляют свои ошибки.

Учитель : - Ребята, а вам нравится путешествовать? Давайте поплывём с вами на нашем корабле по океану «Орфография» и побываем на острове «Двойные согласные». А капитаном нашего корабля будет ваш любимый герой …




Учащиеся: -Чиполлино!

Учитель: Верно, ребята, это Чиполлино в слове Чиполлино тоже есть удвоенная согласная. Вот почему он согласился стать капитаном нашего корабля. А еще он хочет навестить своего друга Рикки-Тикки Тави.

Внимание на экран. Тут вы видите наш маршрут. Ребята, мы поплывём мимо острова «Сочетания жи, ши» и «Сочетание ча, ща, чу, щу»







- Учитель: -Наш кораблик плывёт мимо острова «Сочетания жи , ши». Давайте задержимся тут на 3-4 минуты, вспомним правило этого острова и выполним задание , которое называется «Три из пяти».

У вас на партах конверт с рисунком морской звезды. В нем пять слов. Три из пяти слов относятся к этой орфограмме. Найдите их. Как я вам уже сказала ,мы задержимся тут на 3-4 минуты. Поспешите.

(Я написала каждое слово на отдельную цветную карточку . Верные ответы в красных, синих, зелёных карточках .После выполнения работы, лидеры каждой группы собирают карточки и выходят к доске).

Я сообщаю ребятам , что верные ответы были в зелёных, красных и синих карточках. Так ученики сами смогут анализировать и оценивать свои работы. А потом карточки вывешиваются на доске, соответственно по цветам флага нашей Республики

На доске таблица для оценивания ,где ставятся оценки каждой группе к выполненным заданиям.

| Гуппы тонн | Задание **«Три из пяти»** | Задиние **«СОС»** | Задиние **«В гостях»** | Баллы |
|---|---|---|---|---|
| Грамматика | | | | |
| Иллюстрация | | | | |
| Рассказ | | | | |

Учитель: -Отлично, ребята ! Поплывём дальше.

На горизонте остров «Сочетания ча,ща,чу,щу».




– Но что случилось?! Нам с острова подают сигнал «SOS». На этом острове эпидемия, здесь заболели слова. Какое правило нужно знать, чтобы помочь им?

Ученик :- Звуки [ч`], [щ`] -мягкие, но в сочетании ча, ща пишется буква «а».

– В сочетании чу , щу пишется буква «у»

Учитель :-Правильно, ребята. Но этого недостаточно, чтобы помочь им. У вас на партах конверт с рисунком пальмы . В конвертах карточки со словами, в правописаниях которых допущены ошибки. Найдите и исправьте их. На это задание я вам даю 4 минуты

Задания вывешиваются на доске ,проверяются и оцениваются

Учитель :- Внимание на экран.

– Ура! На горизонте остров «Двойные согласные»



– Посмотрите , ребята, кто нас встречает?

Ученик: - Бегемот.

Учитель: - Верно. Но как по другому называется это животное?

Ученик: - Гиппопотам.

Учитель: - Верно. В слове «гиппопотам» -двойная согласная «*пп*»







Учитель: - Вы, наверное, заметили слова с удвоенными согласными в этом тексте. Давайте прочитаем их вслух и постараемся запомнить. (гиппопотам, масса ,тонн, килограмм)

Учитель: - Еще этот остров интересен тем, что тут живут ваши любимые герои. Давайте зайдем к ним в гости.

У вас на партах последний конверт с рисунком морского конька. Загляните туда и вы увидите домик . В этом домике текст. Внимательно прочтите текст и подчеркните слова с двойными согласными. У вас пять минут.

После выполнения задания домики вывешиваются на доске. Образец текста появляется на экране. Вместе с учениками проверяется и оценивается.














Вот Чиполлино и Рикки-Тикки Тави наконец-то встретились.Чиполлино ,Рикки –Тикки Тави, Винни-Пух, Гулливер, Пеппи Длинныйчулок, Гарри Поттер.

– Прочитаем имена жителей острова. Кто все они?
Ученик: -Все они литературные герои.
Учитель: -А что объединяет этих героев?
Ученик: -Во всех именах героев есть двойные согласные.
Учитель : -Какая ещё орфограмма есть во всех этих словах?
Ученик: -Большая буква в именах собственных.
Учитель: -А какие имена с двойными согласными вы знаете?
Ученик: -Анна, Алла, Инна, Аббас, Умму, Джаббар, Джаннет, Эмма, Жанна, Кирилл, Филипп.
(Ответы детей записываются на доске)

• Итог урока: на таблице оценок вывожу баллы каждой группе. Классу задается вопрос: - С какими новыми словами с удвоенными согласными вы сегодня познакомились?
• Ученики:- Чипполино, Рикки–Тикки–Тави, коллиграфия, гиппопотам и т. д.
• На экране стишок про удвоенные согласные

Эти буквы–близнецы
Удалые молодцы,
Ты их грамотно пиши
Чуть подумай, не спеши

Домашняя работа: выполнить на странице 75 упражнение, №195.

## «TƏBİƏTDƏ SUYUN DÖVRANI» MÖVZUSUNUN TƏDRİSİ

**Vəfa CƏFƏROVA,**
Gəncə şəhər 22 nömrəli orta məktəbin müəllimi



**Məqsəd:**
1. Suyun təbiətdəki aqreqat hallarını tanıtmaq.
2. Suyun təbiətdə dövranını izah etmək.

**İnteqrasiya:** ana dili 3.1.4,1.2.4; informatika 2.1.2; xarıcı dil 2.2.3; fiziki tərbiyə 4.4.2.
**Əsas anlayış:** «suyun dövranı»
**Dərsin tipi:** induktiv.

**İş forması:** böyük və kiçik qruplarla iş.
**Metod və priyomlar:** müşahidə müzakirə, praktik iş, beyin həmləsi.
**Resurslar:** dərslik, iş dəftəri, işçi vərəqi, xəritə, stəkan, su, buz.

**Dərsin gedişi:**

Salamlaşma.
Gəlin- gəlin uşaqlar,
Səhər görüşümüz var.
Gəlin əl- ələ tutaq,
Dostluq dövrəsi quraq.
Əvvəlcə salamlaşaq,
Sonra dərsə başlayaq.

**Təqvimlə iş:**

– Bu gün ayın neçəsidir?
– Bu gün 2009-cu il, noyabrın 6-dır.

Mənim təklifimdən sonra şagirdlər 6 ədədi ilə bağlı misallar deyirlər.
3 + 3 + 0 = 6; 12 – 6 = 6; 19 – 9 – 4 = 6; 8 + 4 – 6 = 6.

– Həftənin neçənci günüdür?
– Bu gün həftənin 5-ci günüdür, cümədir.

Noyabr ayında günlərin necə keçdiyini şagirdlərin təsəvvüründə möhkəmləndirmək üçün müsahibə aparıram:

– İlin hansı fəslidir?
– Payız fəslidir.
– Bu gün hava necədir? Müşahidə etmisinizmi?
– Bu gün hava buludludur.

Təqvimə nəzər salaq.

– Noyabr ayında neçə yağışlı gün olmuşdur? Gəlin sayaq.
– 4 gün.
– Noyabr ayında neçə günəşli gün olmuşdur? Gəlin sayaq.
– 2 gün.
– Yağışlı günlər, günəşli günlərdən neçə gün çoxdur?
– 2gün.

Günlərin ümumi sayından, günəşli günləri çıxaraq yağışlı günlərin sayını tapırlar. Deməli, payız fəslində tez-tez yağışlar yağır.

**MOTİVASİYA.**

**«Payızda» oyunu.** Bu oyun təbiət hadisələrinin başvermə ardıcıllığını izləməyi, hərəkətin izlənməsi prosesində diqqəti cəmləməyi, eşitdikləri fikrə uyğun jest və mimikalardan istifadə etməyi öyrədir.

Külək əsməyə başladı. Bulud günəşin arxasında gizləndi. Yağış yağmağa başladı. Yağış get-gedə gücləndi. Bir azdan yağış zəiflədi və

kəsdi. Göy üzündə günəş göründü. Günəş isti şüaları ilə bir anda yeri qurutdu. Gölməçələrdəki su yox oldu. Hamı təəccübləndi.

**Sual:** Uşaqlar, gölməçədəki su niyə yox oldu?

Şagirdlərin fərziyyələri dinlənilir.

– Üstündən maşınlar keçib sıçradıb.

– Malqara içib.

– Torpağa hopub.

– Buxarlanıb.

Şəkil üzrə iş aparılır.









**Sual:** Yağışdan başqa daha hansı yağıntı formalarını tanıyırsınız?

– Qar.

– Dolu.

– Qırov.

**Tədqiqat sualı:** Su təbiətdə hansı hallarda olur?

– Maye halda.

– Bərk halda.

– Buxar halında.

**Tədqiqatın aparılması:** Şagirdlər tapmaca yazılmış kartlara görə üç qrupa ayrılır. Tapmacaları yazmaqda məqsəd ana dili dərsi ilə inteqrasiya yaratmaqdır.




**İŞÇİ VƏRƏQİ 1**

Stəkanda qoyulmuş buz üzərinə müşahidə aparın. Buz niyə əridi? Təcrübəyə əsasən fikrinizi araşdırın.

Buna aid hansı nağılı bilirsiniz («Güllünün çayı»)

**İŞÇİ VƏRƏQİ 2**

Suyu qaynadın. Qabdakı su niyə azaldı? Təcrübəyə əsasən fikrinizi araşdırın.

**İŞÇİ VƏRƏQİ 3**

Suyu başqa qaba töküb, soyuducuya qoyun. Su formasını necə dəyişdi? Müşahidəyə əsasən fikrinizi araşdırın.

**İnformasiya mübadiləsi:**Hər qrupun lideri öz işlərin nəticəsini yazı taxtasından asır,təqdim edir. Qrupların işi qiymətləndirilir.

**İnformasiya müzakirəsi:**

Müzakirə vaxtı müəllim şagirdlərə suallar verir, onların köməyi ilə əsas fikri aydınlaşdırır.

*Su təbiətdə necə dövr edir?*

Cavab.

– Yağış yağır, yerə hopur. Sonra çeşmə, bulaq şəklində yerin səthinə çıxır.
– Bulaqlar axıb, arx əmələ gətirir.
– Arxlar birləşib çay əmələ gətirir.
– Çaylar göllərə, dənizə axır.

– İsti havada göldəki, dənizdəki su buxarlanıb havaya qalxır. Buludlar əmələ gəlir.

– Buludlar sıxlaşır, ağırlaşır, yağış yağır.

– *Su təbiətdə necə halda olur?*

–Bərk, maye, buxar.

– *Sizcə, su hər üç halda insanlara xeyir verirmi?*

–Yağış havanı təmizləyir.

– Bitkiləri qidalandırır.

– Qar da havanı təmizləyir, mikrobları, cücüləri məhv edir.

– Qarı ağacların dibinə yığanda rütubəti uzun müddət saxlayır.

– Güclü yağış yağanda sel olur. Çaylar daşır, evləri, yolları, əkin sahələrini yuyub aparır.

– Güclü qar hərəkəti çətinləşdirir. Qar uçqunları adamları, evləri məhv edir.

– Dolu ağacların meyvəsini tökür, zədələyir.

– Damların örtüyünü, pəncərə şüşələrini sındırır.

– *Həyatı susuz təsəvvür etmək olarmı?*

– Yox.

– *Yer səthində olan suyun hamısı buxarlansa, nə baş verər?*

– Həyat məhv olar.

**Tətbiqetmə:** Şəkillərə ardıcıllıqla baxın və «Su damlasının səyahəti» nağılını davam etdirin.



Nəticə və ümumiləşdirmə:

1. Təbiətdə su buxar, maye, buz alında olur.
2. Maye halında olan su istiliyin təsirindən buxara çevrilərək göyə qalxır.
3. Buxar soyuduqda yağışa, qara, doluya çevrilib yerə qayıdır.
4. Bu proses fasiləsiz olaraq dövr edir.

Ev tapşırığı: Suyun təbiətdəki hallarını müşahidə edin. Suya, yağışa, buza aid şeirlər tapıb öyrənin.

Özünüqiymətləndirmə. Şagirdlərə özünüqiymətləndirmə üçün cədvəl paylanılır. Hər şagird özünü qiymətləndirir.

Mövzu: «Təbiətdə suyun dövranı»

Adı,soyadı ______________________

Tarix ___________________________

«Hə» – cavabını verirsinizsə -

«Yox» – cavabını verirsinizsə -

1. Mən suyun təbiətdəki hallarını tanıyıram ________
2. Mən təbiətdə suyun dövranını başqalarına izah edə bilərəm______
3. Yoldaşlarımla qarşılıqlı məsləhətləşdim ______________
4. İşimi tamamladım________________________________________

## «TAXTA BOŞQAB» MÖVZUSUNDA OXU DƏRSİNİN TƏŞKİLİ

**Səmagül ƏLİYEVA,**
Bakı, 102 nömrəli məktəbin müəllimi



Kurrikulum əsasında dərrslik kompleksinin hazırlanması müəllimlərə tədris zamanı yol göstərməklə onların işlərini xeyli asanlaşdırır, lakin bu o demək deyildir ki, müəllim dərslərini «Müəllim üçün vəsait»də verilmiş nümunələr əsasında tədris etməlidir. Hər bir müəllim öz yaradıcı imkanlarından geniş istifadə edərək həmin mövzulara dair daha fərqli, daha maraqlı dərs nümunələri qurmaqla, onların fəal təlimin tələblərinə uyğun tədrisinə nail olmalıdır. Bu məqsədlə mən hər bir mövzu üzrə dərs nümunəsi hazırlayıram. Hazırladığım nümunələrdən birini aşağıda təqdim edirəm.

Mövzu seçimi çox vacib bir amildir. Böyüklərə qaygı,hörmət, sevgi, diqqət və s. kimi hisslərin aşılanması və bunların bacarıqlara çevrilməsi üçün müxtəlif metod və priyomlardan istifadə edərək məqsədə nail olmağa çalışdım. Ana dili kurrikulumunda verilmiş standarta (St.2.2.5) əsaslanaraq bu mövzuya uyğun olan «Taxta boşqab»mətninin düzgün və şüurlu oxusunu təşkil etməyi məqsədəuyğun hesab etdim. Mövzu ilə tanış olduqdan sonra sinfi 4 qrupa bölərək adlandırdım. Qrupların adları mövzu ilə əlaqədar olduqda daha müsbət nəticə verir. Qrupun adı ilə tanışlıq şagirdlərdə mövzu haqqında biliklərin ilk cücərtilərini qoymuş olur.

Tədqiqata başlamaq üçün problemi müəyyənləşdirib, motivasiya qurmaqla dərsdə idrak fəallığını artırıb problemin həlli üçün tədqiqat sualını formalaşdırıram. Sualın müxtəlif cavabları ola bilər. Seçim zamanı

heç bir yaraşığı olmayan «Taxta boşqab» ifadəsi alındıqdan sonra mövzunun adı açıqlanır. Mövzu ilə əlaqədar tətqiqatın aparılması üçün irəli sürülmüş problemin həlli ilə əlaqədar faktlar tapmaq, fərziyyələr irəli sürmək və faktları cavablandırmaq, yeni bilgiləri kəşf etmək üçün hazırladığım tapşırıqlar qruplara təqdim edilir. Çalışma və tapşırıqlar həm məqsədə, həm dərsliyə, həm də həyatı faktlara uyğun tərtib edilməlidir. Oxu zamanı şagirdlərin şüurlu şəkildə əldə etdikləri biliklərin və həyatda rast gəldikləri oxşar hadisələrin tədqiqatı başlayır. Şagirdlər öz bilik və bacarıqlarını əməkdaşlıq şəraitində, bilik və yaş səviyyələrinə uyğun olaraq müstəqil düşüncə tərzi sayəsində həyata keçirməyə çalışırlar.

Aşağıda qrup işlərinin bu prinsiplərə uyğun nümunəsini təqdim edirəm. Ananın babaya olan qəzəb və kinini uşaqlar dərslik vasitəsilə araşdırır, fikirlərini öz səviyyələrinə uyğun formada ifadə etməyə çalışırlar. İşçi vərəqində nəvə öz etirazını taxta boşqab düzəltməklə anaya bildirir. Bu zaman fənlərarası inteqrasiya yolu ilə həm musiqi səsləndirilir, həm də uşaq əmək alətlərini seçib qruplaşdırır, prosesə uyğun alətləri tanıyır. Ananın: «Nə düzəldirsən?» sualınını cavablandıraraq,uşaq etiraz əlaməti olaraq: taxta boşqab düzəltdiyi haqda məlumat verir və bu yolla babaya məhəbbətini və anaya etirazını ifadə edir. Bütün analar öz övladı kiçik olanda onun əziyyətlərinə dözüb, qayğısına qalırlar. İnsan da qocaldıqca uşaqlaşır... Ona görə də hər birimiz yaşlı insanlara hörmət etməli,onların qayğısına qalmalıyıq.

**Mövzu:** «Taxta boşqab»

**Standart:** A-d.:1.2.1,2.2.5;

**Məqsəd:**

- Mətni üzündən düzgün və şüurlu oxumaq.
- Mətndəki əsas ideyanı tapmaq.
- Problemi müxtəlif metodlarla açıqlamaq və müəyyənləşdirmək.
- Böyüklərə hörmət hissinin aşılanması.

**İnteqrasiya:** Tex.1.1.2; Mus.3.1.2

**Iş forması:** Kiçik qruplarla iş.

**İş metodu:** Müzakirə

**Resurslar:** Dərslik, işçi vərəqləri, rəngli şəkillər, rəngli karandaşlar

## Dərsin gedişi

**Motivasiya.**

**Problemin qoyuluşu.**

**Problemin həlli.**

**Tətbiq.**

**Qiymətləndirmə.**

Motivasiya:




**İnsaf** Uşaqlar mən etdiyim hərəkətdən peşmanam,lakin günahkar deyiləm.

Siz necə düşünürsünüz?

Şagird:



## Münasibət vərəqi

- İnsan qocalanda əlləri əsə bilər.
- Babanin qabı saxlamağa gücü çatmır.
- Baba ehtiyatlı olsaydı bəlkədə qab sınmazdı.

**Mərhəmət**

Gərək bu kişi üçün taxtadan boşqab,qaşıq düzəltdirək.



**Tədqiqat sualı:**

Gəlinin baba ilə münasibəti uşaqda hansı hisslər yaratdı?

**Gəlinin babaya söylədiyi bu sözlərin əvəzinə , siz nə söyləyərdiniz?**

Cavab:

- Baba buyur süfrəyə,daha gözəl boşqabda yeməyini ye.
- Baba sən süfrəmizə bərəkət gətirirsən.
- Baba heç narahat olma ,təki sınan boşqab olsun.

**Qayğı**

**Nəvə hansı alətlə boşqab düzəldir? Həmin alətə aid hansı mahnını oxuyur?**
**Gördüyünüz alətlərin adlarını yazın.**






**Hörmət**



Oğlum,nə düzəltmək istəyirsən?
-Ana, taxtadan boşqab, qaşıq düzəltmək istəyirəm.
– Nəyə lazımdır?
– Atamla sən qocalanda  sizə onlarda yemək verəcəyəm.

Ana babaya qarşı düz hərəkət etmədiyini nə vaxt anladı?Həmin epizodu mətndən seçib yaz.

Kompyuterdə qocalar evindən fraqment göstərilir.

## Qocalar evi





Tətbiq.

> ➢Bəs siz köməyə ehtiyacı olan qocalara rast gəlmisinizmi ? Onlara kömək etmisinizmi? Bu barədə fikirlərinizi yazın.





Şagird:

**Esse**

Qonşumuzda yaşayan qoca kişiyə çörək alıram. Çantasını daşımaqda ona kömək edirəm. Bəzən anamın bişirdiyi yeməklərdən ona da verirəm. Onu tez-tez evimizə qonaq çağırıram.

## «AYI VƏ ŞİR» TƏMSİLİNİN TƏDRİSİNƏ HƏSR OLUNMUŞ DƏRS

**Maral MƏMMƏDOVA,**
287 nömrəli «Zəkalar» liseyinin müəllimi



**Mövzu: «Ayı və Şir».**

**Məqsəd:**

- şagirdlərin dinlədikləri fikirlərə münasibət bildirmələri;
- müşahidə etdikləri, eşitdikləri və oxuduqları haqqında danışmaları;
- təmsildəki ideyaya münasibət bildirmələri;
- təmsilin məzmununun şəklə uyğun nəql olunmasını təmin etmək.

**İnteqrasiya:** h.b.2.1.2.; 3.2.2; r.5.1.1.
**İş forması:** kiçik qruplarla və cütlərlə iş.
**İş metodları:** müzakirə, beyin həmləsi.
**Resurslar:** dərslik, işçi vərəqləri, heyvanlar haqqında ensiklopediya, kompyuter, proyektor

**Dərsin gedişi**

Müəllim şagirdləri qruplara bölüb, hər qrupa tapşırıq verir. Hər kəs öz qrupunun adına uyğun heyvan haqqında ensiklopediyadan məlumat tapıb oxuyur. Məlumatı varsa, danışa da bilər. Bunun üçün şagirdlərə vaxt verilir. Cavablara görə qruplar və şagirdlər qiymətləndirilir.

– Biz heyvanlar haqqında danışırıq. İndi isə istəyirəm sizə bir nağıl danışım.

**«İki acgöz ayı balası»**

İki acgöz ayı balası bir parça pendir tapdı, amma heç cür onu bölə bilmirdilər. Qorxurdular ki, birinə az, o birinə çox düşər. Onların aralarında mübahisə düşdü.

Bir tülkü onlara yaxınlaşıb dedi:

– Niyə dalaşırsınız? Verin, mən bölüm.





Onlar pendiri tülküyə verdilər. Tülkü pendiri bərabər olmayan iki hissəyə böldü:

– Vay, hissələrin biri böyük, o birisi kiçik oldu. Qoyun bərabərləşdirim.

Əvvəl böyük hissədən dişlədi ki, guya bərabərləşdirir. Sonra o biri hissədən dişlədi, ancaq bu dəfə böyük hissə o birindən kiçik oldu. Tülkü hər bir tikəni növbə ilə hey dişləyir, dişləyirdi ki, onları bərabərləşdirsin. Beləliklə, tülkü hər birinə fındıq ləpəsi böyüklükdə tikə verdi. Ayı balaları baxa-baxa qaldılar.





– Uşaqlar, siz hansı heyvanlar haqqında eşitdiniz?

– Bu heyvanlar harada yaşayır?

– Meşədə daha hansı heyvanlar yaşayır?

Uşaqlar şirdən danışanda, ekrandakı ayıları göstərib deyirəm:

– Baxın, ekranda nə görürsünüz?

– Ayı.
– Bəs əvvəl nədən danışırdınız?
– Şirdən.
Sizcə, yeni dərsimiz nə oldu?
Mövzu: «**Ayı və şir**».
– «Ayı və şir» təmsildir.
Təmsildə heyvanlar danışır, iş görürlər. İnsanlara aid hadisələr heyvanların, əşyaların adından verilir. Bu təmsili rus yazıçısı İvan Krılov yazıb.
Eşitdikləri yeni sözləri izah edir, sonra sual verirəm:
–Mövzuya uyğun atalar sözü deyə bilərsinizmi?
«Çox istəyən azdan da olar.»
«Artıq tamah baş yarar.»
«Tamahkarın gözü kor olar.»







**Tədqiqat sualı:** Çox istəyən azdan olarmı?
İşçi vərərqləri paylanır. Hər bir işçi vərəqində misralardakı sözlərdən biri və ya ikisinin yeri boş olur.

| | | |
|---|---|---|
| Əlbir olub bir ... bir ... ilə, | ... , götürdü ovu, etdi fərar | Çeynədilər, ... , diddilər |
| Özlərini taqətdən ... | ... razı onu bölməyə | ... uzaqdan görüb bu haləti |

Həmin yerlərə uyğun sözlər ekranda göstərilir: olmadılar, gəldi, ayı, saldılar, tülkü, dişlədilər, şir.
Uşaqlar uyğun gələn sözü tapıb yazmaqla hər bir misranı tamamlayır, həmin sözün hansı suala cavab verdiyini deyirlər. Hər bir misranın davamını ekranda tapıb oxuyur, mənasını izah edir və üstünə yapışdırırlar. Hər işçi vərəqinin arxasında tamamlanmamış şəkil var.
Bütün qruplar bu işi davam etdirirlər.Qrupların işi başa çatanda şəkil tamamlanmış olur. Uşaqlar təmsilin məzmununu şəklə uyğun danışırlar.
– Uşaqlar, «İki ayı balası», «Ayı və şir» təmsili arasında hansı oxşarlıq və fərq var?
– Haqqında danışdığımız hansı heyvanların adı təmsildə çəkilmədi?

– Sizcə, çox istəyən azdan oldumu?
– Ayı və şir necə etməli idi?
– Siz onların yerində olsaydınız, necə edərdiniz?
Mümkün cavablar:





– Hər ikisində də acgözlük, tamahkarlıq, hiyləgərlik var.
– Pələng və pişik.
– Hər ikisinin ideyası eynidir.
– Nəinki dovşanı bölə bilmədilər, hətta ac qaldılar. Sonda tülkünün dalınca baxa–baxa qaldılar.

Müəllim:

– Biz əvvəl təmsil haqqında danışanda dedik ki, təmsildə insanlara aid xüsusiyyətlər heyvanların, bitkilərin, əşyaların adından verilir. Müəllif insanların bir–birinə qarşı münasibətlərindəki nöqsanları pisləməklə yanaşı, həm də nəsihət verir. Bax, bu da təmsildə öz əksini tapır.

**Qiymətləndirmə:** Müəllim əvvəlcədən hər qrupa qrupdaxili qiymətləndirmə vərəqi verir. Şagirdlər özlərini qiymətləndirirlər. Müəllim isə verilmiş meyarlara əsasən şagirdləri qiymətləndirir.

### QRUPDAXİLİ QİYMƏTLƏNDİRMƏ

| № | Şagirdlərin adı, soyadı | Çətinlik çəkmədən səlis və aydın oxuyur | Qrupdakı tapşırıqları yerinə yetirir | Mətndəki əsas fikri müəyyən edir |
|---|---|---|---|---|
| 1 | Əli Məmmədov | | | |

| MEYARLAR \ QRUPLAR | Şir | Pələng | Ayı | Tülkü | Pişik | Dovşan |
|---|---|---|---|---|---|---|
| Əməkdaşlıq edir | | | | | | |
| Dinlədiyi fikrə münasibət bildirir | | | | | | |
| Eşitdikləri və oxuduqları haqqında danışır | | | | | | |
| Təmsildəki əsas fikrə münasibət bildirir | | | | | | |
| Məzmunu nəql edir | | | | | | |
| Nəticə | | | | | | |

**Ev tapşırığı:** «Təmsilin başlanğıc, orta və son hissələrinə aid şəkil çəkin. Həmin təmsilin xoşunuza gələn hissəsi haqqında bir neçə cümlə yazın». Tapşırıq yazılmış vərəqlər uşaqlara paylanır.

## RABİTƏLİ NİTQİN İNKİŞAFI ÜZRƏ İŞİN TƏŞKİLİ

**Xatirə QƏHRƏMANOVA,**

AMİ-nin magistrantı



Məktəbdə, o cümlədən ibtidai siniflərdə şagirdlərin nitqini inkişaf etdirmək üçün müxtəlif istiqamətlərdə iş aparılır: lüğətin zənginləşdirilməsi, fəallaşdırılması və dəqiqləşdirilməsi, cümlə qurmaq vərdişlərinin inkişafı, üslubi çalışmalar, orfoepiya normalarına yiyələnmə (düzgün tələffüz) üzrə iş, rabitəli nitqin inkişafı və s. Təcrübə göstərir ki, bütün bunları bir-birindən təcrid edil miş halda deyil, kompleks şəkildə həyata keçirmək daha yaxşı nəticə verir.

Belə ki, ayrı-ayrı səslərin düzgün tələffüzünü və yazılışını söz daxilindəki səslər axınında, ayrı-ayrı cümlələrin yazılışı, ritmik bölgüsü, üslubi çalarlarını isə rabitəli nitq daxilindəki cümlələr axınında öyrətmək daha sərfəlidir.

Nitq vərdişlərinin aşılanmasında nitq inkişafı üzrə işlərin düzgün təşkili də böyük əhəmiyyət kəsb edir. Şagirdlərin nitqini müvəffəqiyyətlə inkişaf etdirmək üçün müəllimin aşağıdakı ümumi didaktik tələblərə əməl etməsi zəruridir:

1. Nitq inkişafı üzrə iş ana dili dərslərinin bütün sahələri ilə əlaqələndirilməlidir. Əlifba təlimindən başlanan iş əlifbadan sonrakı oxu təlimi dövründə bədii parçaların dili üzərində müşahidə aparmaqla davam etdirilməlidir. Sonrakı siniflərdə Azərbaycan dilindən öyrənilən dil faktları oxu dərslərində tədris olunan bədii parçaların obrazlı dili ilə təsbit olunmalı və möhkəmləndirilməlidir.

Bədii əsərlərin obrazlı dilinin başa salınması şagirdlərin nitqinin ifadəliliyinə təsir göstərdiyi kimi, öyrənilən dil faktları da onların nitqinin zənginləşməsinə, dəqiqləşməsinə səbəb olur.

2. Nitq inkişafı üzrə iş bütün məşğələ növləri və bütün fənlərin tədrisi ilə, hətta sinifdənxaric iş və məşğələlərlə də əlaqələndirilməlidir. Həm də ayrı-ayrı fənlərin tədrisi prosesində, sinifdənxaric tədbir və məşğələlərdə, nitq prosesi ilə bağlı bütün məşğələlərdə şagirdlərin nitqinin düzgünlüyünə, aydınlığına daim diqqət yetirilməlidir.

3. Nitq inkişafı prosesində nitqin məzmununa uyğun formanın seçilməsinə, istər yazılı, istərsə də şifahi nitqdə orfoepik, orfoqrafik, leksik, üslubi və s. qüsurların dərhal aradan qaldırılmasına ciddi səy göstərilməlidir.

4. Nitq inkişafı üzrə iş prosesində mümkün qədər çox, rəngarəng və səmərəli çalışma növlərindən, vasitə və priyomlardan istifadə edilməlidir. Belə iş növləri içərisində müəllimin canlı nitqi, yoldaşların nitqinin təhlili, görkəmli söz ustalarının vala yazılmış nitqlərinin dinlənilməsi, hekayə və şeirlərin ucadan ifadəli oxusu, rollar üzrə oxu, şeir oxumaq müsabiqələri və s. daha faydalı sayılır.

5. Nitq inkişafı üzrə işi yaxşı təşkil etmək üçün müəllim əvvəlcə sinfin, sonra hər bir şagirdin nitqinin inkişaf səviyyəsini düzgün müəyyənləşdirməlidir. Bu, nitq inkişafı üzrə işi düzgün planlaşdırmağa, düşünülmüş sistemlə aparmağa imkan yaradır.

6. Nitq inkişafı üzrə iş elə təşkil edilməli və keçilən mövzularla elə əlaqələndirilməlidir ki, həm mövzunun mənimsənilməsinə kömək etsin, həm də nitqin inkişafına səbəb olsun.

7. Nitq inkişafı üzrə iş dilə həssaslıq və nitqə məsuliyyətlə yanaşmaq hissləri tərbiyə etməlidir.

Nitq inkişafı üzrə işlərin son mərhələsi olan rabitəli nitq, demək olar ki, nitq inkişafı üzrə aparılan işləri bir növ yekunlaşdırır. Məsələyə bu aspektdən yanaşdıqda rabitəli nitq inkişafı üzrə aparılan işlər daha böyük əhəmiyyət kəsb edir. Bu, hər şeydən əvvəl, aşağıdakılarla xarakterizə olunur:

1. Azərbaycan dilindən öyrənilən nəzəri materialın təcrübəyə tətbiqinə geniş imkan yaradır.

2. Tələffüz, düzgün qiraət, lüğət ehtiyatını zənginləşdirmək, cümlə qurmaq vərdişlərini inkişaf etdirmək və s. kimi məsələləri daha da təkmilləşdirir, inkişaf etdirir və bir növ yekunlaşdırır.

3. Şagirdlərə öz fikirlərini ardıcıl, səlis, təsirli ifadə etmək vərdişləri aşılayır. Onların təfəkkürünü inkişaf etdirir.

4. Şagirdlərin nitq texnikasından, vurğu, intonasiya, fasilə və s. düzgün istifadə etmək bacarığını artırır və s.

Ona görə də rabitəli nitq üzrə iş daim müəllimlərin diqqət mərkəzində durmalı və təlimdə buna çox böyük əhəmiyyət verilməlidir.

Təəssüf ki, məktəblərimizdə rabitəli nitqin inkişafı üzrə aparılan işlər günün tələbləri səviyyəsində durmur. Belə ki:

1. Rabitəli nitq vərdişlərinin inkişafı proqramda nəzərdə tutulan saatlarla məhdudlaşır. Bu isə rabitəli nitqin inkişafı üçün azlıq təşkil edir. Ona görə də müəllim yeri gəldikcə oxu dərslərinə ayrılan saatların hesabına da rabitəli nitq vərdişlərini inkişaf etdirməyə səy göstərməlidir. Əlbəttə, bu planlaşdırma işini bir qədər çətinləşdirir, lakin oxu dərslərinin bir vəzifəsi də rabitəli nitqi inkişaf etdirmək olduğundan, prof. Y.Kərimovun göstərdiyi kimi, müəllim şifahi ifadə

və inşaları oxu dərslərində, yazılı ifadə və inşaları isə dil dərslərində aparırsa, daha yaxşı nəticə əldə edə bilər.

2. Rabitəli nitqin inkişafı üçün nəzərdə tutulan saatlar, əsasən, yazılı rabitəli nitqin inkişafına sərf edilir. Şifahi rabitəli nitq vərdişlərinin inkişafı isə arxa plana keçirilir. Nəticədə şagirdlər çox vaxt öz fikirlərini yazılı şəkildə ardıcıl ifadə etməyi bacardıqları halda, şifahi şəkildə ifadə etməkdə çətinlik çəkirlər. Halbuki, böyük pedaqoq K.D.Uşinski insanlara şifahi nitqi inkişaf etdirən təmrinlər verməyi müəllimin başlıca vəzifəsi hesab etmiş və yazmışdır ki, şifahi nitqin bir əhəmiyyəti də onun yazılı nitq üçün əsas təşkil etməsidir. Prof.Abakumov demişkən, şifahi nitqlə yazılı nitq bir ananın (nitqin) əkiz övladlarıdır. Ona görə də bunların birinə qayğı göstərib, o birini qayğıdan məhrum etmək olmaz. Müəllim nitqin bir-biri ilə vəhdətdə olan bu iki formasını paralel inkişaf etdirməlidir.

3. Şifahi rabitəli nitqin inkişafında, əsasən, şifahi inşalardan istifadə olunur, şifahi nitqin inkişafı ilə sıx bağlı olan digər təmrinlərdən, məsələn, nəql etmək, mükalimə aparmaq, əşya və hadisələri səciyyələndirmək, müəyyən məsələ barəsində rəy söyləmək və s. kimi iş növlərindən az istifadə edilmişdir.

4. Şifahi nitq vərdişlərinin inkişafı üzrə iş prosesində tələffüz normalarının, tələffüz üslublarının mənimsənilməsi işinə ciddi fikir verilmir. Belə ki, tələffüz normaları və tələffüz üslubları anlayışına orfoepiya ilə yanaşı, vurğu, intonasiya, sürət, diksiya, ritmika və s. kimi məsələlər də daxildir. Müəllimlər çox vaxt sözün deyilişi, düzgün tələffüzü üzərində iş aparır, lakin cümlənin, mətnin tələffüzü üzərində az dayanırlar. Nəticədə şagirdin nitqi yeknəsəq, cılız, kasıb və sönük olur. Ona görə də nitqin aydınlığını, təsirliliyini, gözəlliyini təmin edən bu məsələlər rabitəli nitqin ayrılmaz tərkib hissələri kimi daim müəllimin diqqət mərkəzində durmalıdır.

5. İfadə və inşalara hazırlıq işləri zəif aparılır. Şagirdin haqqında danışacağı və yazacağı material ona tam və mükəmməl mənimsədilmir. Ona görə də şagird dinləyici və yaxud oxucuya öz fikrini aydın, səlis, ardıcıl çatdıra bilmir.

Məlumdur ki, dil didaktik vəhdət təşkil edən iki tərəfdən: məzmun və formadan ibarətdir. Müəllim rabitəli nitq vərdişlərinin aşılanması prosesində dillə təfəkkürün vəhdəti qanunundan irəli gələn məzmun və forma vahidliyini əsas tutaraq, bir tərəfdən şagirdlərə haqqında danışacaqları və ya yazacaqları materialı möhkəm mənimsətməlidir, digər tərəfdən də şagirdlərə mənimsənilmiş materialı müvafiq formada ifadə etmək vərdişləri aşılamalıdır.

Ümumiyyətlə, şagirdlərin nitqini inkişaf etdirmək məktəbin və müəllimlərimizin qarşısında duran ümumpedaqoji problemdir. İbtidai siniflərdə şagirdlərin təlimindən başlayaraq müəllim müntəzəm, ardıcıl, məqsədli, şüurlu şəkildə onların nitqini inkişaf etdirmək üçün bütün səy və bacarığını əsirgəməməlidir. Xüsusən, nitq inkişafı üzrə aparılan işlərin son mərhələsi olan rabitəli nitq vərdişlərinin aşılanmasına daha məsuliyyətlə yanaşmalıdır.

# SOLAXAYLIĞIN DİAQNOSTİKASI VƏ PROFİLAKTİKASI

**Elmira KƏRİMOVA,**
Böyük elmi işçi, həkim – psixonevroloq



Dərsdə yetirməyən arasında psixofiziki inkişafı ləngiyən uşaqlar çoxluq təşkil edir. Bunun səbəbləri ədəbiyyatda araşdırılıb və artıq aydındır, təzahürləri isə çoxdur: ali təfəkkür funksiyalrın pozulması, işguzarlığın aşağı olması, əsəbilik, davranış pozuntuları və s. Müvəffəqiyyətsizliyin bir səbəbi də solaxaylıqdır. Bu ümumi və xüsusi pedaqogikanın, tibbin, psixologiyanın və sosial gigiyenanın vacib problemidir. Müasir sivilizasiya əsasən sağ əli aparıcı olan insanlara istiqamətləndirilib, lakin, bəzi müəlliflərin müşahidələrinə görə, sağlam uşaqlar arasında solaxaylıq 4 – 8% təşkil edir, özüdə ki oğlanlarda, qızlara nisbətən, daha çox təsadüf edilir. Bəzi müəllimlər deyirlər ki, axır vaxtlar solaxayların sayı artıb. Məncə, bu belə deyil. Sadəcə olaraq axır vaxtlar uşaqlar arasında solaxaylığa diqqət artırılıb.

Ümumiyyətlə, dünyada insanların 90% - də sağ əl aparıcıdır, yəni onlar yazıda və başqa fəaliyyət növləri zamanı, əsasən, sağ əldən istifadə edirlçr. Görəsən, sol ələ üstünlük verən insanlarda solaxaylığınyaranma səbəbləri hanılardır? Solaxaylığın yaranma səbəblərinə dair bir neçə nəzəriyyə mövuddur. Alimlərdən bəziləri solaxaylığın səbəbləri kimi doğuş zamanı alınan zədələri və ya erkən inkişaf mərhələsində beynin sol yarımkürəsinin zədələnməsini göstərirlər. Bəziləri isə solaxaylığın səbəbini xromosom səviyəsində baş vermişpozulmada və irsi solaxaylıqlda görürlər. Faktiki olaraq indiyədək alimlər solaxaylığı yaradan səbəblərə dair ümumi fikrə gələ bilməmişlər.

Solaxay uşaqların 70% - də nitq mərkəzi beyinin sol yarımkürəsində yerləşir. Qalan 30% - in yarısında nitq mərkəzi sol yarımkürədə, o biri yarısında isə beyinin sağ yarımkürəsində yerləşir. İsveçrəli defektoloq J.Kramer yazır ki, solaxaylar normal olmaqla o biri insanlardan çox da fərqlənmirlər. Burada belə sual yaranır: əgər lazımdırsa, onda nə vaxt, hansı hallarda, hansı yollarla solaxayları sağ əllə işləməyə öyrətmək olar? Bu sualları çox vaxt valideynlərdən və ibtidai sinif müəllimlərindən eşitmək mümkündür. Qeyd etmək lazımdır ki, sağ ya sol əlin hakim vəziyyət tutması artıq uşaqda 7-10 ayında, bəzən ondan da tez bilinir. Tədqiqatçıların çoxu belə hesab edir ki, sağ əlin üstünlüyü zamanı baş

beyinin sol yarımkürəsi hakim vəziyyətdə olur, ancaq solaxaylarda sağ yarımkürənin hakimliyi hələ də sübut edilməyib.

Uşaq anadan olanda, onun nitq mərkəzi hələ formalaşmamış olur, çunki bu mərkəzin inkişafı sağ və ya sol əlin hakimliyi ilə sıx bağlıdır. Solaxayı yenidən sağ ələ öyrətmək baş beynin hakimlik təşkil edən yarımkürəsinin yanlış formalaşmasına və nitq inkişafının pozulmasına gətirib çıxarır.

7-8 yaşlı uşaqlarda artıq sağ və sol tərəfi müəyyən etmək qabiliyyəti əmələ gəlmiş olur. Solaxay uşaqlarda belə qabiliyyət çox vaxt pozulur: belə uşaqlar tez təsirlənən, emosional olurlar, onların psixi aləminin özünəməxsus strukturu var. Məcburi yenidənöyrətmə zamanı bu xü-usiyyətlər uşaqda qorxu və tamhüquqsuzluq hissinin, depressiyanın və s. yaranmasının səbəbi ola bilər.

Solaxaylıq orqanizmin mürəkkəb psixomotor xassəsidir, ona görə də həmişə belə uşağın şəxsiyyətinin xüsusiyyətlərini nəzərə almaq lazımdır. Birinci növbədə maraqlanmaq lazımdır, uşaq özü yenidən sağ ələ öyrənmək istəyir ya yox: əgər yox, onda bu fikirdən əl çəkmək daha düzgündür. Çünki bəzən 10 – 12 yaşlı uşaqlarda öz özündən sağ ələ keçmək müşahidə edilir. Əgər sol cüt orqanların və funksiyaların üstünlüyü (sol lateralizasiya) varsa, onda yenidənöyrətmə daha pis nəticə verə bilər.

Uşaqları balaca ikən əşyaları, şəkilləri və s. soldan sağa gözdən keçirməyi öyrətmək lazımdır. Əgər uşaq sol əllə təqlid edərək yazır, ya solaxaylığın dərəcəsi azdır və sağ cüt orqanların üstünlüyü (sağ lateralizasiya) varsa, belə uşağa sağ əllə yazmağı öyrətmək olar. Əsassız olaraq sağ əllə yazmağa məcbur edilən uşaqlarda ağır psixi reaksiyalar, kəkələmə, hətta çəpgözlük əmələ gələ bilər.

Uşağı sol əldən sağ ələ öyrətmək valideyn və müəllimlər üçün məqsəd olmamalıdır. Müntəzəm təlim nəticəsində iki əli inkişaf etdirmək və möhkəmləndirmək daha məqsədə uyğun olardı.

Uşağın həqiqi solaxay olub olmaması haqda təkcə kompleks müayinədən sonra danışmaq mümkündür. Solaxaylığın diaqnostikasını və differensiasiyasını həkim (məktəbdə, uşaq bağçasında, poliklinikada) aparmalıdır. Məktəb psixoloqu isə belə uşaqları müşahidə etməli və bu haqda qeydlər aparmalıdır.

## Aparıcı əlin müəyyənləşdirilməsi

İlk növbədə valideyn, müəllim və tərbiyəçilərdən soruşmaq lazımdır, uşaqda sol ələ üstünlük vermə var ya yox. Bu müayinədə 12 sualdan ibarət sorğu vərəqəsi doldurulur. Suallar məişətdə, oyunda, dərs və əmək fəaliyyətində sağ ya sol əlin istifadəsini və bu hərəkətlərin mümkünlük dairəsində göstərilməsini nəzərdə tutur. Müayinə ləngidilməməli,

təqlidetməyə yol verməmək üçün, fərdi şəkildə aparılmalıdır. Bu və ya digər əməliyyat zamanı işlədilən əşyalar uşağın qarşısında elə yerləşdirilməlidir ki, əllərdən hər hansına üstünlük verilməsin. Uşaq müayinənin nə məqsədlə aparılmasını bilməməli, testin nəticələrinin qeyd edilməsini görməməlidir. Hər suala görə müayinə 3 dəfə aparılır. Test solaxaylıqın dərəcəsini kəmiyyətcə qiymətləndirməyə imkan verir.

Belə ki:

1) tapşırıqın yerinə yetirilməsi:

sağ əllə – (+2) ball,

sol əllə – (-2) ball;

2) əməliyyatlarda əsasən hansı əl işlədilir:

sağ əl – (+1) ball,

sol əl - (-1) ball;

3) iki əl eyni dərəcədə işlədilir – 0 ball.

Bütün 12 suala görə balların cəmi göstərir:

1) (-9) – dan (-24) – dək – solaxaylıq;

2) (-8) – dən (+8) – dək - ambidekstriya (fəaliyyət zamanı iki əlin bərabər işlədilməsi);

3) (+9) – dan (+24) – dək – sağ əlin üstünlüyü.

Aydındır ki, balların cəmi (-24) ya (+24) təşkil etməsi, müvafiq olaraq, uşaqda yüksək dərəcəli solaxaylıqdan və ya əsasən sağ əlin istifadə edilməsindən xəbər verir. Uşaqda solaxaylıq və ya ambidekstriya müəyyən edilərsə, onda müayinə başqa lateral sensomotor əlamətlərin yoxlanılması ilə davam etdirilir.

## Aparıcı gözün müəyyənləşdirilməsi

Uşaqa əllərini qabaqa uzadıb, ortasında kiçik dairə kəsilmiş kağızdan və ya borucuq şəklində bükülmüş vərəqin ortasından 2 – 3 metrlik məsafədə yerləşən əşyaya iki gözlə baxmaq, sonra isə, bu əşyanı gözdən qaçırmadan, kağızı (və ya kağız borucuğu) gözlərinə yaxınlaşdırmaq və birdə o əşyaya baxmaq təklif olunur. Uşaq kağızı hansı gözə yaxınlaşdırırsa, o göz aparıcı sayılır.

Böyükyaşlı uşaqlarla başqa yoldan istifadə edirlər: qələmi qabaqa uzadılmış əllərlə tutub, onun ucu ilə 2 – 3 metrlik məsafədəki əşyanı və ya nöqtəni nişana almaq təklif olunur. Sonra növbə ilə gah sağ, gah da sol gözü yumurlar. Əgər sağ ya sol gözü yumarkən, nöqtə öz yerindən tərpənmir, deməli açıq qalan göz aparıcı sayılır. Aparıcı gözü bağlayanda, nöqtə kəskin sürətdə yerini dəyişir.

### Aparıcı qulağın müəyyənləşdirməsi

Uşağı üzərinə saat qoyulmuş masa arxasında əyləşdirir və ona saatın vəziyyətini dəyişmədən onun işləyib – işləməməsini müəyyənləşdirməyi təklif edilir. Təkrar müayinələrdə uşaq hansı qulaqdan istifadə edirsə, o qulaq aparıcı sayılır. Saat yerinə telefondan istifadə etmək məqsədə uyğun deyil, çünki burada dəstəyi götürərkən, əldən istifadə edilir, bununla da müayinənin «təmizliyi» pozulmuş olur.

### Motor sınaqlar

1. Əlləri çarpazlayarkən üstdə sağ və ya sol böyük barmağın olması nəticəni müəyyən edir.
2. Qolların sinə üstündə çarpazlaşdırılması (Napoleonun duruşu) zamanı üstdə sağ ya sol dirsəyin olması yoxlamanın nəticəsini müəyyən edir.

Qeyd edim ki, təkcə bu iki motor sınağı əsasında solaxaylığın diaqnostikası tamamilə yanlışdır.

**Aparıcı ayağın müəyyənləşdirilməsi** idman və fiziki tərbiyə məşqələlərində çox vacibdir. Bunun üçün bir neçə testdan istifadə etmək olar.

- Ayağı ayağın üstünə aşırarkən üstə düşən ayaq aparıcıdır.
- Atlanarkən və ya start götürərkən, təkanverici ayaq aparıcı sayılır.
- Topa və ya başqa əşyaya zərbə endirən ayaq aparıcı sayılır.
- Uşaq birayaqlı atlanarkən, hansı ayaq üstə atlanırsa, o aparıcı sayılır.

Müayinə kompleks şəkildə aparılmalıdır. Müayinə edilən uşaqın valideynlərində, yaxın və uzaq qohumlarda (1-ci və 2-ci dərəcəli qohumluq) solaxaylığın olub olmamasını öyrənmək lazımdır, çünki onlarda solaxaylıq olduğu zaman uşaqda da dayanıqlı solaxaylığın olması ehtimalı çox böyükdür. Asimmetriyanın profili ali psixi funksiyaların inkişafına təsir göstərir və uşağın adaptasiyasının mümkünlüyündə mühüm rol oynayır. Lateral profilin fərdi xüsusiyyətlərini pedaqogika, linqvistika və audiovizual vasitələrdən istifadə edən başqa təlim növlərində nəzərə almaq lazımdır. Bədənin dominant tərəfini ilk növbədə informasiyanı mənimsəyən və realizə edən əsas kanal kimi nəzərə alsaq, təlim üçün ən optimal şərait yaratmış olarıq. Nəzərə almaq deyəndə, ən sadə və mümkün olan tədbirlər əhatə olunur. Əgər uşaqda sol göz aparıcı kimi müəyyənləşdirilibsə, onu sağ sırada əyləşdirməklə sol gözünə üstünlük verib, informasiyanın qavramasını və mənimsəməsini tezləşdirmək və yaxşılaşdırmaq mümkündür.

Kompleks müayinənin nəticələri uşağın tibbi (ambulator) kartasında qeyd edilir, lazım gəldikdə məktəbə, yeniyetmələr kabinetinə, böyüklər üçün ambulatoriyaya, nəhayət (oğlanlarkı) hərbi komissarlığa göndərilir. Solaxaylığın həqiqi yoxsa mərkəzi sinir sisteminin xəstəliyinin (beyin

iflicinin qalıq əlamətləri və s.) nəticəsi olaraq, uşağı sağ əlin parezi ucbatından sol əldən istifadəyə məcbur etdiyini təkcə həkim müəyyənləşdirə bilər.

Solaxaylığın psixogigiyenası və psixoprofilaktikası bir birinə bağlı və ardıcıl tədbirlərdən ibarətdir. Belə tədbirləri bu cür xəssas uşaqlara diqqətli yanaşmanın zəruriliyini dərk edən, həmin uşaqla ünsiyyət qurmağın düzgün taktikasını seçən və onun inkişafı və təlimi üçün müəyyən şərait yarada bilən tərbiyəçi, müəllim, psixoloq və tibb işçiləri həyata keçirməlidirlər. Onların əsas məqsədi – mümkün qədər erkəncə funksiyaların pozulmasını müəyyən edib, korreksiyasına başlamaqdır. Solaxay uşağın fəaliyyətində ünsiyyət çox mühüm yer tutaraq, ona müsbət emosional qüvvə verir. Böyüklər və həmyaşıdlarla ünsiyyətdə yaranan çətinliklər onlar üçün əlavə travmatik faktora çevrilir.

Solaxayların intellektual inkişafı, ümumiyyətlə, norma dairəsindədir, amma bəzi xüsusiyyətləri qeyd etmək istərdim. Solaxaylarda, o birilərinə baxmış, daha çox qeyri verbal intellektin, xüsusən də, məkani təhlil - tərkibin, görmə ilə bələdləşmənin pozulmasına rast gəlinir. Solaxay uşaqların təliminin effektivliyini artırmaq üçün beynin sağ yarımkürəsinin imkanlarından daha çox istifadə etmək məsləhət görülür. Bu da təlim prosesində materialın obrazlığının, emosionallığının artırılmasını, bu prosesə qeyri iradi yaddaşın, hissi qavramanın cəlb olunmasını, müxtəlif əyani vəsaitlərdən geniş istifadə edilməsini nəzərdə tutur.

Uşaqların məktəbə adaptasiyasının mühüm faktorlarından biri də *yazı vərdişlərinin* mənimsəməsi prosesidir. Solaxay uşaqlara gəldikdə bu, xüsusilə aktualdır.

Yazı nitq fəaliyyətinin xüsusi forması olmaqla yanaşı, həm də ali psixi funksiyaların inkişaf səviyyəsinin bir növ indikatorudur. M.N. Ovçinnikova yazı təlimində xüsusi metoddan istifadə edir. Uşaqlara əvvəlcə vərəq üzərində düzgün işarənin istinad nöqtələrinin qeyd olunmasını, sonra isə bu nöqtələri bitişdirici xətlərlə necə birləşdirəcəyini təhlil etməyi tapşırır. Hərfin məkani əlamətlərinin (istinad nöqtələri, xəttlər) sərbəst nizamlanması və öz hərəkətlərinə nəzarət görmə – məkani çatışmazlığı müəyyən dərəcədə korreksiya edir və yazı təliminin effektivliyini artırır.

Təlimə başlayarkən, ilk növbədə yazı zamanı əlin nə vəziyyətdə olacağını müəyyən etmək çox vacibdir.

Solaxay yazının əsasən 2 qaydası mövcuddur.

1. Daha geniş yayılan qayda: sol əl sətrin altında yerləşir (necə ki sağ əl ilə yazdıqda); bu zaman vərəq sol qol boyunca istiqamətləndirilmiş vəziyyətdə olmalıdır.

2. İnvert qayda: sol əlin biləngi yazanın sinəsi tərəfinə istiqamətlənib, yəni əl və qələm sətirdən yuxarıda yerləşir, vərəq isə sağ tərəfə yönəldilmiş vəziyyətdə olmalıdır.

Solaxay uşaq özü münasib, daha rahat və sürətcə o biri yollardan geri qalmayan yazı qaydasını seçməlidir. Yazı zamanı düz oturmaq, sinəni masaya dirəməmək, başı bir az sağa əymək, ayaqları döşəməyə dirəmək lazımdır. Əllər parta ya masa üzərində belə yerləşdirilməlidir: sol dirsək partanın qırağına çıxmalı, sol əl vərəq üzərində sərbəst hərəkət etməli, sağ əl isə vərəqi tutub saxlamalı, lazım gəldikdə (sətir dolduqda) qabağa itələməlidir. Sol ovuc, demək olar, bütöv masa səthinə döndərilməlidir; çeçələ barmağın dırnaqlı falanqası və ovucun aşağı hissəsi istinad nöqtələri olmalıdır. Qələm isə sağ əllə tutulduğu kimi tuturlar.

Solaxay uşağa dəftərin sətirlərində bələdləşmək bəzən çətin olur. O, çox vaxt dəftərin sağ və sol tərəfini səhv salaraq, yazını sağdan başlamağa cəhd göstərir. Belə hallarda hər vərəqin sol tərəfini rəngli karandaşla nişanlamaq lazımdır və uşağa yazının məhz buradan başlanması başa salınmalıdır.

Solaxay uşaqlar daha çox çevrilmiş (güzgüdə görünən kimi) yazıya meyllidirlər. Bunu aradan qaldırmaq üçün uşağa bir müddət hərfləri və sözləri trafaretlə yazmaq tövsiyə edilməlidir. Bu zaman uşağın sol əli saatla və ya qolbaqla nişanlanmalı və məhz saat olan tərəfdən yazıya başlamaq, yəni soldan sağa, öyrədilməlidir. Sütunla çıxma, toplama, vurma saat əqrəbi istiqamətində, bölmə isə saat əqrəbinin əks istiqamətində aparılmalıdır.

Beləliklə, böyüklər bütün səylərini solaxay uşaqların həyatı, səhhətinin qorunması, tərbiyəsi və təlimi üçün lazımı şəraitin yaradılmasına yönəltməlidirlər. Əsas məsələ isə hər vasitə ilə solaxay uşağın həyatından «dekstrastressin», yəni cəmiyyətdə çoxluq təşkil edən sağ («dekstra» latınca «sağ» deməkdir) əli aparıcı olanların və təbii solaxaylıqı qəbul etməyənlərin tərəfindən təzyiqə məruz qalmasının aradan qaldırılmasından ibarətdir. Bir də ki heç vaxt nə evdə, nə məktəbdə solaxaylıq artıq söhbətlərə səbəb olmamalıdır.

Solaxay uşaqların peşə seçiminə və inkişafına gəldikdə isə... Diqqətlə bu adları oxuyun: Leonardo da Vinçi, Yuli Sezar, Makedoniyalı İskəndər, Napoleon, Albert Eynşteyn, Bencamin Franklin, Bill Klinton, Corc Buş və s. – bu məşhur insanlar solaxay olublar. Solaxay uşaqlar mütləq bu adları bilməlidirlər – bu onlarda müsbət özünüqiymətləndirmənin formalaşmasına kömək edər. Valideynləri isə solaxay uşaqların peşə seçimi narahat etməməlidir, çünki elə bir peşə sahəsi yoxdur ki, orada solaxaylar çalışmasınlar. Hətta solaxayların sağ əli də yaxşı inkişaf etdiyindən, onlar hər iki əlin fəal iştirakın tələb edən peşələrı daha yaxşı mənimsəyirlər.

# MÜƏLLİM NÜFUZU HAQQINDA

**Sabir AĞARZAYEV,**
Dəvəçi rayon təhsil şöbəsinin müdiri

Respublikamızda təhsil islahatının müvəffəqiyyətlə həyata keçirildiyi, bir sıra yeniliklərin təhsil sitemimizə daxil olduğu indiki şəraitdə müəllim mühüm rol oynayır. Yeni texnologiyaların, interaktiv metodların müvəffəqiyyətlə tətbiqi müəllimdən öz bacarığını qoruyub saxlamağı, əyintiyə yol vermədən onu zənginləşdirməyi tələb edir. Yalnız öz peşəsinin müqəddəsliyini başa düşən, onu sevən, əməyini düzgün qiymətləndirməyi, şərəfli adını qorumağı bacaran müəllimlər bu işi ləyaqətlə yerinə yetirə bilirlər. Məhz belə müəllimlər pedaqoji kollektivdə, müəllimlər, valideynlər, şagirdlər, ictimaiyyət arasında nüfüzü ilə seçilirlər.

Müəllimin nüfuzu həmişə diqqət mərkəzində olmuşdur. N. Nərimanov 1924-cü ildə SSRİ Mərkəzi İcraiyyə Komitəsində işləyərkən «Bakı Pedaqoji İnstitutunun ilk məzunlarına» sərlövhəli məktubundan gələcək müəllimlərin nüfuz sahibi olmalarını nəzərə alaraq yazmışdır: «Mən istərdim ki, Siz gələcək həyatınızda üç məsələyə diqqət yetirəsiniz. Sizin tərbiyənizdə olan azərbaycanlı balaları gərək zəhmətsevər olsunlar. Sizin tərbiyənizdən çıxan cavanlarımız gərək cəsur, cürətli və dəyanətli olsunlar. Yəni bir parça çörəkdən ötrü ikiüzlülük etməsinlər, filankəsin xoşuna gəlmək üçün qatığa qara deməsinlər. Amandır, yoldaşlar! Buna yaxşı fikir verin».

Azərbaycan müəllimliyi həmişə özünün adlı-sanlı nümayəndələri ilə fəxr etmişdir. Hələ keçən əsrin 70-80-ci illərində Sosialist Əməyi Qəhramanı Məhər Quliyev, Məsmə Atakişiyeva, Zərbəli Səmədov, SSRİ xalq müəllimi Zahid Şöyübov və başqaları yaradıcı əməkləri ilə məşhur olmuşlar. Bu gün yenilik yollarında fədakar əməyi ilə tanınan müəllim ilin ən yaxşı müəllimi adına layiq görülür, orden, medal, fəxri-fərman və döş nişanları ilə təltif olunur.

Respublikamızda yüzlərlə müəllim öz nümunəsi ilə yetirmələrinə nümunə olmağa çalışır. Məhz bu prosesdə nüfuz formalaşır. K. D. Uşinski təsadüfi deməmişdir ki, müəllim şəxsiyyəti gənc qəlb üçün heç bir şeylə əvəz edilməsi mümkün olmayan məhsuldar günəş şüasıdır. Hər bir müəllim nüfuz qazanmaq üçün müəllim-şagird münasibətlərində avtoritar deyil, mehribanlıq, səmimilik, qarşılıqlı anlaşma kimi keyfiyyətlərdən istifadə etməlidir. Zorakılıq, təzyiq nüfuzuna üstünlük vermək A.S.Makarenkonun dediyi kimi, uşaqlara böyüklərdən uzaq olmağı öyrədir, onlarda qəddarlığı tərbiyə edir.

O, təzyiq, lovğalıq, pedantizm (nadanlıq), boşboğazlıq, yaltaqlıq, fırıldaq işlədərək ələalma, yalançı məhəbbət və mərhəmət yolu ilə nüfuz qazanmağa qarşı çıxır.

Müəllim unutmamalıdır ki, uşaqlar öz müəllimlərini qiymətləndirməkdə ən bacarıqlı jüridirlər. Ona görə də müəllim yalnız peşəsinə mükəmməl yiyələnməklə, yeniliyə can atmaqla, yaradıcı fəaliyyət göstərməklə, digər fənlərdən də baş çıxarmaqla, geniş dünya görüşünü nümayiş etdirməklə şagirdlərin sevimlisi olur. Sinif kollektivinin hörmətini qazanmaq üçün müəllim hər bir şagirdin xüsusiyyətlərini öyrənməli və fəaliyyətində onu nəzərə almalıdır.

Müəllim sinifdə deyinirsə, nədənsə gileylənirsə, şagirdlərin nöqsanlarını tez-tez hallandırırsa, heç bir nüfuz qazana bilməz. Usta müəllim öz peşəsinə, hazılığına şübhə oyada biləcək hallara yol verməməli, şagirdlərin inkişafına optimist münasibət bəslədiyini nümayiş etdirməli, onlarda inam yaratmalıdır. Müəllimin nüfuzu həm də onun obyektivliyi ilə əlaqədardır.

Müəllim uşaqlara qara-qorxu gəlməklə deyil, onlara öyrənməyi öyrətmək, onları obyektiv qiymətləndirməklə nüfuz qazanır.

Nüfuz qazanmaq istəyən müəllimin sözü ilə işi, əməli bir olmalıdır. Verdiyi sözə əməl etmək, dediyini vaxtında yerinə yetirmək onun nüfuzunu qaldırır. Bəzən sözünün üstündə durmaq fikrinə əməl edərək dərsdə yol verdiyi səhvi boynuna almamaq, ona düzəliş verməmək müəllimin nüfuzunu aşağı salır. Buraxdığı səhvi boynuna alıb, fikrini dəqiqləşdirərək səhəri gün uşaqlara çatıran müəllimin nüfuzu xeyli qalır.

Bəzi müəllimlər şagirdlərlə, pedaqoji kollektivlə «arada pərdə saxlamaq» məqsədilə özünü çox ağır aparır. Dərin biliyinə və dəyərli keyfiyyətlərinə baxmayaraq, sevilmir, nüfuz qazanmır. Bəzən isə hər cür müsbət keyfiyyətlərə malik olan müəllim yüngül hərəkətlərilə nüfuzunu itirir.

Deməli, nüfuz sahibi olmaq, onu qoruyub saxlamaq xüsusi qabiliyyət tələb edir. Nüfuz qazanandan sonra onun kölgəsində yaşayan, öz üzərində çalışmaq, daim öyrənmək, daha dəyərli keyfiyyətlərə yiyələnmək üzərində düşünməyən müəllimlər də nüfuzdan düşə bilərlər. Çox təəssüf ki, məktəbləblərimizdə tək-tək də olsa nüfuz qazanmayan, bu haqda düşünməyən, nəinki məktəbdə, hətta ailədə, cəmiyyətdə kifayət qədər nüfuza malik olmayan, nüfuzunu itirən müəllimlər də var. Belə müəllimlərin olmaları olmamalarından daha yaxşıdır. Rus yazıçısı Anatoli Tomilin yazmışdır: «Əgər müəllimin nüfuzu yoxdursa, şagird ondan nə bilik, nə də mənəviyyat alır. Cəmiyyət üçün pis müəllimin olması, ümumiyyətlə, müəllimin olmamasından daha qorxuludur». Beləlәri öz hərəkətləri ilə müəllimlik adına ləkə gətirirlər.

Nüfuzlu müəllimlər cəmiyyətin, dövlətin idarə olumasında mühüm rol oynayırlar. Millət vəkili seçilənlər, rəhbər vəzifələrə təyin olunanlar içərisində idarəetmə, tərbiyəetmə sahəsində fərqlənən nüfuzlu müəllimlər çoxdur. Bizim vəzifəmiz, təhsilin vəzifəsi belə müəllimlərin sayını artırmaqdır.

Bu mövzuda yazmağa məni vadar edən rayonun müəllimləri arasında öz nüfuzunun qaldırılması qayğısına qalmayanların çox olmasıdır. Təcrübə göstərir ki, yüksək nüfuza malik olan müəllimlərlə işləmək təkcə təlim-tərbiyə problemlərini deyil, həm də ictimai problemləri, ideoloji problemləri yüksək səviyyədə həll etməyə imkan verir.

## VARİSLİYİN HƏYATA KEÇİRİLMƏSİ TƏRBİYƏÇİ VƏ MÜƏLLİMLƏRİN HAZIRLIĞINDAN ASILIDIR

**Zemfira ƏSƏDOVA,**
Bakının Nizami rayonundakı 175 nömrəli
körpələr evi və uşaq bağçasının müdiri



Məktəbəqədər təhsil müəssisələri ilə məktəb arasında varisliyin təmin olunması ilk növbədə tərbiyəçi və müəllimlərin həmin problemin həllinə hazır olmalarını tələb edir. Onlar bir sıra didaktik, psixoloji, sosial məsələlərə bələd olmalı, problemə şüurlu və yaradıcı yanaşmanın forma, vasitə, metod və priyomlarını bilməlidirlər. Onların bir-birinin fəaliyyətinin məzmununa bələd olmaları da vacibdir. Buna nail olmaqda qarşıya çıxan çətinlik məktəbəqədər və ibtidai məktəbin təhsilləndirici sahələrinin çoxcəhətli olmasıdır.

Təhsilin bu iki mərhələsini yaxınlaşdıran cəhətlər hansılardır? Uşaqların yaşlıların nüfuzuna tabe olmaları; yaşlarına uyğun yeniliyi qavrama qabiliyyəti, fərasətliliyi; rastlaşdıqları hadisələrə sadəlövhlüklə yanaşmaları, ona oyun kimi baxmaları; ətraf aləmi obrazlı təfəkkürlə dərk etmələri və s.

Bunu nəzərə alaraq müəllim və tərbiyəçilər məktəbəqədər və məktəb dövründə uşaqların xasiyyətlərini ayrılıqda və birgə öyrənməlidirlər.

Əgər məktəbəqədər təhsil müəssisəsinin məzunları yaxınlıqdakı məktəbə gedəcəklərsə, dərs ilinin əvvəlində müəssisələr arasında müqavilə bağlanmalı, varisliyi təmin edən vəzifələr müəyyənləşdirilməlidir. Birgə işin istiqamətləri və məzmunu təxminən belə ola bilər: tədbirlər planının tərtibi; planın metodbirləşmələrdə müzakirəsi və təsdiqi; varisliyin təmin olunmasının əsas istiqamətləri; müəssisə rəhbərlərinin metodistlərlə müsahibəsi; təhsilin məzmun, forma, vasitə və metodlarının təkmilləşdirilməsi

üçün araşdırmaların aparılması. Uşaqların məktəb təliminə əlverişli şəraitdə, asanlıqla adaptə olunmalarını təmin etmək üçün planda aşağıdakı birgə tədbirlərin həyata keçirilməsinin nəzərdə tutulması məsləhət görülür: valideynlər iclası, valideynlər üçün «açıq qapı», məktəbəqədər yaşlı uşaqlar üçün «məktəb» məşğələsi, bayram konserti, idman yarışları, birgə oyunlar və s.

Bu prosesdə metodik işlər, uşaqlarla işlər, valideynlərlə işlər tənzimlənməlidir. Metodik işlər dedikdə, açıq dərslərdə iştirak etmək, məktəbəqədər müəssisə və məktəb psixoloqu tərəfindən uşağın məktəbə psixoloji hazırlığını təhlil etmək, tərbiyəçilərin məktəbdə təşkil olunmuş pedaqoji-psixoloji konsiliumda, pedaqoji şuralarda, seminar-praktikumlarda məktəbəqədər müəssisələrin metodbirləşmələrində iştirak etmək nəzərdə tutulur.

*Uşaqla işin təşkili:* yuxarı məktəbəqədər yaşlı uşaqların məktəbə ekskursiyasını, uşaq işlərinin sərgisini təşkil etmək; I sinif şagirdlərinin uşaq bağçası üçün oyuncaq hazırlamalarını, onlara rəsm çəkməyi öyrətmələrini təşkil etmək; məktəbəqədər yaşlı uşaqlarla şagirdlərin idman yarışlarını, birgə səhnələşdirmə və ekoloji fəaliyyətini bilik günü bayramında iştirakını təşkil etmək.

*Valideynlərlə işin təşkili:* sinif müəllimlərinin məktəbəqədər müəssisələrdə valideynlər iclasında iştirakı; müəllimlərin I sinfə gələcək uşaqların evlərinə getmələri; valideynlərə gələcək məktəblilərin yetişdirilməsi vərdişlərini aşılamaları; uşaq bağçalarında «Ailə» mikromərkəzinin, «açıq qapı» gününün təşkili.

Valideynlər, adətən, uşağa hər şeyi erkən öyrətməyə cəhd göstərirlər. Məktəbəqədər müəssisələrdə məktəb proqramının fənlərinin erkən öyrədilməsi, təkrarlanması məktəbəqədər təhsilin çoxfənli olmaqla xarici aləmdəki, ümumiyyətlə müxtəlif elm sahələri arasındakı tamlığı, vəhdəti inkar edir, uçurub dağıdır. Qavrayışın bütövlüyü pozulur. Yüklənmə, lazımsız təkrarlar təlimə marağı azaldır. Kompleks proqram hazırlanmalı, onda insan, cəmiyyət, təbiət, onun ayrı-ayrı sahələri haqqında biliklərin inteqrasiyası istiqamətləndirilməlidir.

Psixoloqların dediklərinə görə inkişafın məktəbəqədərki dövründə məktəb təlimi üçün zəmin yaradılmalı uşağın məktəbə ümumi hazırlığı təmin olunmalıdır. Psixika üçün heç bir neqativ hala yol verilməməlidir.

Tərbiyəçi və müəllimlərin hazırlığı üzrə iş aşağıdakı istiqamətlərdə təşkil olunmalıdır.

**Fiziki hazırlıq:** fizioloji hazırlıq, fəaliyyət hazırlığı, fiziki və əqli hazırlıq.

**Psixoloji hazırlıq:** şəxsi hazırlıq, intellektual-dərketmə hazırlığı, emosional-iradi hazırlıq

«Varislik» anlayışı bu gün çox geniş xarakterizə edilir. Hər hansı yaş dövrü üçün mövcud olan ümumi cəhət spesifik uşağın fasiləsiz tərbiyə və təlim prosesidir. Varisliklə inkişafetdirici təhsil sisteminin aparıcı didaktik prinsipləri və təşkilati pedaqoji şərtləri işlənmişdir. Varislik probleminin ən vacib aspektləri: məqsəd, məzmun, texnoloji, psixoloji, idarəedici və struktur-təşkilati.

Məqsədli varislik tərbiyə, təlim və inkişafın məktəbəqədər müəssisə və ibtidai məktəb uşağın şəxsiyyətinin formalaşmasının ümumi ideyasına, intellektual bacarığına, kreativliyinə, təşəbbüskarlığına, hər şeyi bilmək həvəsinə, özünüdərketməyə və özünüqiymətləndirməyə xidmət edir.

1. Məzmun varisliyi tədris planı və proqramların birləşdirilməsi, uşaqların əsas fəaliyyəti və artan kompetentliyini nəzərə almaqla mühüm təlim sahələri üzrə onların uyğunlaşdırılmasını təmin edir.

Əlavə təhsilin (xüsusilə dərnəklərin işi) təşkilində varislik və məktəbəqədər ibtidai məktəbin prioritet istiqamətlərinin həyata keçirilməsi nəzərə alınır.

2. Texnoloji varislik təlimin ümumi vasitələrinin seçilməsi ilə təmin olunur. Bu zaman məktəbəqədər müəssisənin məktəbəhazırlıq qrupları və ibtidai siniflərdə təlm-tərbiyə prosesinin təşkilinə ümumi yanaşma yaranır, məktəbəqədər yaşlı uşaqların təlimi həyata keçirilir.




Məzmun komponeıntləri pedaqoji prosesin uşaqların yaradıcı inkişafının vahid kontekstdə qurulmasına imkan verir. Bu, məhsuldar təxəyyülü və yaradıcı təfəkkürü formalaşdırır.

3. Psixoloji varislik uşaq bağçası və məktəbdə yaş xüsusiyyətlərini nəzərə almaqla təlimin forma və metodlarının təkmilləşdirilməsi ilə təmin edilir. Bu zaman uşaq bağçası və məktəbdə müsbət fəal ünsiyyətə əsaslanan intellektual, hərəki və emosional adekvat yükün birləşdirilməsi təmin edilir.

4. İdarəedici və struktur-təşkilati varislik əlaqənin təşkili və idarə olunmasına ümumi yanaşma təmin edilir. Bu, kiçik pedaqoji şura, dəyirmi stol, seminar, praktikum, birgə iclas, mütəxəssislərin metodik müşavirəsi kimi birgə tədbirlərin gedişində yaradılır.

Məktəbəqədər və ibtidai təhsil müəssisələri arasında varisliyin həyata keçirilməsi üzrə işin ən mühüm mərhələsi uşaq bağçasının gələcək məzunu üzərində psixoloji-tibbi-pedaqoji kompleks yanaşma prosesində informasiyanın toplanmasıdır. Buna əsasən valideynlərlə birgə kollektiv və fərdi formada işin aparılması təmin edilir. Nəticə birgə müzakirə olunur.

Uşağın məktəbə uyğunlaşmasının səviyyəsini müəyyənləşdirmək məqsədilə motrinqi keçirilir. Dərsdə uşaqlarla müsahibə aparılır, səmərəlilik cədvəlini doldurmaqla adaptasiyanın nəticəsi öyrənilir. I sinif müəllimləri, böyük və məktəbəhazırlıq qruplarının tərbiyəçilərindən ibarət mini pedaqoji şurada işə yekun vurur. Qarşıya çıxan çətinliklərin müzakirəsi gələcək işin planlaşdırılmasına və təkmilləşdirilməsinə istiqamət verir. Beləliklə, məktəbəqədər və ibtidai təhsil arasında təhsillərdirici səviyyənin məzmunu və təşkili yolları işlənir.

Təcrübə göstərir ki, tərbiyəçi və müəllimlərin pedaqoji və psixoloji hazırlığı aşağı səviyyədə olduqda varislik üzrə iş kortəbii gedir və lazımi nəticə vermir. Belə hallarda uşaqlar ciddi çətinliklərlə qarşılaşır, onların bir qismi yetirməyənlər sırasına keçir.

Psixoloji cəhətdən hazır olan uşaqda məktəbə, təhsilə məsuliyyətli münasibət formalaşır. O, öz davranışını sərbəst idarə edir, əqli işin yerinə yetirilməsinə, şüurlu mənimsənilməsinə nəzarət edir.

Tərbiyəçilərin beşyaşlılar üçün xasiyyətnamə tərtib edərək I sinif müəlliminə verməleri varisliyin dərinləşdirilməsi üçün mühüm şərtdir. Ola bilər ki, aralarında sıx əməkdaşlığın yarandığı şəraitdə xasiyyətnamə valideyn, tərbiyəçi və müəllim birliyi tərəfində yaradılsın.

## ƏYANİLİK PRİNSİPİNDƏN İSTİFADƏNİN PSİXOLOJİ ASPEKTİ

**Lalə KƏRİMOVA,**
Azərbaycan Müəllimlər İnstitutunun dissertantı



Dərsin səmərəliliyi xeyli dərəcədə şagirdlərdə təlimə, öyrənilən materiala marağın yaradılmasından asılıdır.

Maraq fizioloji baxımdan İ.P. Pavlovun ilk dəfə diqqət yetirdiyi və «bələdləşmə refleksii» adı verdiyi hadisə ilə bilavasitə əlaqədardır. Bələdləşmə refleksi isə hər hansı yeni, gözlənilməz dəyişiklik nəticəsində qıcıqlandırıcının aydın və tam şəkildə inikasına, daha dərindən anlaşılmasına imkan verir.

Təlimin ibtidai mərhələsində biliklərə marağın oyadılmasında əyaniliyin rolu daha böyükdür. Bu onunla əlaqədardır ki, əyani vasit hadisələrin mənimsənilməsinin fərdi prosesini idarə etməyə şərait yaradır, şagirdin idraki marağını stimullaşdırır, onda təlim işinə yüksək emosional münasibət formalaşdırır.

Sinif müəllimi öz təcrübəsində əyanilikdən materialın mənimsənilməsi prosesinin stimullaşdırılması, informasiyanın yadda saxlanılması və yada salınması vasitəsi kimi istifadə edir. Əyanilik kiçikyaşlı məktəblinin təxəyyülünün, görmə və emosional yaddaşının, qabiliyyətlərinin inkişafına təkan verir.

Psixoloji ədəbiyyatda marağın həcmi, dərinlik və davamlılığı, qüvvəsi və s. üzərində dayanılır. Maraqlar fəal və qeyri-fəal ola bilir. Qeyri-fəal maraq şagirdi fəaliyyətə sövq etmək iqtidarında deyil. Maraq qüvvətli olduqda insan fəallaşır. Müəllim əyaniliyin elə növlərindən faydalanmalı, ondan elə istifadə etməlidir ki, şagirdin fəal marağı işə düşsün.

Əyanilik təlimin ən səmərəli prinsiplərindən biridir. Əyani vəsaitələrin köməyi ilə müəllim obyektiv gerçəkliyin fraqmentlərini modelləşdirir. Obyektin qavranılması, obrazının yaradılması prosesində duyğu ilə yanaşı, yaddaş və təfəkkür də iştirak edir. Şagirdin obrazı təhlil etdiyi fikir yürütdüyü, qavradığı təqdirdə onun obyekti əyaniləşir. Əyani materialın təlimə daxil edilməsi ən azı 2 psixoloji amili nəzərə almaq tələbatını meydana çıxarır:

- mənimsəmə zamanı əyani material hansı rolu ifa etməlidir;
- əyani materialın məzmununun dərketməyə və mənimsəməyə təqdim olunan predmetlə nisbəti necədir?

Təlim prosesində əyani materialın yeri və rolu şagirdlərin fəaliyyətinə münasibəti ilə müəyyən olunur ki, bu münasibətdə müvafiq material həmin fəaliyyətin məqsədində yer tutmağa, mənimsənilməsi zəruri olan materialın dərk olunmasına aparan fəaliyyətə qadirdir. Əyani obraz özözünə deyil, kiçikyaşlı məktəblinin fəal idrak fəaliyyəti nəticəsində meydana gəlir. Təsviretmə obrazları qavrama obrazlarından fərqlidir. Məzmununa görə onlar qavrayışın zəngin obrazları olub, aydınlığına, sabitliyinə, davamlılığına, tamlığına və yaddasaxlamanın uzunmüddətinə görə şagirdlərdə fərqlənir.

Əyanilik insanın qavrayış, yaddaş, təfəkkür və təxəyyül prosesində yaratdığı psixi prosesin sadəliyi və aydınlığının göstəricisidir. Odur ki, real əşya və hadisənin obrazı olduğu kimi, real şəkildə mövcud olmayan və yalnız əyaniliyin köməyi ilə bizim təxəyyülümüzdə yaradılan əşya yaxud hadisələrin obrazı ola bilir. Əyanilik real obyektlərin, əşya və ya hadisələrin hansısa xassəsi deyil, onların psixi obrazlarının xüsusiyyətləridir.

Obrazların əyanilik dərəcəsi şagirdin fərdi xüsusiyyətlərindən, onun biliyindən, təxəyyülünün səviyyəsindən, həmçinin qavrayışın ilkin obrazlarının əyanilik səviyyəsindən asılı olaraq fərqlidir.

Hər bir şagirdin bilavasitə qavramadığı obrazlar mövcuddur. Onlar şagirdə tanış və aydın təxəyyül obrazlarıdır olan elementlərdən, qavrayış və təsəvvür obrazlarından formalaşdırılmış. Məktəbli təxəyyülün köməyi ilə ilk növbədə öz əməyinin obyektini təsəvvür edir, yalnız sonra onun yaradılmasına (inşanın yazılması, modelləşdirmə, rəsm, toxuma, yapma və s.) keçir. Bu zaman o öz fəaliyyətində müxtəlif variantları təsəvvürə gətirir. Hissi idrak şagirdə əyani təsəvvürlər formasında obyekt barədə ilkin informasiya verir. Təfəkkür bu təsəvvürləri işləyib hazırlayır, müxtəlif obyektlər arasında münasibətləri və əhəmiyyətli xüsusiyyətləri müəyyənləşdirir, bununla da məzmuna görə dərkolunan və yaddasaxlanılan obyektlərin psixi obrazlarının daha ümumiləşdirilmiş olmasına, daha dərindən yaradılmasına kömək göstərir.

Sinif müəllimi əyaniliyin müxtəlif növlərindən (əşya və hadisələr, onların təsviri, modelləri, maketləri, sxemlər, diaqramlar, cədvəllər və s.) istifadə edir. Didaktik prinsip olmaq etibarilə əyanilikdən həm yeni materialın şərhi, həm tədris materialının möhkəmləndirilməsi, həm də mənimsəmənin yoxlanılması prosesində istifadə edilir.

Əyani obrazlar qeyri-iradi deyil, obrazın yaradılmasına istiqamətlənmiş fəal iş nəticəsində meydana gəlir. Belə deyirlər ki, əyani modelləşdirmə elmi idrak sahəsindəki təxəyyüldür, lakin elmi idrakda təxəyyülün funksiyası əyani modellərin yaradılması ilə məhdudlaşmır. Təxəyyül fəal surətdə fikri eksperimentdə təzahür edir və modelləşdirmənin komponentinin keyfiyyətini özündə birləşdirir. Əyani modellərin yaradılması elmi idrak prosesində təxəyyülün ən mühüm funksiyasıdır.

Modelləri iki tipə ayırmaq mümkündür: maddi modellər və ideal (təfəkkürə əsaslanan və təxəyyüldə canlandırılan) modellər. Bu modellər bir-biri ilə sıx surətdə bağlıdır. Onun planı bəzi nümunələrin yaradılmAsına imkan verdiyindən ideal, yaxud təfəkkürə əsaslanan və təxəyyüldə canlandırılan model maddi modelin prototipi ola bilər. Maddi model öz növbəsində ideal məzmun və ideal modelin formalaşdırılması üçün əsas ola bilər. Təxəyyüldə canlandırılan model dedikdə, təxəyyülün, hissi obrazın qaynayıb qarışan, tədqiqat vəzifələri və elmi mücərrədləşmə ilə formalaşdırılan əqli fəaliyyət anlaşılır.

Təxəyyülü canlandıran modelin funksiyalarına daxil olan əyani təsəvvürlər bir sıra əməliyyatlardan formalaşdırılır. Ən mühüm əməliyyat olaraq, mücərrədləşdirməni və ümumiləşdirməni, təhlil və tərkibi praktik fəaliyyət əsasında həyata keçir və sözün vasitəçi rolu ilə sıx bağlı olaraq təsəvvürün anlayışla vəhdətində reallaşır. Təfəkkürdə mücərrədləşdirmə və

ümumiləşdirmə, təhlil və tərkib heç də həmişə modelləri təxəyyüldə canlandırmır. Bu funksiyaların nəticəsi təsəvvürlərin əyani ümumiləşdirilməsi ola bilər.

Didaktikada əyanilik anlayışı qavrayışın müxtəlif növlərinə (görmə, eşitmə, toxunma hissi ilə əlaqədar olan və s.) aid edilir. Əyaniliyin bütün növləri əhəmiyyətli və faydalıdır. Onlar arasında ayrı-seçkiliyə yol vermək məsləhət deyil. Belə ki, təbiəti öyrənərkən («İlin fəsilləri», «Hava» və s.) təbii obyektlər, təbiətə yaxın təsvirlər daha böyük rol oynayır. Azərbaycan dilinin qrammatikasının tədrisi prosesində sözlər arasındakı münasibətləri ifadə edən cədvəllərə, sxemlərə, dioqramlara, şərti təsvirlərə, oxlara, əyrilərə, ayırma vasitələrinə və s. müraciət olunur. S.L. Rubinşteyn yazırdı ki, «İnsan o zaman fikirləşməyə başlayır ki, onda nəyisə anlamağa tələbat yaranır. Təfəkkür həmişə problemə, yaxud suala, təəccüb, yaxud heyrətdən başlanır. Bu, problem situasiya ilə, şəxsiyyətin təfəkkür prosesinə cəlb edilməsi ilə müəyyən olunur və həmişə hansısa vəzifələrin həllinə istiqamətlənir». Əyanilik psixi obrazın elə sadə, adi, aydınlıq və aşkarlıq göstəricisidir ki, təhsil alan bunu qavrayış, yaddaş, təfəkkür və təxəyyül prosesində yaradır.

Əyani vəsaitlərdən məqsədyönlü şəkildə istifadə edilməlidir. Dərsi çoxsaylı əyani vəsaitlərlə yükləmək olmaz. Belə hallar şagirdlərin diqqətini daha əhəmiyyətli məsələlərə yönəltməyə, başlıcanı müəyyənləşdirməyə maneə törədir. Əyani vəsaitlərin belə məqsədyönlü olmayan şəkildə tətbiqi, təbii ki, səmərəli təsir göstərmir, əksinə, biliklərin lazımi səviyyədə mənimsənilməsinə və məktəblilərin inkişafına mane olur. Əyanilik sayəsində mənimsənilən materialın praktik tətbiqi üçün şərait yaranır. Məktəblilərdə zəruri obraz təsəvvürləri varsa, anlayışların formalaşdırılması üçün, şagirdin mücərrəd təfəkkürün inkişafı üçün onlardan istifadə olunmalıdır. Təlimin praktikasında əyani vasitələrin tətbiqi müəllimin sözü ilə vəhdət təşkil edir. Söz və əyani vasitələrin uzlaşdırılması formalarını, onların variantlarını və müqayisəli səmərəliliyini bilmək müəllimə imkan verir ki, yaradıcı şəkildə, məqsədyönlü surətdə irəli sürülən didaktik vəzifələri yerinə yetirsin, əyaniliyi tədris materialının xüsusiyyətlərinə və təlimin konkret şərtlərinə uyğun tətbiq etsin.

Təxəyyüldə canlandırılan modellər təxəyyül obrazlarının sırasına daxildir. Onlar bəzi ümumi əlamətlərinə görə fərqlənir. Buraya əyani planda obrazın yenidən qurulması, qismən, yaxud tam müşahidə etmədiyimiz və fəaliyyətin, yaxud idrakın müəyyən vəzifələrinə uyğun gələn obrazın formalaşdırılması kimi xüsusiyyətlər daxildir.

Dərsdə əyanilik prinsipinin səmərəli şəkildə tətbiqi tələb edir ki, müəllim əyaniliyin vəzifələrini aydın təsəvvür etsin:

1. Əyanilik bütün analizatorların və onlarla bağlı olan duyğu, qavrayış və təsəvvür kimi psixi proseslərin fəal vəziyyətə gətirilməsinə kömək edir. Nəticədə uşaqların və müəllimin ümumiləşdirici analitik təfəkkür fəaliyyəti üçün zəngin empirik əsas yaranır.

2. Şagirdlərdə vizual və dinləmə mədəniyyəti formalaşır.

3. Hadisələrin formasının, mahiyyətinin, strukturunun, nəzəri müddəaların təsdiqi üçün əlaqələrin və qarşılıqlı əlaqələrin yaradılmasına kömək edir.

4. Suallara əsasən məktəblilərin materialı necə mənimsəmələri məlum olur. Əks informasiya yaranır.

Təlimin səmərəliliyi əksər hiss üzvlərinin fəaliyyətə gətirilməsindən çox asılıdır. Tədris materialının hissi qavranılması nə qədər müxtəlifdirsə, daha möhkəm mənimsənilir. Bu qanunauyğunluq əyanilik kimi didaktik prinsipdə öz əksini tapır. «Prinsip» (lat: *prinsipium*) termini «əsas, ilkin, rəhbər ideya, təməl, bünövrə, başlanğıc» deməkdir. Prof. A.N. Abbasovun qənaətincə, «pedaqoji prosesdə müəllimin rəhbər tutduğu, şagirdlərin təlim fəaliyyətinə və davranışına verdiyi əsas qayda, ideya və tələblər»dir (1, s. 14). Bu əsasda professor təlimin prinsiplərinə aşağıdakı şəkildə aydınlıq gətirir: «təlimin prinsipləri – Gənc nəslin təhsili və tərbiyəsinin məqsədinə uyğun olaraq təlim-tərbiyənin xarakterini müəyyənləşdirən əsas müddəalar» (1, s. 17).

Əyanilik «ağıl üçün qida» olaraq baş beyin qabığının idraki sisteminə daxil edilməlidir. İnformasiyanın işlənib hazırlanması prosesində bu və ya digər dərəcədə tədqiq olunan obyekt barədə məzmunlu biliklər verməlidir.

B.V. Belyayev yazır: «Tədris materialı üç metoda - həm görmə, həm eşitmə, həm də hərəki metodlara əsaslandıqda yadda möhkəm qalır. Odur ki, təlim prosesi əyani vəsaitlərlə optimallaşmalı, dərsliklər və dərs vəsaitləri isə gözəl tərtib olunmalıdır ki, təhsil alanların diqqətini cəlb edə bilsin.

Əyanilik kiçikyaşlı məktəbli şəxsiyyətinin emosional tərəfinə təsir edir. Məlumdur ki, görmə orqanları böyük hissiyyata malik olmaqla fərqlənir. Atalarımız heç də təsadüfi deməmişlər ki: «Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır». Görmə orqanları məlumata yiyələnməkdə eşitmə orqanlarından ən azı 5 dəfə fəaldır. Görmə prosesində əldə edilən məlumat asanlıqla insanın yaddaşında həkk olunur və uzun müddət yadda qalır. Müəllimin sözü ilə uzlaşmada tətbiq olunan əyanilik I və II siqnal sistemlərini hərəkətə gətirir. Bu da tədris materialının möhkəm mənimsənilməsini təmin edir. Əyani vəsait obrazların, təsəvvürlərin yaradılmasına kömək edir, təfəkkür və təsəvvürləri anlayışlara çevirir.

# AİLƏ UŞAQLARDA ƏXLAQ TƏRBİYƏSİNİN FORMALAŞMASININ ƏSASI KİMİ

**Könül GÜLMƏMMƏDOVA,**
ADPU-nun, magistrı,
Sumqayıt şəhər 3 nömrəli orta məktəbin müəllimi



Ailə uşaqların tərbiyəsində əsas və uzunmüddətli rolu olan xüsusi qurumdur. Onun təsir gücü o qədər böyük və əhəmiyyətlidir ki, uşaqların sonrakı inkişafı, əsasən, burada aparılan tərbiyənin necəliyindən asılı olur. Valideynlərin uşaqlara həddən artıq irad tutmaları, onlara yerli-yersiz təzyiqləri və tələbləri nəticəsində uşaqlarda özlərindən narazılıq, inamsızlığın yaranmasına səbəb olur. Necə etmək lazımdır ki, ailənin uşaqların tərbiyəsinə göstərdiyi müsbət təsir artsın? Bunun bir çox amilləri vardır. İlk növbədə mühüm tərbiyəvi əhəmiyyət daşıyan ailədaxili sosial-psixoloji amilə diqqət yetirmək lazımdır. Balacaların tərbiyəsində ən başlıca məsələ uşağa hörmətlə tələbkarlığın əlaqələndirilməsi, valideynlə uşaq arasıda mənəvi yaxınlığın yaranmasıdır. Hər hansı halda valideynlər tərbiyə prosesini diqqət mərkəzində saxlamalı, övladlarının hər bir hərəkətinin, hər bir sözünün onların tərbiyəsində müəyyən iz buraxdığını nəzərdən qaçırmamalıdırlar.

Uşaq ilkin həyat təcrübəsini, müxtəlif situasiyalarda özünü necə aparmaq qaydalarını ailədə qazanır. Valideynlərdən hər biri uşaqlarında özlərinin davamçılarını, ideya və ya arzularını həyata keçirəcək insanları görürlər. Bu baxımdan hər bir ata-ana öz davranışında ehtiyatlı olmalı, onların uşaqların gözlərindən yayınmadığını unutmamalıdırlar.

Kiçikyaşlı uşaqların tərbiyəsinə ailə mühitində təsir göstərən ən mühüm amillərdən biri ailədaxili münasibətlərdir. Valideynlər arasındakı münaqişə situasiyaları uşaqların tərbiyəsinə müxtəlif cür yanaşmalarına səbəb olur. Buna yol verməmək üçün valiedynlərin öhdəsinə bir sıra vəzifələr düşür:

– Ortaq qərara gəlməyi bacarmaq, bir-birinə inanmaq mühüm şərtdir. Əgər kompromisə getmək gərəkdirsə, bu zaman tərəflərin əsas tələbləri nəzərə alınmalıdır. Valideynlərdən biri qərar qəbul edərkən digərinin mövqeyini yaddan çıxarmamalıdır.

– Elə etmək lazımdır ki, uşaq valideynlərin mövqeyindəki narazılığı görməsin. Buna nail olmaq üçün hər hansı problemi uşağın iştirakı ilə deyil, onsuz həll etmək lazımdır. Uşaqlar baş verən hadisələri çox tez başa düşür, deyilənləri tez tutur, sonra ondan istifadə etməklə valideynlər

arasında manevrlər (tənbəllik, dərs oxumamaq, sözə qulaq asmamaq və s.) etməyə çalışaraq ani xeyir qazanmaq istəyirlər. Valideynlər qərar qəbul edərkən ilk növbədə şəxsi mənafelərini deyil, uşağa nəyin daha xeyirli olacağını fikirləşməlidirlər.

Uşaqda özünüqiymətləndirmə, özünə inam formalaşmasında ailə tərbiyəsi üslubu böyük əhəmiyyət kəsb edir. Bu baxımdan pedaqoji və psixoloji ədəbiyyatda ailə tərbiyəsinin aşağıdakı üslubları fərqləndirilir:

demokratik; avtoritar; özbaşına,səhlənkar;

Demokratik tərbiyə üslubu zamanı, hər şeydən əvvəl, uşağın maraqları nəzərə alınır. Bu, həmçinin, razılıq üslubu adlanır.

Avtoritar üslubda valideynlər öz rəylərini uşaqlara təlqin edirlər. Bu üslub təzyiqetmə üslubu kimi xarakterizə olunur.

Özbaşına, səhlənkar üslub zamanı uşaq nəzarətsiz qalır. O, özünü ona yaxın böyüklərin, tərbiyəçilərin gözü ilə görür. Əgər qiymətləndirmə ailədə uşağın yaş və fərdi xüsusiyyətlərinə uyğun gəlmirsə, onun özü haqqındakı təsəvvürləri pozulmuş, təhrif edilmiş olur. M.İ.Lısina ailə tərbiyəsinin xüsusiyyətlərindən asılı olaraq məktəbəqədər yaşlı uşaqların özünüdərketməsinin inkişafını izləmişdir. Özləri haqqında dəqiq təsəvvürə malik olan uşaqlar o ailədə tərbiyə olunurlar ki, valideynlər onlara kifayət qədər vaxt ayırır, onların əqli və fiziki keyfiyyətlərini müsbət qiymətləndirməklə yanaşı, bu xüsusiyyətlərini başqa yaşıdlarınkından üstün hesab etmir, məktəbdə müvəffəq qiymətlərlə oxuyacaqlarını bildirirlər. Uşaqları hədiyyələrlə deyil, sözlə, onlara inam göstərməklə mükafatlandırırlar. Cəzalandıranda isə, əsasən, ünsiyyətdən kənarlaşdırırlar. Şübhəsiz heçə də bütün ailələrdə uşaqlara belə münasibət bəslənilmir.

Özləri haqqında zəif təsəvvürə malik olan uşaqlar o ailədə böyüyürlər ki, orada onlarla məşğul olmur, ancaq itaətkar olmağı tələb edirlər. Valideynləri onları zəif qiymətləndirir, tez-tez irad tutur, hərdən kənar adamların yanında da cəzalandırırlar. Çox vaxt məktəbdə onların müvəffəqiyyət əldə edəcəklərinə şübhə ilə yanaşır, gələcəkdə onlardan heç bir nailiyyət gözləmirlər.

Uşağın adekvat və qeyri-adekvat hərəkətləri onların ailə tərbiyəsinin şərtlərindən asılıdır. Özünə zəif qiymət verən uşaq həmişə özündən narazı uşaqdır. Valideynləri onu daim töhmətləndirir, ona öhdəsindən gələ bilməyəcəyi tapşırıqlar verir. Uşaq valideynin tələblərinə cavab verə bilməyəcəyini hiss edir. Buna görə də valideyn heç vaxt uşaq haqqında «bacarıqsızdır» deməməlidir. Belə şəraitdə formalaşan mənfi hisslərdən sonralar da yaxa qurtarmaq mümkün olmur.

Qeyri-adekvatlıq uşağın fəaliyyətinin qiymətləndirilməsinin şişirdilməsi zamanı da baş verir. Bu, ilə ailələrdə olur ki, orada uşağı yerli-yersiz tərifləyir, kiçik nailiyyətinə görə ona hədiyyələr verirlər. (Doğrudur,

hərəkətlərinə görə bəzi hallarda hədiyyə bağışlamaq olar, lakin onları maddi təltiflərə alışdırmaqzərərlidir.) Belə ailələrdə uşaq çox nadir hallarda cəzalandırılır və tələbetmə sistemi çox yumşaq olur.

Məktəbəqədər yaşlı uşaqların tərbiyə olunmalarında, onların rəğbətləndirilmə və cəzalandırılmalarında çox elastik, mahir tərzdə, ustalıqla tərtib olunmuş cəza və tərif sistemi olmalıdır. Uşağın hərəkətlərinə valeh olmaq və tərifləmək pis nəticə verir.

O ailələrdə ki, uşaq şəxsiyyətinə (onun maraqlarına, zövqünə, dostları ilə münasibətinə) diqqət ona verilən tələblərlə üst-üstə düşür, həmçinin insanı alçalda biləcək cəzalara üstünlük verilmir, orada uşaqlar özünə yüksək qiymət verir, özünə inanırlar. Özünə inamı az olan uşaq evdə çox sərbəstdir ,hərəkətlərində azaddır, ancaq bu azadlıq öz mahiyyətinə görə nəzakətsizlik, valideynlərə, dostlarına və bir-birlərinə laqeydlikdən başqa bir şey deyildir.

Müşahidələr göstərir ki, məktəbəqədər yaşlı uşaqlarda baxımsızlıq üzündən bir çox hallarda nəzakətsizlik, kobudluq, səhlənkarlıq pintilik, səliqəsizlik kimi hallara təsadüf edilir. Bəzən özləri də hiss etmədən valideynlər uşaqlarda qeyri-mədəni vərdişlərin yaranmasına səbəb olur və bundan sonra, adətən, uşaq tərbiyəsində səhvə yol verdikləri üçün bir-birini müqəssir bilirlər. Bəs müqəssir kimdir? Belə yanlış tərbiyə üçün ailənin yaşlı üzvləri, xüsusilə valideynlər öz yaxalarini kənara çəkə bilərlərmi? Əlbəttə, yox. Aydındır ki, uşaqlarda təqlidçiliyə meyl çox güclü olur. Uşaqlar, xüsusilə 3 yaşa kimi, ailədə yaşlıların hərəkətlərini təqlid edirlər.Ailədə ata ilə ana arasında qeyri-mədəni rəftarı, münasibəti görən, kobud ifadələri, səs-küyü, qışqırığı, söyüşü eşidən uşaq öz yaşıdları ilə, hətta baba və nənələri ilə də həmin tərzdə danışırlar.

Uşaqların əxlaqi cəhətdən formalaşmağa başlamaları onların davranışında ifadə olunur. Bu hısslər qohum və yaxın adamlara rəğbət, hörmət, məhəbbət göstərməkdə, nəzakətlə salamlaşıb-xüdahafizləşməkdə, yeməkdən sonra razılıq etməkdə, səhər yataqdan qalxdıqda salamlaşmaqda, axşam yatarkən «gecəniz xeyrə qalsın» deməkdə, bayram münasibətilə valideynləri, yaşlıları təbrik etməkdə, yaşlılara və özündən kiçiklərə yol verməkdə və s. hallarda özünü göstərməlidir.

Uşaq valideynlərinin tələblərini yerinə yetirməyə alışdırılmaqla yanaşı, həm də xəstələrə, zaiflərə, qocalara, əlillərə, özündən kiçiklərə xidmət etmək vərdişlərinə də yiyələnməlidir.

Görkəmli Azərbaycan maarifçisi və pedaqoqu F.Köçərli uşaq tərbiyəsində ailənin rolundan bəhs edərkən yazırdı: «Uşaq öz ailəsində sədaqət, zəhməti sevmək, yaxud adamlara məhəbbət görürsə, özündə bu xüsusiyyətləri dərk edir. Əgər bunların əksinə olaraq, ailəsində xudpəsəndlik,

tənbəllik, şöhrət düşkünlüyü müşahidə edirsə, özü də xudpəsənd, tənbəl bir vücud olub, ictimaiyyətin nəinki faydasız, bəlkə mücür bir fərdi olur.»

Uşaqların tərbiyəsinə, o cümlədən davranış tərbiyəsinə təsir edən bir sıra amillər içərisində birinci yeri ailə mühiti tutur. Uşaq ailənin aynasidir. O, dünyaya gələn gündən kamillik yaşına kimi ailənin himayəsində olur. Ailə üzvlərinin hərəkəti, davranışı uşaqlara təsir edir. Uşaq ailə mühitində gördüklərini əvvəlcə əks etdirir, sonra onun mühiti dəyişdikcə ona təsir edən amillərin də sayı artır. Günəş bir damla suda əks olunduğu kimi, ana və atanın saflığı da uşaqda əks olunur. Bunu nəzərə alaraq tərbiyəçilər və valideynlər uşaqları düzgün tərbiyə etmək üçün özləri onlara yaxşı nümunə olmalıdırlar. Ən vacibi də odur ki, uşağa nəyisə öyrədərkən bunu konkret nümunələrlə möhkəmləndirmək daha təsirli, daha səmərəli olur. Nümunə sözdən daha təsiredici imkanlara malik olduğundan kiçik yaşlıların tərbiyəsində müstəsna əhəmiyyət kəsb edir. Uşaqlar böyüklərin sözlərinin onların etdikləri hərəkətlə heç nə ilə fərqlənmədiyini gördükdə, onların sözləri də, hərəkətləri də uşağa müsbət təsir göstərir. Əgər uşaq valideynlərin hər gün yalan danışmağın pis iş olduğunu dedikləri halda, özlərinin bunun əksinə getdiklərini görsə, qaydalar pozulur və nəticədə tərbiyəyə sərf edilmiş bütün cəhdlər puç olur.

Tərbiyə ilə məşğul olan hər kəs uşağın müsbət nümunələr əsasında formalaşdırılmasına xüsusi fikir verməlidir. Belə nümunələr isə çoxdur: yaşıdların, yoldaşların, cəmiyyətdə öz gözəl əməlləri ilə fərqlənən insanların, bədii əsərlərdəki müsbət qəhrəmanların nümunəsi, Qarabağ müharibəsi qəhrəmanlarının və şəhidlərin nümunəsi, valideynlərin, böyüklərin nümunəsindən ustalıqla istifadə edilməlidir.

Tərbiyə edən şəxsləri, xüsusilə valideynlər, tərbiyəçilər uşaq üçün ideal nümunə olmalıdırlar. Onlar uşaqda görmək istəmədikləri sifətlərə özlərinin hərəkətlərində, davranışlarında qəti yol verməməlidirlər. Tərbiyədə canlı nümünələrdən istifadə etmək həm də ona görə əlverişlidir ki, nümunələrin yolu qısa və realdır. Uşaq suçəkən kağız kimi bir şeydir, atalar demişkən, gördüyünü götürür. «Böyük nə tökürsə, uşaq onu yığır», «Böyük danışanı kiçik götürər», «Arpa əkən, buğda biçməz», «Nə tökərsən aşına, o da çıxar qaşığına». Deməli, hər bir valideyn hər hansı bir sifəti uşağa aşılamağa başlamazdan əvvəl onu şəxsi davranışında nümayiş etdirməli, özünün xarakter əlamətinə çevirməlidir. Əks halda tərbiyədə müsbət nəticə qazanmaq qeyri-mümkündür.

# MÜƏLLİM – ŞAGİRD MÜNASİBƏTLƏRİNİN FORMALAŞDIRILMASI HAQQINDA

Ayna MƏHSİMOVA,
Qax şəhər N.Allahverdiyev adına 2 nömrəli məktəb-liseyin müəllimi



Müəllimlik ən müqəddəs, ən şərəfli peşədir. Tarix boyu millətin gələcəyi hesab edilən uşaqların təlim - tərbiyəsini müəllimə etibar ediblər. Hər bir müəllim biliyi, xarici görünüşü, davranışı ilə uşaq üçün etalondur. Dahi pedaqoq K.D Uşinski göstərirdi ki,müəllim şəxsiyyəti gənc qəlb üçün heç bir şeylə əvəz edilməsi mümkün olmayan məhsuldar günəş şüasıdır.

Məlumdur ki, Azərbaycan Respublikasında hər sahədə olduğu kimi, təhsildə də böyük islahatlar həyata keçirilir. Təhsildə aparılan islahatlarda müasir yanaşmaları uğurlu addım saymaq olar. Belə ki, indi təlimin ən başlıca vəzifələrindən biri şagirdə subyekt kimi baxmaq, onu təlim prosesinin bərabərhüquqlu üzvünə çevirməkdir. Bu gün şagird təlim prosesində bildikləri ilə, öyrənmək həvəsi ilə sərbəst olmalı, müəllimin əməkdaşına çevrilməlidir. Təlim prosesində bu reallığı yaratmaq müəllimdən böyük ustalıq, bacarıq tələb edir. Şagirdin sərbəstliyini özbaşınalığa, əməkdaşlığını isə qarışıqlığa çevirməmək üçün təlim prosesində hər şey müəllim-şagird münasibətlərinin düzgün formalaşmasından asılıdır. Müəllim-şagird münasibətlərinə aid bir neçə məqama toxunmaq istərdim.

Bu gün məktəblərimizə qədəm qoyan uşaqların əksəriyyəti geniş dünyagörüşü ilə seçirlirlər. Axı onlar rəngarəng informasiyalarla dolu həyatda yaşayirlar. Ətraf aləmə olan maraqlarını öz «niyə?»ləri hesabına zənginləşdirirlər. Öyrəndiklərini ardıcıl, sərbəst və maraq dairəsinə görə yadda saxlayırlar. Məktəbə gələrkən onların hər birinin məktəblə bağlı fantaziyaları olur. Təəssüf ki, məktəbdə şox vaxt onların istəkləri nəzərə alınmır. Ümidləri alt-üst olan kiçikyaşlı məktəblilər isə bir neçə gündən sonra məktəbə getmək istəmirlər. Bəs kişikyaşlı məktəblinin bu həyəcanı yaşamaması üçün nə etmək lazımdır? Deyərdim ki, ilk növbədə müəllimin ona yanaşma tərzi, onunla rəftarı normal olmalıdır. Əgər məktəbə yenicə daxil olan uşağa ana nəvazişi ilə yanaşılarsa, hər şey qaydasına düşər. Təlim-tərbiyə prosesində baş verən problemlərin yarısını, məncə, belə rəftarla həll etmək mümkündür.

Mən şagirdlərə münasibətimdə humanizmi əsas götürürəm . Belə ki, şagirdlərlə davranışımda onların çatışmayan cəhətlərini, buraxdıqları səhvləri bağışlamağa, maraq və meyllərini nəzərə almağa çalışıram. Demək olar ki,

bütün günü müşahidə etməklə uşaqları diqqətdə saxlayıram. Bu zaman onlara yanaşmaq, söhbətin mövzusunu tapmaq da asan olur.

Sinifdə Çingiz özünü pis aparır. Dərsdə isə hər dəfə yanından keçəndə diksinir, çox vaxt özünü zərbədən müdafiə edən adam kimi əlini yuxarı qaldırırdı. Hiss etdim ki, bu təsadüfi deyil. Uşağın valideyni ilə söhbətdən məlum oldu ki, «Çingiz çox pis uşaqdır. Döyülməsə, deyilənə əməl etmir». Hər şey aydın oldu: Çingizin kobudluğu da, tez-tez yalan danışması da, özündən zəiflər ilə pis rəftarı da, qorxaqlığı da... Deməli o tez-tez valideynləri tərəfindən zərbə ala biləcəyini gözləyən uşaqdır.

Mən mehriban rəftarımla Çingizə təsir etdim. Onunla mütəmadi söhbətlər aparmağa başladım. Bütün yanlış hərəkətlərini, danışıqlarını, arzularını ikilikdə müzakirə etdik. Bu uşağın gözəl rəftara, səmimi münasibətə nə qədər ehtiyacı olduğunu hiss etdikcə ona daha çox bağlanırdım. Sevgimlə yoğrulmuş tələbkarlığımı uşaq böyük həvəslə qəbul edirdi. Beləliklə, çox çəkmədi ki, Çingiz nümunəvi uşaqlardan birinə çevrildi.

Bizim fəaliyyətimiz xeyirxah müəllim-şagird əməkdaşlığı fonunda yerinə yetirilir. Təlim prosesində elə mühit yaradıram ki, hər kəs çəkinmədən öz fikrini desin. Səhv fikir söyləyənlərə xüsusi diqqət yetirirəm. Axı onların mənim izahıma, mənim dəstəyimə ehtiyacı var.

Sinifdə belə bir aksioma bizi müşayiət edir: «Bilməmək eyib deyil, öyrənməmək eyibdir». Bilməyən uşaqlar məsələni həll edə bilmədikdə müəllimdən kömək istəyərkən mehriban münasibətlə qarşılaşacaqlarına əmindirlər. Mühüm cəhət odur ki, ünsiyyət qarşılıqlı münasibət maraqlar üzərində qurulur.

Belə ünsiyyətdə uşaq özünü nüfuzlu, yaşlı adam kimi göstərməyə çalışır. Eyni zamanda şagirdlər arasında qarşılıqlı münasibət təmin edilir.

Tənəffüsdə Saleh Minayəni incitmişdi. Onların arasındakı narazılığın səbəbini öyrəndim. Təklikdə Salehlə danışdım. Təqsirini anlatdım.Mütləq qızdan üzr istəmək lazım olduğunu başa saldım. Minayəyə isə dedim ki, əgər Saleh səndən üzr istəsə, onu bağışla. Axı sən ağıllı qızsan. Uşağın vicdanına müraciətlə deyilmiş belə sözlər onu nəinki məktəbdə, evdə də düşünməyə vadar etdi.

Müəllim-şagird münasibətlərinin formalaşmasına müsbət təsir göstərən amillərdən biri, bəlkə də ən mühümü sevgidir. Müəllim həm dərs dediyi uşaqları, həm də tədris etdiyi fənni sevməlidir. Məncə, tədris edilən fənlə də uşağa təsir etmək olar. Müəllim fənnini dərindən bilməli, həm də onu sevərək tədris etməlidir. Belə olduqda uşaqlar müəllimi də, fənni də sevərlər.

Müəllim–şagird münasibətlərinin formalaşmasını valideynlərsiz təsəvvür etmək mümkün deyil. Öz uşağını ağıllı, xoşbəxt görmək hər

bir valideynin arzusudur, amma onlar unutmamalıdırlar ki, uşağın uğurlarını təmənnasız, böyük intizarla gözləyən digər tərəf də var: müəllim! Müəllim uşağın biliyinə, dünyagörüşünə, əxlaqına birbaşa təsir göstərib, onları formalaşdırır. Daim uşağın qəlbinə ata-ana sevgisi aşılayan müəllimə qarşı iddialı danışan valideynlər də az deyil. Unutmaq olmaz ki, müəllim üçün əziz, yadda qalan şagirdlər olduğu kimi, şagirdlər üçün də unudulmaz müəllimlər vardır. Ona görə uşağın qəlbindəki müəllim sevgisinə ehtiramla yanaşılmalı, adı müəllim olan kəsin ünvanına uşağın yanında onu əksidici söz deyilməməlidir. Uşağa deyilən «Havayı qiymətdir sənə verirlər», «O necə müəllimdir ki, bunu sənə öyrətməyib?», «Bizim dövrümüzdə müəllim...» kimi fikirlər uşağın müəllimlə bağlı dünyasını uçurub dağıdır. Uşaq çaş-baş qalır: müəllimə inansın, yoxsa ata-anasına?

Məktəb, müəllim haqqında ağıllı söz deyən, düzgün məsləhət verən valideyn təkcə müəllimə hörmət etmir, həm də valideyn kimi özünün mədəniyyətini, böyüklüyünü, varlığını sübut edir.

Məktəbdə şagirdə müxtəlif tələblər verilir. Məktəbin tələbi ilə valideynin tələbi bir-birini inkar etdikdə şagird gərgin anlar yaşayır. Nəticədə müəllim-şagird münasibətlərinə xələl gəlir, narazılıq yaranır. Bəs necə etmək olar ki, narazılıq yaranmasın? Məncə, hər bir valideyn uşağının sabahını düşünməli, övladının hisslərinə ehtiramla yanaşmalıdır. Müəllim də öz növbəsində uşağın ailə şəraiti ilə yaxından tanış olmalı, məktəbə qarşı mənfi rəydə olan valideynə öz pedaqoji ustalığı, yüksək əxlaqı ilə təsir göstərməlidir.

Beləliklə, əminliklə demək olar ki, müəllim-şagird münasibətlərinin düzgün zəmin əsasında qurulması şagirdi bir şəxsiyyət kimi formalaşdırır, onda yüksək insani keyfiyyətlər tərbiyə edir.

## HİKMƏTLİ SÖZLƏR

**Ən adi hikmət özünü tanımaqdır.**

*Q.Qaliley.*

**Hər bir ölkənin gələcəyi o ölkənin insanlarının alacağı təhsillə bağlıdır.**

*A.Eynşteyn*

**Özünə və başqalarına munasibətdə doğruçuluq böyük istedadlara məxsus keyfiyyətdir.**

*İ. Höte*

**Başqalarını xoşbəxt etmək xoşbəxt olmağın ən yaxşı üsuludur.**

*N.Holbax*

# AY NOVRUZLU BAHARIM!

(Musiqili-əyləncəli viktorina)

**Zümrüd BABAYEVA,**
müsiqi rəhbəri, ARTPİ-nun elmi müxbiri



Uşaq bağçalarında müəyyən mövzu ətrafında təşkil olunan hər bir musiqi əyləncəsinin proqramı musiqi rəhbərinin bilik və bacarığından asılıdır. Bu proqram musiqili əyləncəli oyunlardan, bayram şənliklərindən, musiqili viktorinalardan, nağıl və səhnəciklərdən ibarət olur. Belə şənlikləri şəhər üzrə və ya rayonlararası uşaq bağçalarının birləşmiş musiqi əyləncəsi kimi keçirmək mümkündür.

Sizə təqdim etdiyimiz bu musiqili-əyləncəli viktorinanın mövzusunu Novruz adət-ənənələrini əks etdirən milli bayramımızla bahar fəslinin bağlılığı təşkil edir. Əyləncədə könül oxşayan xoş musiqili nömrələr ayrı-ayrı bağçaların uşaqları tərəfindən ifa olunur. Əyləncədəki səhnəciklər, idman oyunları, musiqili mütəhərrik oyunlar, solo ifalar, mahnı və rəqslər, şeirlər və nağıllar, məzhəkəçi təlxəklər uşaqların musiqi bacarığını aşkara çıxarır.

Adətən, belə viktorinanı uşaq bağçasının həyətindəki meydançada və ya bağçanın musiqi zalında keçirmək olar. «Ay Novruzlu baharım!» adlı musiqili əyləncəli viktorinanın ssenarisi müəllifi olduğum «Uşaq bağçalarında musiqi məşğələlərinin müntəxəbatı» adlı elmi-metodik vəsaitdən götürülmüş nümunələrlə hazırlanmışdır. Viktorinada ifa olunan musiqi nömrələri uşaqları əsrarəngiz musiqi dünyasına aparır. Onlara böyük sevinc bəxş edir. Bu viktorinanın keçirilməsi uşaqların zehni qabiliyyətlərini inkişaf etdirir, onların gördüklərini musiqi ifaları ilə aydınlaşdırır. Bu da uşaqların estetik zövqünün inkişafına kömək edir.

Viktorinanın keçirilməsi üçün hazırlanmış meydança bütövlükdə Novruz adət-ənənələrini və bahar xarakterli bayramı əks etdirir. Birinci hissədə meydança bahar rəmzləri, yəni yenicə çiçək açmış ağacları , qaranquşların uçub gəlməsini, çayların axmasını əks etdirən əl işləri ilə bəzədilmişdir. İkinci hissədə meydançada milli ornamentlərimiz əks olunur. Uşaqların rəsmləri ilə işlənmiş milli naxışlı xalçalar, qızların xana qarşısında xalça toxumaları, yun darayan, cəhrədə iplik əyirən, lavaş yayan nənələr, şəkərburaya naxış vuran, paxlava bişirən, səməni qoyan qız-gəlinlər, yumurta boyayan analar, xoruz döyüşdürən, yumurta-yumurta oynayan dəcəl oğlanlar və başqaları meydançaya bir gözəllik verir. Hər yan günəşin al şəfəqlərinə bənzər nur və işıq saçır. Meydançanın ortasında bayram tonqalı qalanmış, bayram xonçası və səmənilər qoyulmuşdur. Tərbiyəçilərin uşaqlarla birgə hazırladıqları kuklalar, nənnilər, beşiklər, mozaikalarla tikilmiş, bahar fəslinin təcəssümünü bildirən əl işləri, Azərbaycan rəqs nümunələrinin obrazları bir sərgi kimi bayram meydançasına yaraşıq verir, bayram

əhval-ruhiyyəsi ilə bəzədilmiş stol və stullar qonaqlarını gözləyir. Bu şən əhval-ruhiyyəli viktorinanın tamaşaçıları öz yerlərini tutmuşlar.

Viktorinada iştirak edəcək uşaqlar Azərbaycan milli rəqsi, «Yallı»nın sədaları altında meydançaya daxil olurlar. Bayram meydançasını dövrə vurub, öz yerlərini tuturlar. Musiqili-əyləncəli viktorinanı aparıcıları uşaqlar arasından seçilmiş fəal bir qız və bir oğlandır. Qız rəmzi Bahar paltarı, oğlan isə Çoban paltarı geyinmişlər. Aparıcılar uşaqları və qonaqları bayram münasibətilə təbrik edirlər.

- Bahar:

– Əziz uşaqlar və hörmətli qonaqlar! Bu gün biz Milli bayramımız Novruzu və fəsillərin gözəli yaz fəslinin başlanğıcını – Baharı qarşılamaq üçün buraya toplaşmışıq.

- Çoban:

– Bu gün biz «Ay Novruzlu baharım!» adlı musiqili-əyləncəli viktorinaya yığışmışıq.

- Bahar:

– Sizin hamınızı bizimlə birlikdə şənlənməyə dəvət edirik. Qarşıdan gələn Novruzlu Bahar bayramınız mübarək olsun!

- Çoban:

– İndi ayrı-ayrı bağçaların uşaqları öz musiqi töhfələrini sizlərə ərməğan edirlər.

I uşaq: Gəlib Novruz bayramı,
Yandırmışıq biz şamı.
Tonqallar alışıbdır,
Sevincimiz daşıbdır.

II uşaq: Fərəhlənir uşaqlar,
Torba atır qoçaqlar.
Hər evdə aş dəm alır,
Şənlik göyə ucalır.

III uşaq: Göyərib səmənilər,
Payla doub sinilər.
Gəlib Novruz bayramı.
Sevinir, gülür hamı!

Mahnı ifa olunur: «Novruz bayramı» (musiqisi R.Şəfəqindir).
Mahnı ifasından sonra uşaqlar yerlərinə keçirlər.
İkinci mahnını ifa etmək üçün uşaqlar musiqi sədaları altında düzülürlər.

I uşaq: Bahar yeli çardaqları yıxanda,
Novruz gülü, dağ çiçəyi çıxanda,
Ağ buludlar köynəkləri sıxanda,
Bizləri də yad eləyən sağ olsun!

II uşaq: Yaşıllaşdı düz, yoxuş,
Söylədi: - Bahar mənəm!
Uçub gəlib qaranquş,
Söylədi: - Bahar mənəm!

III uşaq: Çəmənə nur səpdi ay,
Ağ bulud keçdi lay-lay.
Köpüklənib daşdı çay,
Söylədi: - Bahar mənəm.

IV uşaq: Gör necədir biçənək?
Lalə boylandı tək-tək.
Sinəmə qondu çiçək,
Söylədi: - Bahar mənəm!

Mahnı ifa olunur: «Bahar bayramı», (Musiqisi T.Quliyevindir)

Uşaqlar bir-birinin ardınca «Novruz bayramı», «Səməni, saxla məni!», «Yaz gülləri» mövzusunda şeirlər söyləyirlər.

Qızlar qrupu xonçalar və səmənilərlə rəqs edirlər. «Naz ilə» (Musiqisi A.İsrafilovundur)

Oğlanlar qrupu «Çobanlar» rəqsini ifa edirlər.

«Çəngi» Azərbaycan xalq rəqsi.

Bu rəqslərin ifası zamanı Bahar qız qızlar qrupu, Çoban oğlan isə oğlanlar qrupu ilə birlikdə rəqs edir.

Bahar:

– Gəlin viktorinamızın suallarını dinləyək və onlara cavablar verək

Çoban:

– Görəsən Novruzda nələr olur?

Bahar qız Çoban oğlanla birlikdə suala cavab verirlər:

– Novruzda xonça tutur, şam yandırırlar.

– Novruzda nənələrimiz xına yaxır, tapmaca və yanıltmaclar söyləyirlər.

– Novruzda səməni göyərdir, yumurta boyayırlar.

– Novruzda şəkərbura, paxlava bişirirlər.

– Novruzda təzə paltar geyinirlər.

– Novruzda həyət-bacanı təmizləyirlər.

– Novruzda qapılara papaq atırlar.

– Novruzda bir-birinin evinə qonaq gedirlər.

– Novruzda küsülülər barışırlar.

– Novruzda aş bişirirlər.

– Novruzda tonqal qalayıb üstündən atılır, şənlik edirlər.

Bahar:

– Görəsən, yazda, baharda nələr olur?

Cavablar:

– Yazda ağaclar çiçək açır, çöl-çəmən yaşıllaşır.

–Baharın gəlişi yazın gəlişi deməkdir. Baharda gecə-gündüz bərabərləşir.

Bahar:
– İdmançı uşaqlar bayramımızı davam etdirirlər.
Uşaqlar:
«Qıy-qıya» (Musiqisi T.Quliyevindir).
«Xoruz-xoruz» (Musiqisi O.Beonundur).
«At-at» (Musiqisi Ə.Abbasovundur).
«Kəndiri çək» Azərbaycan xalq musiqisi ilə oyunlar keçirirlər.
Nənəin nağılları adlı səhnəciklər.
«Xoruz və pişik» «Şəngülüm, Şüngülüm, Məngülüm.»
Tapmacalar:
Bahar: Altı bulaq, içərlər.
Üstü zəmi, biçərlər. (qoyun) Cavab xorla.
Bahar: O yanı qaya, bu yanı qaya,
İçində sarı maya. (yumurta) Cavab xorla.
Bahar: Yatanda yumuru yatar,
Ətinə dərman qatar.
Kim onu tutmaq istəsə,
Əlinə tikan batar. (kirpi) Cavab xorla.
Yanıltmaclar:
I uşaq: Bu balqabaq, nə balqabaq?
Bu balqabaq, bal balqabaq.
II uşaq: Ay, qılquyruq qırqovul,
Gəl bu kola gir, qılquruq qırqovul!
III uşaq: Burada nə ucuz?
Mis ucuz, duz ucuz, küncüt ucuz.
Atalar sözləri:
I uşaq: Dost dosta tən gərək,
Tən olmasa, gen gərək.
II uşaq: Nə tökərsən aşına,
O çıxar qaşığına.
III uşaq: Ağıllı zəhmətmnə bel bağlar,
Ağılsız dilinə.
Çoban:
– İndi isə dostlarımız öz solo ifalarını təqdim edirlər.
«Quzum» (Musiqisi T. Əmirovundur).
«Gəlin» (Muçiqisi S. Rüstəmovundur).
«Gəl, gəl, a yaz günləri» (Musiqisi A. Rzayevanındır).
Məzhəkəli mahnılar:
«Qonaqlıq» (Musiqisi O. Zülfüqarovundur).
«Mişar» (Musiqisi A. Rzayevanındır).
«Oynaq topum» (Musiqisi S. Hacıbəyovundur).
«Çəkicim, vur!» (Musiqisi A. Sultanovundur).
Metallofon qrupu: «Cücələrim» mahnısını ifa edir. (Musiqisi Q.Hüseynlinindir).
Saz çalanlar qrupu «Aşıq mahnısı»nı ifa edir. (Musiqisi M.Nəsirbəyovundur).

Hər qrupda 4 nəfər iştirakçı olur.
Bahar:
– Gəlin qonaqlarımızı qarşılayaq. Görün bu şən məclisimizə kimlər gəlib?
Çoban: uşaqlarla birlikdə:

A kos-kosa, gəlsənə,
Gəlib salam versənə. } 2




Kosa, Keçəl və təlxəklər məclisə daxil olurlar:

– Çömçəni doldursana,
Kosanı yola salsana.

Kosa: – Novruz-novruz bahara, ay bahara,
Güllər-güllər nübara, ay nübara.
Kim yığa, kim apara?!
Keçəl: Bağçamızda gül olsun,
Gül olsun, bülbül olsun.
Mən gəlmişəm, kef görüm
Zurna görüm, dəf görüm.

Kosa çömçəsini uşaqların qarşısına uzadır, yığdığı bayram sovqatını Keçələ ötürür, o da Kosanın ötürdüyünü öz xurcununa doldurur.
Çoban:
Bu kosa hardan gəlib?
Qurtarıb dardan, gəlib.
Yağ verin yağlansın.
Bal verin ballansın.
Dəsmal ilə bağlansın,
Çoxca bilib allansın.
Kosa yerə yıxılır, özünü ölülüyə vurur.
Bahar Kosanın üzünə su çiləyir, Kosa diksinib ayılır, yerində oturur.
Çoban:

– Kosa, gəldiyin hardan?
Kosa:
– Şərurdan.
Çoban:
– Nə gətirdin?!
Kosa:
– Alma!
Çoban:
– Almaları neylədin?!
Kosa:
– Satdım.
Çoban:
– Pulunu neylədin?!
Kosa:
– Öküz aldım!
Çoban:
– Öküzü neyləlin?!
Kosa:
– Tufan qopdu, külək əsdi, saqqalımın yeli vurdu, yarğandan uçurdu, o da öldü.
Kosa başlayır ağlamağa. Keçəl və təlxəklər də kosaya qoşulub ağlayırlır.
Uşaqlar xorla:
–Başın sağ olsun, kosa,
Canın sağ olsun, kosa.
Arşın uzun, bez qısa,
Kəfənsiz ölməz Kosa!
Kosa:
– Ölmərəm, yooox, niyə ölürəm, ölmərəm…
Uşaqlar xorla:
– Kosam bir oyun eylər,
Quzunu qoyun eylər.
Yığar bayram xonçası
Keçəlin toyun eylər…
Payızda toyun eylər.
Kosa və keçəl birlikdə:
– Oyun istəyirsiniz?! Sizinlə oyun da oynayaraq.

Kosa, Keçəl və təlxəklər uşaqlarla musiqili oyunlar keçirirlər: «Əkinçi», «Fincan-fincan», «İp atdı», «İp üzərində gəzmək». Kosa və Keçəlin sərgüzəştlərindən və təlxəklərin şən zarafatlarından sonra Bahar qızlar qrupu ilə «Lalələr» rəqsini ifa edir. (Musiqisi T. Hacıyevindir).

Çoban:

– Sənin gəlişinlə düzəndə, dağda
Çaylar selə dönüb axar, ay bahar!
Ətirli güllərdən qızlar, gəlinlər
Dərib sinəsinə taxar, ay bahar!
Yaşıla bürünər çəmən, dağ, meşə,
Ayılar yuxudan nərgiz, bənövşə.
Qışın şaxtasında, inan, həmişə
Həsrətin qəlbləri yaxar, ay bahar!

Bahar:

– Yaşıl reyhanların, qızılgüllərin,
Ətrini gətirər əsən yellərin.
Mən də bülbülüyəm bu şad ellərin,
Sənin vurğununam, bahar, ay bahar!

Uşaqlar birlikdə:

– Xonçalı Novruz gəlir,
Qönçəli Novruz gəlir.
Sürmə çəkin qaşına,
Noğul səpin başına.
Tonqalları oddayın,
Tüfəngləri addayın
Xonçalı Novruz gəlir,
Qönçəli Novruz gəlir.

Uşaqlar birlikdə meydançanın ortasında qoyulmuş tonqalın ətrafında dairə vururlar.

Kiçik musiqi modulyasiyası ilə Bahar qız və Çoban oğlan şamları yandırırlar. Şən təlxəklər, Kosa və Keçəl uşaqları sevindirərək tonqalı alışdırırlar. Hamı əl-ələ tutub tonqalın ətrafında M. Mirzəyevin «Şənlik» mahnısını oxuyurlar. Mahnının ifasından sonra uşaqlar «Ağırlığım-uğurluğum tonqala tökülsün» deyə tonqaldan hoppanırlar.

Bahar qız və Çoban oğlan:

– Əziz uşaqlar! Sizi daha gözəl viktorinalarda görmək arzusu ilə... Bir daha bayramınız mübarək!.. Sağ olun! Uşaqlar əl edərək sağollaşırlar.

# AZƏRBAYCANIN İNCƏSƏNƏT XADİMLƏRİ BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İLLƏRİNDƏ

**Vidadi XƏLİLOV,**
Təhsil Problemləri İnstitutunun şöbə müdiri, pedaqoji elmlər doktoru, professor, əməkdar müəllim



Alman faşizmi üzərində tarixi qələbənin 65 illiyini qeyd etmək ərəfəsindəyik. Hər dəfə 1945-ci ilin 9 May gününü xatırlayanda iftixar hissi keçirir və bu böyük qələbənin qazanılmasında fədakarlıq göstərmiş xalqımızın qəhrəman oğul və qızlarının hünərinə əhsən deyirik.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 iyun 2009-cu il tarixli sərəncamına əsasən Böyük Vətən müharibəsində qələbənin 65 illik yubileyinə hazırlıq işləri geniş vüsət alıb. Bu əlamətdar yubileylə əlaqədar «Milli Proqram»da bayramın layiqincə qeyd olunması nəzərdə tutulur. Yubileylə bağlı tədbirlərdə, yığıncaqlarda belə bir cəhət diqqət mərkəzinə gətirilir ki, sovet xalqının alman faşizmi üzərində qələbəsində ədəbiyyat-incəsənət xadimlərinin də mühüm rolu olub. Onlar mübariz ruhlu əsərlərini qələbə naminə mübarizəyə istiqamətləndiriblər.

Bilsin ana torpaq, eşitsin vətən,
Müsəlləh əsgərəm mən də bu gündən!
Bu gün bir süngüdür əlimdə qələm!...

Bu misralar böyük şairimiz Səməd Vurğunun müharibə başlanan günü, yəni 1941-ci il iyunun 22-də yazdığı «Vətənin keşiyində» şerindəndir. Alovlu vətənpərvər şair həmin misraları ilə müharibə dövründə sənətin, tutduğu yolun mənasını, mahiyyət istiqamətini müəyyənləşdirmişdir.

Yazıçılarımız, bəstəkarlarımız, rəssamlarımız, heykəltəraşlarımız, musiqiçilərimiz, teatr xadimlərimiz müharibənin ilk günlərindən igid əsgərlərimizdə, arxa cəbhədə çalışan vətəndaşlarımızda qələbəyə böyük inam hissi oyadırdılar.

«Hər şey cəbhə üçün, hər şey qələbə üçün!» çağırışı kiçikdən-böyüyədək hər bir sovet adamının qanına-canına hopmuşdu.

Müharibə illərində vətənpərvərlik mövzusu ədəbiyyat və incəsənətin əsas mözusu kimi səslənirdi. Poeziya və nəsrdə, dramaturgiyada, təsviri sənətdə, mahnılarda düşmənə qarşı vuruşmalarda hünər göstərən sovet əsgərinin qəhrəmanlıqlarının təsviri mərkəzi yer tuturdu. Sovet adamları bədii

ədəbiyyat oxuyarkən teatra gedərkən, təsviri sənət əsərlərinə baxarkən elə qəhrəmanlar, elə surətlər axtarırdılar ki, onlardan mübarizə aparmağı öyrənsinlər. Müharibənin əvvəllərində Üzeyir Hacıbəyov yazırdı: «Bədii xalq məsəlində deyilir ki, toplar dinəndə musiqi susmalıdır, lakin bizim bolşevik musiqimiz bizim zəhmli toplarımızla birlikdə var qüvvəsi ilə səslənəcək, onun mərmiləri faşist canilərini yer üzündən siləcəkdir.

Bizim artistlərimiz düşmənə öldürücü zərbə vurmaq, döyüşçülərimizi qələbə marşı və qələbə mahnısı ilə döyüşə ruhlandırmaq üçün hər cür şəraitdə- arxada, cəbhədə, səngərlərdə çıxış edəcəklər» (I, s. 242-243).

Müharibə dövrünün ağrılı-acılı çətin sınaq illəri göstərdi ki, ədəbiyyat-incəsənət xadimlərimiz qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldilər. Ecazkar söz-sənət nümunələri ilə əsgərlərimizdə qələbəyə inam hissi oyatdılar.

Azərbaycan Yazıçılar İttifaqının orqanı olan «Ədəbiyyat» qəzetinin və «Vətən uğrunda» jurnalının səhifələrində M.S.Ordubadi, Məmməd Rahim, Abdulla Şaiq, Mir Cəlal, Suleyman Rəhimov, Süleyman Rüstəm, Əli Vəliyev, Osman Sarıvəlli, Rəsul Rza, Mehdi Hüseyn, Ənvər Məmmədxanlı, Nigar Rəfibəyli, Mirvarid Dilbazi, Yusif Əzimzadə və başqaları hərbi-vətənpərvərlik ruhunda yazdığı əsərlərlə çıxış edirdilər. Tanınmış alim Əhəd Bağırzadə «Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində» adlı monoqrafiiyasında yazır: «Müharibənin il yarımı ərzində yalnız «Vətən uğrunda» jurnalında 50 şeir, 4 poema, 33 hekayə və 55 antifaşist məqalə çap edilmişdir. Jurnalın səhifələrində ən çox S.Vurğun, S.Rəhimov, S.Rüstəm, M.S.Ordubadi, M.Rahim, Mir Cəlal, Osman Sarıvəlli, Məmməd Cəfər Cəfərov, Əkbər Ağayev, Orucəli Həsənov iştirak edirdilər» (1, s. 267).

Məmməd Rahim, Süleyman Rüstəm, Rəsul Rza, Zeynal Xəlil, Osman Sarıvəlli, Əhməd Cəmil, Zeynal Cabbarzadə, Ənvər Əlibəyli, İslam Səfərli və başqalarının müharibə illərində yazdıqları şeirlər, poemalar əsgərlərimizi qələbə uğrunda mübarizəyə səsləyirdi.

Araşdırmalar, əldə olan mənbələr göstərir ki, böyük şairimiz Səməd Vurğun müharibənin ilk günlərindən başlayaraq vətən məhəbbəti, tükənməz vətən eşqi ilə igid əsgərlərimizi qələbəyə ruhlandıran, onlarda qəhrəmanlıq hissləri oyadan əsərlər qələmə almış, onları əsgərlərə göndərmiş və özü də müxtəlif cəbhələrdə onlarla səmimi görüşlər keçirmişdir. Şübhəsiz, hər bir belə görüş yeni şeirlərin poemaların mövzu mənbəyinə çevrilmişdir.

Qərb cəbhəsindən bir qrup azərbaycanlı döyüşçüsünün Səməd Vurğuna göndərdikləri mənzum məktub da çox təsirli olmuşdur. Azərbaycanlı döyüşçülər adından Ağəli Əlioğlu tərəfindən yazılan həmin məktub belədir:

**Şair, sənin şirin sözün**
**Qəlbimizə təsəllidir.**
**Od içində, nəm səngərdə**
**Adın bizə təsəllidir.**
**Oxuyuruq dəstə-dəstə,**
**Oxuyuruq bir həvəsdə**
**Oxuyuruq bu nəğməni:**
**«El bilir ki, sən mənimsən.**
**Yurdum yuvam məskənimsən,**
**Anam doğma vətənimsən,**
**Ayrılarmı könül candan,**
**Azərbaycan-Azərbaycan...»**
**Od içində bu gün yenə,**
**Oxuyuruq dönə-dönə,**
**Oxuyuruq bu nəğməni.**
**Unutmarıq bir an səni...**

Qızğın döyüş zamanı bir nəfər azərbaycanlı qızıl əsgər ağır yaralanır. Hərbi xəstəxanada onu xilas etmək üçün cərrahlıq əməliyyatı aparmaq lazım gəlir. Sağalmağına şübhə edən əsgər, həkimdən bıçağı bir an saxlamağı xahiş edir və Səmədin «Azərbaycan» şerindən bir bənd oxuyur. Bu xəbər şairə çatır. O, qəhrəman əsgərin vətənpərvərliyindən vəcdə gəlir, gənclərin vətənə olan məhəbbətini tərənnüm edən «Mənə belə söyləyirlər» şerini yazır» (1, s. 269).

Bütün bunlar göstərir ki, hər bir ruhlandırıcı söz, fikir, sənət əsəri müharibə illərində çox böyük emosional və hərəkətverici təsir qüvvəsinə malik olmuşdur. Məqalənin əvvəlində qeyd etdiyimiz kimi Böyük Vətən müharibəsi illərində söz-sənət ustalarının, demək olar ki, hamısı qələbə naminə yazıb-yaradırdı, ancaq Səməd Vurğun onların sırasında çox böyük fəallıq nümunəsi göstərirdi.

Müharibə illərində Azərbaycan Yazıçılar İttifaqına başçılıq edən Səməd Vurğunun coşqun yaradıcılıq fəaliyyəti bütün yazıçılar üçün nümunə idi. Şair həmin dövrdə 50 şeir, 2 poema, 3 mənzum dram, 7 nəğmə və 14 elmi-publisist məqalə yazmışdı. Müharibənin ən ağır dövründə, ölkənin başının üstünü qara buludlar bürüdüyü günlərdə onun əsərləri və çıxışları sovet adamlarında iradə tərbiyə edir və onları vətən uğrunda fədakarlığa ruhlandırırdı... Alovlu vətənpərvərin özünəməxsus ilhamla yazılmış «Vətənin keşiyində» (22 iyun 1941), «Ananın öyüdü» (23 iyun 1941), «Şəfqət bacısı» (24 iyun 1941), «Qızıl şahinlər» (25 iyun 1941), «Tarla nəğməsi» (26 iyun 1941) və onlarca başqa şeirlər buna misal ola bilər» (1, s. 267).

Böyük Vətən müharibəsi qüdrətli söz ustası Süleyman Rüstəmin yaradıcılığına da qüvvətli təsir göstərmişdir.

Onun yaradıcılığında Böyük Vətən müharibəsi dövrü xüsusi bir yer tutur. O, müharibənin ilk günlərindən qələmini süngüyə çevirərək sovet döyüşçülərinin əyilməzliyini, vətənpərvərliyini, xaqımızın arxa cəbhədəki fədakarlığını, qələbəyə inam hissini məharətlə qələmə almış, faşist işğalçılarına qarşı ümumxalq nifrəti və qəzəbini şeirlərində əks etdirmişdir. O illərdə şairin «Ana ürəyi» (1942) «Gün o gün olsun ki» (1942), «Ana və poçtalyon» (1943), rus dilində digər kitabları kütləvi tirajla çapdan buraxılmışdır.

Şair «Gün o gün olsun ki» şeirlər kitabında döyüşçülərimizə müraciət edərək yazırdı: «Əziz komandir və döyüşçü qardaşlar! Bu kitaba toplanmış şeirləri sizə ithaf edirəm. Siz Azərbaycan xalqının şanlı tarixinə yeni parlaq səhifələr əlavə edirsiniz! Siz azadlıq düşməni olan faşist cəlladlarını qovduqca, məhv etdikcə şairinizin ilhamı coşur, qələmindən sizin qəhrəmanlığınıza aid əsərlər çıxır. Mən ilhamı qəhrəman xalqımdan, onun sevimli, əziz oğulları olan sizlərdən alırdım» (2, s.19).

Azərbaycanın şair və yazıçıları müharibə illərində igid əsgərlərimizi qələbəyə ruhlandıran əsərlər yazmaqla yanaşı, həm də döyüşən ordu sıralarında azğın düşmənlərə sarsıdıcı zərbə vururdular. Əbülhəsən Ələkbərzadə, Ənvər Əlibəyli, Böyükağa Qasımzadə, Əyyub Abbasov, Zeynal Cabbarzadə, İslam Səfərli, Əbil Yusifov, Hüseyn Abbaszadə, Hüseyn Natiq, Ənvər Qarayev və başqaları ağır döyüşlərdə igidliklə vuruşmuş, fədarkarlıq nümunəsi göstərmişlər.

Yaradıcı ziyalılarımızın ön dəstəsində daima öz dəsti xətti ilə tanınan bəstəkarlarımız, rəssamlarımız da Böyük Vətən müharibəsinin ilk günlərindən başlayaraq igid əsgərlərimizi qələbəyə ruhlandıran əsərlər meydana çıxardılar. Dahi bəstəkarımız Azərbaycan Bəstəkarlar İttifaqının sədri, SSRİ xalq artisti Üzeyir Hacıbəyov «Bakinski raboçi» qəzetinin 4 iyul 1941-ci il tarixli nömrəsində yazırdı: «Bu gün biz hamımız vətənin döyüşçüləriyik. Hər birimiz düşmən üzərində qələbəni təmin etməkdən ötrü var qüvvəmizi və bacarığımızı əsirgəməməliyik».

Ü.Hacıbəyovun dərin vətənpərvərlik çağırışına qoşulan bəstəkarlarımız musiqinin vokal, instrumental janrlarında bir sıra əsərlər yaratdılar. Ü.Hacıbəyovun özü müharibənin ilk günlərindən başlayaraq «Çağırış», «Ananın oğluna nəsihəti», «Yaxşı yol», «Şəfqət bacısı», «Döyüşçülər marşı», «Vətən ordusu» mahnılarını, habelə bir neçə qızıl əsgər marşını yazmış, vətən oğullarını zəfərlərə səsləmişdir. O, «Vətən və cəbhə» kantatasını yazaraq igid əsgərlərimizin qəhrəmanlığını ilhamla tərənnüm etmişdir.

Müharibənin ilk illərində bəstəkarlarımız ən çox yadda qalan, qızıl əsgərlərin yol yoldaşı olan mahnılar və marşlar bəstələməyə xüsusi fikir verirdilər. Ü.Hacıbəyov 1942-ci il, martın 20-də «Kommunist» qəzetində bu xüsusda belə yazırdı: «Hazırda əsgəri hissələrimiz üçün Azərbaycan motivlərinə əsasən 17 yeni musiqi əsəri yazılmışdır. Bunlardan dördü hərbi marş, 13-ü müxtəlif döyüş mahnısıdır. Bu əsərlər içərisində bəstəkar Q.Qarayevin nəfəsli orkest üçün yazmış olduğu hərbi marş xüsusilə qeyd edilməlidir». Dahi bəstəkar Niyazinin, Olqa Nikolskayanın, Şəfiqə Axundovanın, Ağabacı Rzayevanın, Soltan Hacıbəyovun, Zülfüqar Hacıbəyovun, Zeydmanın, Əşrəf Abbasovun yürüş mahnıları və marşları yazdıqlarını qeyd edir.

Bəstəkarlarımızdan Əfrasiyab Bədəlbəyli və Səid Rüstəmov da müharibə dövründə bir sıra dəyərli əsərlər yazdılar. S.Rüstəmovun «Dinlə, cəbhə» süitası, habelə, «Cəbhəyə», «İrəli», «Qəhrəmanlar marşı» kimi mahnıları igid əsgərlərimiz tərəfindən rəğbətlə qarşılanmışdır. O, 416-cı Taqanroq diviziyasının nəzdində özfəaliyyət xalq çalğı alətləri orkestri təşkil etmişdi. Həmin kollektiv Azərbaycan bəstəkarının cəbhə üçün yazdığı əsərlərini müxtəlif əsgəri hissələrdə müvəffəqiyyətlə ifa etmişdir.

Azərbaycan bəstəkarlarından Tofiq Quliyev, Məmməd İsrafilzadə,

Zakir Bağırov, Fikrət Əmirov, Rauf Hacıyev, Andrey Babayev və başqaları cəbhələrdə bir döyüşçü kimi vuruşmaqla yanaşı, musiqiçi kimi də fəaliyyət göstərir, əsgərlərimizə mədəni xidmət edirdilər.

1941-ci ildə könüllü olaraq sovet ordusu sıralarında xidmətə gedən Məmməd İsrafilzadə əvvəlcə Tbilisi şəhərində topçular məktəbində oxumuşdur. Həmin dövrdə o, Böyük Vətən müharibəsi mövzusunda cəsur döyüşçülərin qəhrəmanlığını tərənnüm edən «Qorxmaz şahinlər» poemasını böyük simfonik orkestr üçün yazmışdır. Topçu məktəbini müvəffəqiyyətlə bitirən və leytenant rütbəsi alan M.İsrafilzadə Stalinqrad uğrunda vuruşlarda özünü istedadlı və cəsur komandir kimi göstərərək qəhrəmanlıqla həlak olmuşdur.

Onun mənalı həyatını nəzərindən qaçırmayan sənətkar dostu Fikrət Əmirov «Böyük Vətən müharibəsi qəhrəmanlarının xatirəsinə» adlı simfonik poemasını qəhrəmana ithaf etmişdir.

Bəstəkar Cahangir Cahangirov və Süleyman Ələsgərov da Böyük Vətən müharibəsi mövzusunda bir sıra qiymətli əsərlər yaratmışlar. C.Cahangirovun «416-cı diviziya», «Partizanlar nəğməsi», «Mərdlik nəğməsi» və s. mahnıları rəğbətlə qarşılanmışdır. S.Ələsgərovun döyüşçü şair Şirzad Əliyevin sözlərinə yazdığı «Gözlə məni», habelə Zeynal Cabbarzadənin sözlərinə bəstələdiyi «Gözləyirəm» mahnıları cəbhədə azğın düşmənlərlə ölüm-dirim vuruşunda hünər göstərən oğulların və arxa cəbhədə çalışan anaların, qızların dillər əzbəri olmuş, onları qələbəyə ruhlandırmışdır. Bəstəkarın Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general mayoru Həzi Aslanova həsr etdiyi «Həzi Aslanovun xatirəsinə» simfonik poeması da qiymətli əsərlərdəndir.

Bəstəkarlarımızın musiqinin müxtəlif janrlarında yazdıqları irihəcmli əsərlər – operalar, simfoniyalar, kantatalar müharibə illərində musiqi sənətimizin necə sürətlə inkişaf etdiyini göstərir. Bəstəkarlarımız tərəfindən 25-dən artıq simfonik əsər yaradılmışdır. Q.Qarayev, C.Hacıyev, S.Hacıbəyov, Niyazi, F.Əmirov və başqalarının simfonik əsərləri əsgərlərimizdə, habelə müxtəlif nəsildən olan insanlarda dərin vətənpərvərlik hissləri oyatmışdır.

Müharibə illərində Azərbaycan bəstəkarları opera janrında da bir sıra dəyərli əsərlər bəstələmişlər. Hələ müharibənin ilk ilində yaradılmış bir pərdəli operalar çağırış himni kimi səslənərək tamaşaçıların qüruruna, iftixarına səbəb olmuşdur. Q.Qarayev və C.Hacıyevin birlikdə yazdıqları «Vətən» operası alman faşistlərinə qarşı inamla mübarizə aparan cəsur əsgərlərimizin misilsiz hünərini tərənnüm edir. Tarixi qəhrəmanlıq mövzusunda yaradılan «Vətən» operası bir növ «Koroğlu»nun ənənəsini inkişaf etdirmişdir. Operanın kütləvi səhnələrində, qəhrəmanların ariya və duetlərində vətənpərvərlərin igidliyi, nikbin arzuları tərənnüm olunmuşdur. Onu da qeyd edək ki, bu əsərə görə Q.Qarayev və C.Hacıyev SSRİ Dövlət mükafatına layiq görülmüşlər.

Ümumiyyətlə, Azərbaycan bəstəkarlarının Böyük Vətən müharibəsi mövzusunda yaradıcılıqları ilə tanışlıq göstərir ki, onlar müharibə illərində daha gərgin, məhsuldar işləmiş, igid əsgərlərimizin, bütün sovet xalqının qəhrəmanlığını tərənnüm edən, adamlarımızda qələbəyə inam hissi oyadan

nikbin ruhlu əsərlər yaratmışlar, Həmin əsərlər xalqımızın istək və arzularını ifadə etmişdir. Cəbhələrdəki hər bir yenilik, qoşunlarımızın müzəffər yürüşü, yeni-yeni qələbələr, müxtəlif musiqi əsərlərində öz əksini tapmışdır.

Alman faşistlərinin vətənimizə xaincəsimnə basqını Azərbaycan rəssamlarının hiddətinə səbəb oldu. Təsviri sənət ustaları bu ədalətsiz müharibəni törədənlərin bəd əməllərini ifşa edən əsərlərlə qələbəyə inam hissi oyatdırlar. Təsviri incəsənətin təsir qüvvəsi, tərbiyəvi əhəmiyyəti haqqında bir sıra dəyərli əsərlərin müəllifi olan Hidayət Ələkbərov yazır: «Müharibənin ilk illərində siyasi satiranın və plakatın inkişafında xalq rəssamı Əzim Əzimzadənin böyük rolunu xüsusi qeyd etmək lazımdır. Ə.Əzimzadənin antifaşist karikaturaları bədii forma cəhətdən ilk əsərlərindən fərqlənir və rəssamın yaradıcılığında yeni mərhələ təşkil edir. «Tovuz lələkləri ilə bəzənmiş qarğa», «Berlin muzeyi», «Faşizmin siması», «Şir və pişik balası», «Fürerin qənimətləri», «Vəhşilərin kölgələri», «İmperializmin zəncirli köpəkləri», «Yaz məşvərəti» və s. kimi antifaşist karikaturalarında Ə.Əzimzadə faşist cəlladların vəhşi simasını açıb göstərir, satira atəşinə tutur, onlara qarşı qəzəb hisslərini alovlandırırdı.

Müharibənin çətin keçəcəyini duyan Azərbaycan rəssamları yaratdıqları sənət əsərləri ilə döyüşən ordu sıralarında vuruşan əsgərlərimizdə və arxa cəbhədə çalışan insanlarda qələbəyə inam hissi oyadırdılar. Bu məqsədlə nəşrə başlayan *«Acit pəncərə»nin («Təşviqat pəncərəsi»nin)* xüsusi nömrələrində Əzim Əzimzadənin, İsmayıl Axundovun, Qəzənfər Xalıqovun, Əmir Hacıyevin və başqalarının antifaşist karikaturaları, Hitlerin çirkin niyyətlərini ifşa edən əsərləri çox böyük mənəvi təsir qüvvəsinə malik olurdu. Fırça ustaları o qanlı günlərin tələbi ilə yaratdıqları plakatlar və müxtəlif janrlı əsərlərlə sovet adamlarında Qızıl Orduya, vətənə məhəbbət, hitlerçilərə nifrət hissini qüvvətləndirirdi.

Böyük Vətən müharibəsinin başlanmasına görə təhsilini başa vurmadan Bakıya qayıdan gənc rəssam Mikayıl Abdullayev qələbə naminə silsilə əsərlər yaratdı. Tarixi və bataliya mövzusundakı kompozisiyaları, portret və plakat janrındakı əsərlər emosional təsir qüvvəsi ilə diqqəti cəlb edirdi. Sonralar SSRİ xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvi kimi ad-san qazanan M.Abdullayev alman faşizimi üzərində böyük qələbənin 40 illiyi münasibətilə «Bakı» qəzetinin 20 sentyabr 1984-cü il tarixli nömrəsində dərc etdirdiyi «Rəssam fırçası mübariz silahdır» məqaləsində yazırdı:

«Böyük Vətən müharibəsinin ilk günlərindən mən də gənc bir rəssam, müsəlləh bir əsgər kimi fırçamla faşist quldurlarının həyasızcasına etdikləri hücumların dayandırılması uğrunda aparılan mübarizəyə qoşuldum.

Sovet Məlumat Bürosunun müharibənin ilk günlərindən Bakıda təşkil edilmiş teleqraf agentliyinin «Satirik pəncərə»sinin buraxdığı siyasi plakatların ortaya çıxmasında mənim də əməyim var idi. «Qafqazın mərd oğulları», «416-cı Taqanroq diviziyası döyüşçülərinə eşq olsun!» plakatlarını çəkmişdim. Şəhərdəki qospitallara gedib yaralı əsgərləri naturadan fırçaya alırdım. Həlak olmuş qəhrəmanların – Hüseynbala Əliyevin, Kamal Qasımovun və başqalarının portretlərini isə fotodan çəkmişdim.

Sovet İttifaqı Qəhrəmanlarından İsrafil Məmmədovun, Xıdır Mustafayevin portretlərini naturadan çəkmişdim. Yaxşı xatirimdədir, Xıdır Mustafayev cəbhədən yenicə qayıtmışdı və professor Mikayıl Rəfiligildə qalırdı, seanslarımız elə orada keçirdi. İsrafil Məmmədovu isə partiya muzeyinin böyük salonunda, rəssam yoldaşların əhatəsində çəkmişdim, lakin İsrafilin hələ Bakıya qayıtmazdan əvvəl, yəni 1942-ci ildə böyükhəcmli və romantik səpkili, kompozisiyalı bir portretini işləmişdim. 1942-1943-cü illərdə «Dövlət Müdafiə Komitəsinin iclası» adlı böyük və məsul bir mövzu üzərində işləmişəm».

Sovet rəssamları təşkilat komitəsinin sədri A.M.Gerasimovun o vaxt Bakıda olarkən bu işə yüksək qiymət verməsi, təbii ki, gənc müəllif üçün şərəf sayılırdı...

Rəssamlarımız cəbhədə, döyüşən ordu sıralarında fəal iştirak etmələri ilə də çox böyük vətənpərvərlik nümunəsi göstərirdilər. «Respublikanın 20-dən artıq rəssamı ordu sıralarına getmişdi. Onların çoxu bilavasitə döyüşən ordu sıralarında vuruşurdu. Adı qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazılmış Mehdi Hüseynzadə, Leninqrad cəbhəsində döyüşən Qafar Seyfullayev, Krım cəbhəsində vuruşan Həsən Haqverdiyev və başqaları belə döyüşçü rəssamlar idi. Bir gözünün şikəst olmasına baxmayaraq, döyüşən orduya göndərilməsini təkidlə xahiş edən Əyyub Məmmədov, rəssam Oqtay Sadıqzadə və özünün ağıllı mülahizə və fikirləri ilə təsviri sənət ictimaiyyətinin məhəbbətini qazanmış sənətşünas Mürsəl Nəcəfov da döyüşən ordu sıralarına getmişdilər» (1, s. 291).

Şairlər, yazıçılar, bəstəkarlar, rəssamlarla yanaşı, kino, teatr, konsert ifaçılığı sahəsində çalışan sənət adamları da özlərinin geniş, çoxcəhətli fəaliyyəti ilə vətən əsgərlərini qələbəyə ruhlandırırdılar.

Nəhayət, gözlənilən gün gəlib çatdı. 1945-ci ilin 9 May günü tarixə qızıl hərflərlə yazıldı. Faşist Almaniyası və onun əlaltısı olan bir sıra kapitalist dövlətlərinin təpədən-dırnağadək silahlanmış və ciddi təlim keçmiş 190 diviziyası Sovet Silahlı Qüvvələrinin, bütün sovet adamlarının mübarizəsi, müqavimət hərəkatı iştirakçılarının birgə fəaliyyəti sayəsində darmadağın edildi. Faşist Almaniyası danışıqsız təslim aktını imzaladı. Sovet Ordusu faşist cəlladlarını diz çökdürdü, lakin bu qələbə asan başa gəlmədi. Böyük Vətən müharibəsində 20 milyon sovet əsgəri azadlıq uğrunda döyüşlərdə həlak oldu. Onların sırasında 230 mindən çox azərbaycanlı da var idi. Alman faşizmi üzərində qələbənin 65 illiyini qeyd etdiyimiz bu günlərdə vətənin azadlığı uğrunda şəhid olanları ehtiramla xatırlayırıq. 1988-ci ildən doğma Azərbaycanımızı elan olunmamış müharibəyə cəlb edən erməni faşistlərinə isə nifrətimizi bildirir və deyirik:

- Tarixin ibrət dərsini yaddan çıxarmayın. Tökdüyünüz nahaq qanlar üçün cavab verməli olacaqsınız. Unutmayın ki, heç bir cinayətkar əbədi cəzasız qalmır. Başınızın əziləcəyi, haqqın divanında, ədalət haqq məhkəməsində cavab verəcəyiniz gün uzaqda deyil!...

# 70 İLLİK MƏNALI ÖMÜR YOLU



Tanınmış Azərbaycan psixoloqu, psixologiya elmləri namizədi, dosent, əməkdar müəllim Gültac Bədəl qızı Əliyevanın 70 yaşı tamam olur.

Gültac Əliyeva 1940-cı il may ayının 25-də Naxçıvan şəhərində anadan olmuşdur. 1955-ci ildə o, Naxçıvan şəhər 4 nömrəli orta məktəbi gümüş medalla bitirdikdən sonra elə həmin il Naxçıvan şəhər Tibb məktəbinə daxil olub və 1960-cı ildə oranı fərqlənmə diplomu ilə qurtarıb.

1960-cı ildə 20 yaşlı bu gənc qızı Əliyabad kənd feldşer-mama məntəqəsinə müdir vəzifəsinə təyin edirlər və o, bu vəzifədə 14 il müddətində - 1974-cü ilədək çalışır. İşlədiyi müddətdə kənd adamlarının hörmət və məhəbbətini qazanan Gültac xanım 2 çağırış rayon sovetinin deputatı seçilir.

Oxumaq, ali təhsil almaq həvəsi onu bir an belə tərk etmir. Ailə, övlad qayğılarının çoxluğuna baxmayaraq o, 1974-cü ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun biologiya-kimya fakültəsinə daxil olur. Tələbə yoldaşlarından yaşlı olmasına, üç körpə övlad anası olmasına baxmayaraq Gültac xanım 1979-cu ildə institutun əyani şöbəsini fərqlənmə diplomu ilə başa vurur. Bundan sonra o, iki il müddətində Naxçıvan Elm Mərkəzində baş laborant işləmişdir. 1981-ci ildən elmi-pedaqoji fəaliyyət Gültac xanımı Naxçıvan Dövlət Pedaqoji İnstitutuna bağlayır. 1988-ci ilədək biologiya kafedrasında baş laborant kimi fəaliyyət göstərir.

1988-ci ildən Gültac Əliyeva pedaqogika və psixologiya kafedrasında çalışır. Əvvəlcə müəllim, üç il sonra baş müəllim, daha sonra isə dosent vəzifələrini tutur.

Psixologiya müəllimi kimi fəaliyyət göstərməsi, ümumiyyətlə psixologiya elminə olan dərin marağı Gültac xanımı bu sahədə tədqiqat aparmağa sövq edir. 1991-ci ildə o, Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutuna yaş və pedaqoji psixologiya üxtisası üzrə dissertant qəbul olunur. Onun dissertasiya mövzusu «Yeniyetmələrin mənəvi tərbiyəsində cinsi xüsusiyyətlərin nəzərə alınmasının psixoloji əsasları» kimi təsdiq olunur. 1996-cı ildə Gültac Əliyeva Bakı Dövlət Universitetində namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir. Rəsmi opponentləri psixologiya elmləri doktoru, professor M.Ə.Həmzəyev və psixologiya elmləri namizədi C.A.Təhmasib öz rəylərində əsərə yüksək qiymət verirlər.

Beləliklə, Gültac xanım Naxçıvan Muxtar Respublikasında psixologiya elmləri namizədi alimlik dərəcəsi alan ilk psixoloq qadın olur.

Gültac Əliyeva məhsuldar alimlərdəndir. Onun 40-dan artıq elmi məqaləsi, 5 kitabı çap olunmuşdur. Gültac xanım cinsi fərdlərin psixologiyası, cinsi tərbiyə, milli xüsusiyyətlər, mənəvi tərbiyə məsələləri ilə bağlı elmi-tədqiqat işlərini davam etdirir və bu sahəyə aid əsərləri çap olunur.

Hörmətli Gültac xanım! Sizi 70 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə can sağlığı, bundan sonra da səmərəli fəaliyyət göstərməyinizi arzu edirik.

**Ramiz ƏLİYEV,**
psixologiya elmləri doktoru, professor.